**QULU KƏNGƏRLİ**

# QARA YANVAR ŞƏHİDLƏRİ

**BAKI. GƏNCLİK. 1992**

Az 2

K 89

Redaktorları: *Elmira Fərruxzadə, Rəna Paşabəyova*

**Kəngərli Qulu,**
K 89 Qara Yanvar şəhidləri. [Məlumat kitabı]. B; Gənclik, 1992, 312 səh.

Jurnalist Qulu Kəngərlinin «Qara Yanvar şəhidləri» sorğu kitabında 1990-ci ilin yanvar ayında Bakıda, Lənkəranda, Neftçalada, Gəncədə, Sədərəkdə Azərbaycanın azadlığı və suverenliyi uğrunda qurban getmiş şəhidlər haqqında qısa məlumatlar toplanıb. Yanvar ayında həlak olmayan bir şəhid də salınıb bu kitaba. Tələbə, Ağabəy Novruzbəyli. Onun özünü qətlə yetirməsi 20 yanvar faciəsinin davamı kimi səslənir.

Oxucular bu sorğu kitabında onlar haqqında qısa məlumat alacaq, şəhidin harada və necə həlak olmasını öyrənəcəklər. Sorğu kitabında şəhidlərin familiyaları əlifba sırası ilə verilmişdir.

4702060204
K--------Elansız — 92
M 653 [07] — 92

© Gənclik. 1992.

# MÜNDƏRİCAT

**ÖN SÖZ**

**BAKI ŞƏHİDLƏRİ**

**LƏNKƏRAN ŞƏHİDLƏRİ**

**NEFTÇALA ŞƏHİDLƏRİ**

**GƏNCƏ  ŞƏHİDLƏRİ**

**SƏDƏRƏK /NAXÇIVAN/ ŞƏHİDLƏRİ**

**SON SÖZ**

## ÖN SÖZ

Bakı, 1990-cı il... yanvarın 19-dan 20-nə keçən gecə... Görən tarixin hansı gününə düşür bu ağrı? O hansı gündür ki, ömür-ömür bizimlə birgə duracaq, qaldıqca qalacaq... təqvimin ən ağır vərəqinə yazılacaq... 19-dan 20-nə keçən gecə... tarixin hansı anıdır axı bu...

...Həyatda elə anlar olur ki, o, insanın dünənini, bu gününü və sabahını müəyyən edir. Bəlkə bu gün həmin anını yaşayan xalqımızın yeni tarixi oradan başlanır. Hər halda o, adi vaxt ölçənlə hesablanmır... Günlərin və ayların vəhdətidir o an...

Və Şəhidlər xiyabanına gedən yol da o andan başlanır... Yaranandan bircə dəfə xalqın istədiyini deyən parlamanımızın qənşərindən keçir bu yol... Keçib də Təbrizə gedir...

Beynini qurdlar gəmirən manqurt dediyimiz kişi! Bu yolu addımlamısanmı heç? Şəhidlərlə bircə-bircə üz-üzə durmusanmı heç? Yəni dünyanın ən dəhşətli harayı da, ən gözəl sükutu da səni özünə qaytara bilmədimi?

Bir ağı da bu şikəst balana çək, ana!

...Nəğmə dərslərində Larisanın rəfiqələri «şən, bəxtəvər uşaqlarıq, azad Sovet ölkəsində» mahnısını çətin ki, bir də oxuyalar...

Nərimanın sinif yoldaşları tarixin qanlı səhifələrinin canlı şahidləridir. Çətin ki, onların qan yaddaşı unudula, çətin ki, silinə hafizələrdə...

...inanmıram ki, İlqarın məktəbli dostları rəsm dərsində lüləsinə göyərçin qonmuş tank şəkli çəksinlər!

...iynənin ulduzu boyda işığa həsrət qalan Yefimoviçin «Rebyata, ya slepoy, menya ne troqayte!» səsi tarixin işıqlı səhifələrində qaldıqca qalacaq...

...göz yaşları qurumuş qız əksindən də əzəmət yağan İlhamın başdaşını qucaqlayıb pıçıldayır: «Bacın qurban, elə yuxuma gəlirsən, yanıma gəlmirsən» ...İlhamla Fərizənin yaratdığı qeyrət və namus abidəsi dünyanın bütün bucaqlarından görünür...

...Ülvinin anası ağı deyir... Səsi batıb... məzarı qucaqlayıb balasına yalvarır: ...dur, dur gedək, ay ömrüm-günüm, havam, suyum, dağım-daşım... durun, durun gedək, ay insafsızlar, ay ağrınızı alım».

...Bir nəslin son yarpağı... Salehin məzarından pıçıltı gəlir elə bil «ağrımızı torpaq aldı, anam, elə aldı, elə aldı ki, yüpyüngül olduq»...

Doğulduğu ayın şərəfinə körpələrinə Yanvar adı verən Nəsirovlar ailəsi bu ayın qanlı şənbəsini necə biləydilər axı.

Yanvarın 19-da anadan olmuş Habilin ad gününü yoldaşları yox, güllələr qarşıladı...

...Bir gözəl yəhudi qızı vardı... Vera adında. Onunçün dünyanın ən gözəl şəhəri Bakı, ən gözəl dənizi Xəzər idi... Bəlkə elə buna görə ömürlük bu torpağa tapşırıldı Vera?

...uzun gecələrdə Gülbahar ana nağıl danışardı: «...göydən üç alma düşdü... biri Salehin, biri Cavadın, biri Sahibin...» Fələk bu düzümə də qıydı... Təkcə Sahibi saxladı... Gülbahar ana Salehin, Əzizə ana Cavadın iyini alır Sahibdən indi...

...Göyçə gölü yuvasından didərgin düşən Yusif balasının ölümünü bildimi görən? Bilib də ağladımı görən?

Belə... hansını deyib, hansından danışaq? Siz ey yetmiş ilin tarix müəllimləri, gəlin, gəlin heç olmasa bircə dəfə tarixi öz gözünüzlə görün, sətir-sətir, vərəq-vərəq oxuyun...sonra... sonra o siz, o da vicdanınız!

Burada gecə olmur... azğın qaranlıq qanadlarını bura gərə bilmir. Gecələr bura hələ ki, torpağa kök atan azadlıq toxumlarının işartısına bələnir... bəmbəyaz olur gecə *Şəhidlər xiyabanı...*

**Yarpaq-yarpaq sökülən dünya tumurcuq-tumurcuq açır... Bu yaz da belə gəldi. Bu yaz min cür fitnə-fəsadın içindən əsl həqiqəti görəcəyinə dəli bir ümidimiz var. Ona görə gözəldi bu yaz və min belə yaz ola Bakını bakılılardan «qoruyan» ordunun tankları tumurcuqlamaz, topları göyərməz... tumurcuqlayan, göyərən, qönçələnən şəhid qəbridi, anam!**

**Bu yaz azadlıq aşiqlərinin adınadır, bacım! Onların əkdiyi toxumu cücərtmək üçündü! Həqiqətimizi göyərtmək üçündü!**

**... Və hələlik bu həqiqət xiyaban boyu cərgələnən qərənfillər kimi al qan içindədir.**

**... hələlik bu həqiqət naməlum gəminin Xəzərdə su cığırına qarışıb . yoxa çıxıb...**

**... hələlik bu həqiqət «Etibarı buraxmasalar, dərsə getməyəcəyəm» deyən bir məktəblinin inadında yaşayır.**

**... hələlik bu həqiqət sülhün carçısı olan Sovetlər ölkəsində itkin düşmüş azadlıq aşiqlərinin ürəyində yatır.**

**... Moskva soyuqluğuna tab gətirməyən bu həqiqətin görünən tərəfi, Qızıl Ordunun qızıl qana bələdiyi yüz neçə şəhiddir... bəs görünməyən tərəfi?...**

**Siz bilən, həqiqətsiz yaşayan ömür ömürdürmü? Siz bilən bütün bunları unuda bilərikmi?**
**Ağrılı günlərdə qonşularımızın Sverdlovskdan vurduqları «təbrik teleqramını» da...**
**... Aşıq Ələsgərin şəhid qəbrini də unuda bilmərik...**
**... Keçmiş ancaq unudulmayanda tarixə dönür...**

# BAKI ŞƏHİDLƏRİ

## ABBASOV ZÖHRAB HEYDƏRƏLİ OĞLU



1970-ci ildə Bakıda anadan olub. Subay idi. Zöhrabda vərəm xəstəliyi olduğu üçün heç yerdə işləmirdi. 19-u gecəsi Zöhrab da getmişdi XI Qızıl Ordu meydanına. Səsini xalqın haqq səsinə qatmaq istəyirdi. Boğdular bu haqqın səsini. həmin gecə Zöhrab dəyənəklə, tüfəngin qundağı ilə, küt alətlə döyülərək ağır bədən xəsarəti almışdır.

Elə həmin gün də neyrocərrahiyyə xəstəxanasında keçinib.

Xırdalan qəbiristanlığında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Abşeron rayonu, Xırdalan qəsəbəsi, 28-ci məhəllə, ev 6, mənzil 24.

# ABBASOV SABİR RZAQULU OĞLU



1968-ci ildə Bakının Binə qəsəbəsində anadan olub. Mərdəkandakı 42 nömrəli texniki-peşə məktəbini bitirib. 1989-cu ilin yanvar ayında əsgəri xidmətdən qayıtmışdı. Subay idi.

Binə təyyarə limanında satıcı işləyib.

Axşam saat 10-da işdən çıxıb. Yolda əsgər gülləsinin qurbanı olmuş, gecə saat 23.05- dəqiqədə xəstəxanaya gətirilmişdir. Səhər onun meyidi Mərdəkandakı 26 nömrəli xəstəxanadan tapılmışdır. Qarın nahiyəsindən yaralanmışdır. Mərhum haqqında geniş məlumat yoxdur. 2 qardaşı, 4 bacısı var.

Binə kənd qəbiristanlığında dəfn edilmişdir.

Ünvanı: Binə, Bünyadzadə küçəsi 3, mənzil 22.

**ABBASOVA FƏRİDƏ NƏRİMAN QIZI**



1952-ci il fevralın 13-də Bakıda anadan olub. Evdar qadın idi. İki oğlu, bir qızı qalıb.

Yanvarın 19-da axşam saat 24 radələrində həyətdə paltar sərdiyi yerdə yağı gülləsi onun da ürəyini dəlib dayandı. Həkim gələnədək keçindi.

Yanvarın 20-də mərhumu dəfn etmək üçün Nardarana apararkən hərbçilər mane olub. Sonra gizli yollarla aparıb Nardaran qəbiristanlığında dəfn ediblər.

Bu ünvanda yaşamışdır: Bakı şəhəri, 11-ci Giriş küçəsi, 1.

**ABDULLAYEV ƏYYUB MAHMUD OĞLU**



1967-ci il iyunun 17-də Ermənistan SSR-in Vedi rayonunun Şidli kəndində anadan olub. Subay idi. Bakı soyuducular zavodunda fəhlə işləyib.

O müdhiş gecə saat 12.30-da evdən çıxıb. Valideynləri onu itkin hesab edib. Yada tutulub saxlanan adamların içində olduğuna inanıblar. Əyyub isə həmin gecə həlak olub. Yanvarın 22-də naməlum şəxs kimi Şəhidlər xiyabanında dəfn edilmişdir.

Nə ağır dərddir, ilahi. Mərhum Şəhidlər xiyabanında uyuyur. Valideynləri, əzizləri isə hələ də onu axtarır. Ancaq martın 11-də naməlum şəhidlərin şəkillərini televiziya ilə göstərərkən məlum olmuşdur ki, Əyyub Şəhidlər xiyabanında uyuyur.

«Naxçıvan» mehmanxanasının yanında həlak olub.

Bu ünvanda yaşamışdır: Bakı, Xuluflu küçəsi, 28a, mənzil 231.

**ABDULLAYEV ZAHİD ABDULLA OĞLU**



1959-cu il martın 5-də Xaçmaz rayonunun Yataq-oba kəndində anadan olub. Bakı Elektrik Maşınqayırma zavodunda fəhlə idi. Həmin zavodda işləyən Zeynəb Abdullayeva ilə ailə qurmuşdu. İki oğul, bir qız atası idi.

Kirayənişin yaşayırdılar 100 manata. Balaca bir otaq idi evləri. Neçə vaxt idi işlədiyi zavodda mənzil növbəsinə dayanmışdı. Həmişə də gözlə, — demişdilər. İlahi, nə qədər gözləmək olar? Gözləmədi daha.

İş yoldaşı İdris Seyidov hadisəni belə şərh edir:

— Yanvarın 19-dan 20-nə keçən gecə Salyan kazarmasının yanında işlətdiyim avtobusun içində oturub sakitcə siqaret çəkirdik. Güllə səsləri ara vermirdi. Elə bil müharibə idi. Bir azdan güllə səsləri lap yaxından eşidildi və avtobus atəşə tutuldu. Hamı aşağı əyildi. Amma güllə aşağıdan keçə bilmirmi? Ani bir vaxtda güllə maşının bütün şüşələrini çilik-çilik elədi. Başımızı qaldıranda isə artıq Zahid yox idi, güllə başından dəymişdi.

Zahid Abdullayev Xaçmaz rayonunun Yataq-oba kəndində dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Profsoyuznaya küçəsi 97, mənzil 106.

**ABDULLAYEV TARİYEL ORUC OĞLU**



1949-cu ildə Şəmkir rayonunun Qaranüy kəndində anadan olub. 4 nömrəli tikinti idarəsində rəngsaz işləyib. İki övladı qalıb. Bəhruz, Firuz, bir də biçarə anası...

Kirayənişin yaşayıb ömür boyu. Ev almaq alnına yazılmayıbmış. Balaca bir otağın küncünə sıxılıb — bir ana, iki bala. Bir də bu uşaqların məsum gözlərinə baxdıqca diksinən, gücü özünə çatan nənə.

Dünənə qədər taleyin göndərdiyi acıya da, şirinə də şükür oxuyan bu ailə indi heç nə ilə barışmaq istəmir. Ana oğul itirib, gəlin ər. İki oğul atasız qalıb. ,

XI Qızıl ordu meydanında güllə dəyib. Xəstəxanaya aparılarkən maşın yenidən atəşə tutulub və aşıb. Dərd üstündən dərd buna deyərlər. Xəstəxanada 4 saat əməliyyat stolunda olub. İşıqlar keçib. Şam işığında əməliyyat davam etdirilib. İkinci dəfə yanvarın 22-də cərrahiyyə əməliyyatı aparılıb. Bunun da xeyri olmayıb. Yanvarın 27-də canını tapşırıb.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, 5-ci mikrorayon, Tağızadə küçəsi, ev 38, mənzil 14.

**AĞAVERDİYEV ASLAN ƏLİKRAM OĞLU**



1952-ci il avqustun 24-də Bakıda anadan olub. Bakının Zevin küçəsindəki çay evində satıcı işləyib.

Üç qızı — Şəbnəm, Məsmə, Afaq başsız qaldı. həmin gecə saat 24-də güllə səsinə küçəyə çıxıb. Bütün gecə evə gəlməyib. Yanvarın 20-də onun meyidini Semaşko adına xəstəxananın ölüxanasından tapıblar. Ölüm ayağında elə hey deyirmiş: «Məni vuran kök, ucaboy, saqqallı, ortayaşlı əsgər idi». Güllə onun nazik və yoğun bağırsaqlarını, mədəsini və böyrəyini zədələyib. Xəstəxanaya gətirilənə qədər 3 litr qan itirib. Geniş məlumat yoxdur.

Yanvarın 21-də vəfat edib.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, C. Cabbarlı küçəsi, ev 54a.

**AĞAKİŞİYEV ŞAKİR XANDADAŞg OĞLU**



1961-ci il yanvarın 31-də Abşeron rayonunun Sitalçay kəndində anadan olub.

Sumqayıt qaz idarəsində çilingər işləmişdir. İki oğlu, bir qızı yadigar qalıb: Elçin, Vəfa, Əvəz. 3-cü uşaq atasının ölümündən sonra dünyaya gəlib — 1990-cı il iyunun 21-də.

Anasının dediklərindən:

— «19-da səhər evdən çıxdı balam. O günə daş düşəydi, necə ki, düşdü. Evdən çıxanda, dedi mama, «qud bay».

Dedim a bala, öz dilin yoxdumu? Gülə-gülə getdi. Bir də axşam gəlib evə. Saat beşdə. Mən evdə olmamışam. Sumqayıta bazara getmişdim. Qıçım sınaydı bazara getdiyim yerdə. Oturmadım evdə balamın boyuna bir də baxım doyunca. Evdə olsaydım, bəlkə də qoymazdım gedə o Xırdalan xarabaya. Balamı orda vurublar. Görüm onları gülləyə gəlsinlər.

İndi bu dey beş aydan təzəcə keçib tələf olmağı. Hər iki gündən bir gedirəm yanına. Gedəndə də anası ölmüş özümünkü yadımdan çıxır. Hamısına ağlayıram. Nakamlar lap cızdağımı çıxardır. İlhamla Fərizəni deyirəm. Heç olmasa oğlumun üç balası qaldı. Bə onlardan nə qaldı. Ağır dərddi ay, bala».

Xırdalan pivə zavodunun yanında dostu Meylanın «Jiquli» maşınında odlu silahla vurulub. Sinəsində beş güllə yarası olub. Meylan isə yaralanıb. Yanvarın 21-də gündüz saat 3-də meyidi Semaşko adına xəstəxanadan tapıblar. Yanvarın 22-də Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Sumqayıt şəhəri, Hacı Zeynalabdin Tağıyev qəsəbəsi, [Nasoslu], ev 63.

**AĞAHÜSEYNOV AĞAHƏSƏN YARI OĞLU**



1957-ci il aprelin 19-da Bakıda anadan olmuşdur.

Xətai rayonundakı 8 nömrəli elektrik şəbəkəsində elektrik mantyoru işləyib.

O gün axşam Ağahəsən qardaşı Tavabillə bir yerdə Salyan qazarmasının yanında olmuşdur. Tavabilin dediklərindən: Cecənin zil qaranlığında [işıqları da keçirmişdilər] tonqalın ətrafında oturub qızınırdıq. Birdən Salyan qazarmasının qapıları açıldı, bir tank çıxdı və başladı yolda dayanan maşınları şil-küt eləməyə. Eyni zamanda həm tankdan, həm binaların üstündən, həm benzindoldurma məntəqəsi tərəfindən güllələr yağmağa başladı. Uşaqlar göz görə-görə yerə sərilirdi. Qışqıran kim, yalvaran kim... Mən qardaşımla yaralıları maşına qoymağa başladım. Birdən o yıxıldı. Elə bildim ki, ayağı büdrəyib. Kömək etmək istəyəndə gördüm al-qan içindədi. Onu əzab-əziyyətlə Topçubaşov adına Eksperimental mikrocərrahiyyə xəstəxanasına apardıq. Ona 4 güllə dəymişdi. Gövdə nahiyəsinin sağ və sol tərəfləri dağıdıcı zədələnmiş, şok vəziyyəti yaranmışdı. Cərrahiyyə əməliyyatının köməyi olmamış, səhər saat 7-də keçinmişdir.

İki azyaşlı oğlanları Bəxtiyar və Səbuhi 10-15 il sonra, ağılları kəsəndə biləcəklər ki...

Əhmədli qəbiristanlığında dəfn edilmişdir.

Ünvan: Yeni Əhmədli qəsəbəsi, Sarayevo küçəsi, ev 18, mənzil 104.

**ALİMOV RAMİS XARİSOVİÇ**



1958-ci il iyulun 21-də Bakıda anadan olub. 1976-1978-ci illərdə Sovet Ordusu sıralarında xidmət edib. Milliyyətcə tatardır.

1973-cü ildən Bakı Boru Kəməri İdarəsində maşın təmiri çilingəri işləyib. Liliya adlı bir qızı qalıb.

O qorxunc gecə rahatca körpə balası Liliya ilə qoşa yatıbmışlar. Güllə səslərinə yuxudan oyanıb. Bir az gözləyib, görüb yox, bu nədirsə ciddi hadisədir. Qonşular deyib ki, küçələr yaralılarla doludur. Onda Ramis geyinib. həyat yoldaşı Nuraniyə Ramisi küçəyə çıxmağa qoymaq istəməyib. Amma Ramis çıxıb evdən, yaralılara kömək etmək ümidilə. Evdən çıxanda belə də deyib: — Qan qardaşlarım kömək gözləyir. Belə gündə evdə otursam, bu torpağın çörəyi mənə halal olmaz».

Bəli, bu torpağın çörəyi Ramisə halal oldu. Küçələrdə neçə yaralıya, kimlərə kömək eləyib, məlum deyil. Bircə son ünvanı məlumdu. Şəhidlər xiyabanı.

Bu ünvanda yaşamışdır: Bakı, 4-cü mikrorayon, Suvorov küçəsi, ev 216, mənzil 90.

**ALLAHVERDİYEV İLHAM ƏJDƏR OĞLU**

**ALLAHVERDİYEVA FƏRİZƏ ÇOBAN QIZI**



1962-ci il iyunun 12-də Ağdam rayonunda anadan olmuşdur. Bakıdakı Dadaş Bünyadzadə adına gəmi təmiri zavodunda tokar işləyirdi.

1970-ci ildə Ermənistan SSR, Spitak rayonunun Saral kəndində anadan olmuşdur. 1 nömrəli tibb məktəbinin axırıncı kurs tələbəsi idi.

1989-cu il iyunun 30-da toyları olmuşdu. Toyun səsi hələ qulaqlarından getməmişdi. Cəmi 6 ay vüsal şirinliyini dadmışdılar.

O qanlı yanvar gecəsində atışma eşidiləndə İlham da küçəyə çıxıb. Sonra qonşularla XI Qızıl Ordu meydanına gedib. Qoşunlar şəhərə girən vaxt, — saat 00.30-dəqiqədə yaralanıb. Respublika klinik xəstəxanasına aparılıb. Gecə saat 1-də cərrahiyyə əməliyyatı başlayıb. Xəstəxananın işığı keçirildiyindən kağız işığında, kibrit işığında əməliyyat aparılıb. Bundan sonra cəmisi 30 dəqiqə yaşayıb. Axırıncı sözü bu olub: — «Anama heç nə deməyin».

Fərizə isə gözləyirdi. Bir saat, iki saat, üç saat... Zülmət gecənin qaranlığına baxmaq əldən salmışdı onu. Səhərə kimi ilan vuran yatmışdı, Fərizə yox.

O qanlı yanvar səhəri eşitdi bu xəbəri. Gözləri qaraldı. Evdəkilərin gözündən yayınıb üstünə neft tökdü. Son anda kibriti əlindən aldılar. Hər addımını izləməyə başladılar.

Bir gün sonra yanvarın 21-də səhər erkən durub İlhamın böyük qardaşı Eldarın toppuş oğlu Əjdərin yatağına doğru gedib, uşağın yorğanını düzəldib. Bir xeyli beləcə durub Əjdərin təbəssüm dolu sifətinə baxıb. Nə düşünüb görən bu an Fərizə... Öz bədbəxt taleyinimi, İlhamın faciəli ölümünümü... Yoxsa gələcək körpəsinimi...

Gözü yaşlı o biri otağa keçir. Toy şəkillərini stolun üstünə tökür. Baxır, baxır, sonra isə əl boyda bir kağız parçasına bu sözləri yazır: «Mən onsuz yaşaya bilmərəm. Siz məni...» Sözlər burada qırılır. Sonra isə ölüm stəkanını başına çəkir. Bu vaxt saatın əqrəbi 6-nın üstündə idi.

Bu günkü günümüzün Leyli sevgisini, Leyli sədaqətini, Leyli ucalığını görmək istəyənlər Şəhidlər xiyabanına getsin. Bir qoşa məhəbbətin qoşa zirvəsi uyuyur o torpaqda.

Bu ünvanda yaşamışlar:

Bakı, 2-ci Alatava, ev 34Q.

**ALLAHVERDİYEV RUSLAN KAMAL OĞLU**



1967-ci il aprelin 10-da Ucar rayonunun Musüslü kəndində anadan olub. Subay idi.

Bakı şampan zavodunda fəhlə işləyirdi.

19-u axşam Salyan qazarmasının yanında olub. İki güllə yarası alıb. Sonra üstündən tank keçib. Atası onun meyidini Salyan qazarmasının yanından tapıb.

Mərhum Xırdalanda dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Abşeron rayonu, Sulu təpə qəsəbəsi, E. Telman küçəsi, 25.

**ALMƏMMƏDOV TEYMUR YƏHYA OĞLU**



1972-ci ildə Naxçıvan MSSR, Şahbuz rayonunun Keçili kəndində anadan olub.

N. Nərimanov adına Tibb Universitetinin əczaçılıq fakültəsinin 1 kursunda təhsil alırdı. Subay idi,

Teymur birinci imtahan sessiyasını uğurla başa vurmuşdu. Doğma kəndlərinə getmək istəyirdi. İki dostu ilə Aerokassadan Naxçıvana bilet alıb. Səssiz, sakit geri qayıdarkən elə Aerokassanın qabağındaca başından güllə yarası alıb. Yoldaşları danışır ki, getdiyimiz yerdə birdən başını tutub yerə yıxıldı. Heç bilmədik ki, güllə hansı səmtdən gəldi. Onu 4 nömrəli klinik xəstəxanasına gətirdik. Güllə Teymurun əmgəyindən dəymiş, üst çənəsində ilişib qalıbmış. Həkim Nizami Məmmədov yeddi gün yaralını həyata qaytarmaq üçün çalışmış, Teymur özünə gəlmədən canını tapşırmışdır. [Yanvarın 31-i saat 03.45-dəqiqədə]. Teymur dörd bacının bir qardaşı, ailənin yeganə oğlu idi. Şahbuz rayonunun Keçili kənd qəbiristanlığında dəfn edilib.

Valideynləri həmin kənddə yaşayır.

## ATAKİŞİYEV BƏHRUZ TOFİQ OĞLU



1961-ci ildə Bakıda anadan olub. Avtomobil dəstəsində sürücü işləyib. Subay idi.

Qardaşı Faiqin dediklərindən:

— O gecə təxminən saat 24.00-da küçədə atəş səsləri eşitdik. Evdə oturmaqmı olardı? Fikirləşdik ki, gedək görək nə olub? Bəhruz və xalam oğlu Nizami ilə birlikdə küçədəki camaata qoşulub «Gənclik» metrosu istiqamətinə getdik. Yolda hərbçilər bizi atəşə tutdu. Burada Bəhruza güllə dəydi. Tez onu 5 nömrəli xəstəxanaya apardıq. Biz ora çatanda gecə saat 2-nin yarısı idi. Cərrahiyyə əməliyyatı da elə o vaxt başlandı. Səhər saat 6-da qurtardı.

Anası Tamara xanım ağlaya-ağlaya bunları deyə bildi: — Küçəyə çıxanda Bəhruz dedi ki, ana, mən gedirəm səni qorumağa. Bir saatdan sonra oğlum Faiq evə zəng edib Bəhruzun və Nizaminin yaralandığını xəbər verdi. Yanvarın 21-də səhər saat 6-da keçindi gül balam. Anası öləydi onun. Mərhum Şəhidlər xiyabanında uyuyur.

Bu ünvanda yaşamışdır: Bakı, Naxçıvani küçəsi, ev 6, mənzil 3.

**BABAYEV RAHİM VAQİF OĞLU**



1970-ci il dekabrın 5-də Ordubadda anadan olub. M. Əzizbəyov adına Azərbaycan Sənaye Universitetinin III kurs tələbəsi idi. Yanvarın 19-da gecə saat 12-də evdən çıxıb, bir daha geri qayıtmayıb; Cecə saat 2-də tələbə yoldaşı Vüqar Hacıyev onu Salyan qazarmasının yanında görüb.

Altı günlük axtarışdan sonra yanvarın 25-də meyidi Semaşko adına xəstəxananın meyidxanasında tapılıb. Yanvarın 20-dən hər gün bu meyidxana ilə əlaqə saxlanmasına baxmayaraq meyid buraya yanvarın 24-də təhvil verilmişdir. Həkimlərin dediyinə görə meyid Bakıdakı hərbi qospitallardan birindən gətirilmişdir.

9 rəqəmi görünür Rahimə bədbəxtlik gətirən rəqəm olub: 19-u gecə həlak olub, 19 yaşından 49 gün keçmişdi. İnstitutdakı qrup nömrəsi 559, meyidin nömrəsi 359, qəbirin nömrəsi 69.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, 2-ci mikrorayon, T. Əliyev küçəsi, ev 15, mənzil 120.

**BABAYEVA SÜRƏYYA LƏTİF QIZI**



1913-cü ildə anadan olub.

Biləcəri qəsəbəsində oğlunun yanında yaşayıb.

Yanvarın 22-də saat 17.25 dəqiqədə Biləcəri şosesində hərəkət edən hərbi zirehli maşınlardan və tanklardan buradakı binalar atəşə tutulmuş, mətbəxdə xörək hazırlayan 77 yaşlı Sürəyya Babayeva aldığı yaradan yerindəcə həlak olmuşdur. Bina 5 dəqiqədən çox avtomat və pulemyotlardan atəşə tutulmuş, 76-cı mənzildə yaşayan Mürsəl Əsgərov da yaralanmışdır. Mənzillərdə avtomat və pulemyot güllələrinin yeri qalır.

Mərhum İmişlidə dəfn edilib.

Ünvanı: Bakı, Biləcəri qəsəbəsi, Tbilisi şosesi, ev 1a, mənzil 29.

**BABAYEV FUAD YAVƏR OĞLU**



1967-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun inşaat fakültəsinin III kurs tələbəsi idi.

Həmin gecə güllə səsi eşidəndə hamı kimi o da bayıra çıxıb. Yoldakılar danışıblar ki, Biləcəri yoxuşunda, XI Qızıl Ordu meydanında dinc əhalini qırırlar. 23 nəfər cavan oğlan məsləhətləşirlər ki, Qızıl Ordu meydanına gəlib yaralananlara kömək etsinlər. Onlar Qızıl Ordu meydanına çatanda artıq əsgərlər dinc əhaliyə divan tutmağa başlamışdı. Gənclər respublika xəstəxanasına tərəf qalxırlar.

Bir azdan Fuada güllə dəyir. Bizlə görüşəndə qardaşı Cabbar bildirdi ki, yanvarın 20-də səhər saat 7-də Fuadın dostu Cavadov Səfər bizə zəng edib ağlaya-ağlaya dedi ki, Fuadı əsgərlər XI Qızıl Ordu meydanında öldürüblər. Mən tez onlara getdim və birlikdə respublika xəstəxanasının meyidxanasına gəldik. Çox dəhşətli bir mənzərə idi. Allah heç kəsə qismət eləməsin. Qardaşım al-qanın içində idi. Güllə ona boğazından dəymişdi.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Talıblı küçəsi 318, mənzil 79.

**BAĞIROV BALOĞLAN HƏBİB OĞLU**



1966-cı il yanvarın 29-da Maştağa qəsəbəsində anadan olmuşdur. Azərquşsənaye birliyinin baytarlıq laboratoriyasında işləyib. Yanvarın 23-də Baloğlan qaynanasını Gürcüstana yola salmaq üçün qardaşı Atamoğlanla birlikdə şəhərə gəliblər. Həmin gün təxminən saat 16.00-da Tbilisi prospektindəki benzindoldurma məntəqəsinin yaxınlığında hərbçilər heç bir Səbəb olmadan onların getdiyi maşını atəşə tutmuşlar. Baloğlan döş qəfəsindən və qarın boşluğundan yaralanmış, onu xəstəxanaya aparmışlar. Hərbçilərin atdığı güllələr mərhumun cibindəki sovet pasportunu dəlib keçmişdir. [pasport III JQ № 665717]. Mərhum yanvarın 29-da, yəni ad günündə vəfat etmişdir.

Üç uşağı atasız qalıb.

Şəhidlər xiyabanında dəfn edilib.

Ünvanı: Maştağa qəsəbəsi, Məktəb küçəsi 115.

**BAĞIROV TELMAN MƏLİK OĞLU**



1960-cı ildə anadan olub.

26 Bakı komissarı rayon milis şöbəsində kiçik serjant vəzifəsində işləyirdi.

Yanvarın 20-də təxminən saat 20 radələrində evə gəlib, şam edib və yenidən işə qayıdacağını bildirib. Təxminən 22.30 radələrində naməlum şəxs evə zəng edib və soruşub ki, Telman Bağırov adlı qohumunuz varmı? Sonra da əlavə edib ki, Telman yaralanıb, mən onu öz şəxsi maşınımda təcili yardım xəstəxanasına apardım. Və dəstəyi asıb.

Mərhum «Dostluq» kinoteatrının yanındakı danışıq məntəqəsinin qarşısında əsgərlər tərəfindən vurulub [məhz «Dostluq» kinoteatrının yanında Xəstəxanada ona tibbi yardım göstərilənə qədər keçinib].

Telman ilk körpəsinin üzünü görmədən şəhid olub göylərə çəkildi. Fevralın 11-də, 22 gündən sonra bir qızı olub.

Bu ünvanda yaşamışdır: Bakı, İçərişəhər, 2-ci döngə, ev 14, mənzil 3.

**BALAHÜSEYN MİRQƏZƏB OĞLU**



1929-cu ildə Bakıda anadan olub. 2704 nömrəli avtomobil xəstəsində sürücü işləyib. Beş övladı atasız qaldı. Mərhum hələ yaralı ikən bunları deyib:

— Yanvarın 19-da evə axşam gəldim. Yoldaşım dedi ki, gör uşaqlar haradadır. Mən küçəyə çıxıb onları Yeni Suraxanı dairəvi yolunda tapdım. Onları evə göndərdim. Mən də getmək istəyirdim ki, tanışlarım məni səslədi və dayanıb onlarla söhbət eləməyə başladım.

Belə xeyli söhbət elədik. Birdən güllə səsləri eşidilməyə başladı. Bir də gözümüzü açdıq ki, camaat bir-bir yıxılır. Bu an güllə mənə də dəydi. Biz sürünə-sürünə ağaclığa girdik. Sonra məni Caparidze adına xəstəxanaya gətirdilər. Maşını yolda da atəşə tutdular, amma xətər toxunmadı. Xəstəxanada məlum oldu ki, mənə 3 güllə dəyib.

Martın 24-də vəfat edib. Mərhum Yeni Suraxanı qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşayıb: Bakı şəhəri, Yeni Suraxanı qəsəbəsi, Oktyabr küçəsi, 20.

**BAYRAMOV İSABALA ƏLİ OĞLU**



1967-ci ildə Ermənistan SSR Quqark rayonunda anadan olub. Hərbi xidmətdən sonra bir müddət Komi ASSR-də praporşik işləyib. Sonra Vətənə qayıdıb. 1988-ci ildə doğma yurd-yuvasından didərgin düşmüşdür. 2 uşağı var. Hələ işə düzələ bilməmişdi. Günəmuzd işləyirdi.

Yanvarın 19-da əmisi oğlu Bayramov Mübarizlə XI Qızıl Ordu meydanına gediblər. Təxminən 00.30 radələrində dinc əhaliyə silah atılan vaxt İsabala yaralanmış, onu Semaşko xəstəxanasına gətirənəcən yolda keçinmişdir.

Güllə baş nahiyəsindən dəymiş, kəllə sümüyünü zədələmişdir.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır. Bakı, K. Marks prospekti, ev 21.

**BAXŞƏLİYEV ELÇİN MİRZƏ OĞLU**



1965-ci il fevralın 12-də Bakıda anadan olub. 2 nömrəli avtobus parkında sürücü işləyirdi. Subay idi. 19-dan 20-nə keçən gecə 2 nömrəli taksi maşınları parkının yanında yaralılara kömək edirmiş. Bu vaxt hərbçilər onu da atəşə tutmuş. Elçin qarın nahiyəsindən güllə yarası almışdır. Yaralı Semaşko adına xəstəxanada keçinib.

Qohumları onun meyidini yanvarın 20-də həmin xəstəxananın ölüxanasından tapıblar.

Abşeron rayonunun Şurabad kənd qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı şəhəri, Ə. Ələkbərov küçəsi, 24.

**BESSANTİNA VERA LVOVNA**



1973-cü ildə hərbi qulluqçu ailəsində anadan olmuşdur, Milliyyətcə yəhudidir. 258 nömrəli orta məktəbin 11-ci sinif şagirdi idi. 23 nömrəli musiqi məktəbinin skripka sinfini bitirmişdi. Musiqi bu incə qızın qanına hopmuşdu. Baxın, Vivaldinin konsertlərini özünəməxsus məharətlə ifa edirdi.

17 yaşın içində idi. Martın 2-də 17 yaşı tamam olacaqdı, ad günündə qırxı verildi. Vera Bessantina ömrünün akkordları isə yanvarın 20-də vuruldu. '

Yanvarın 19-dək Salyan qazarması ilə üzbəüz binada yaşamışdır. O gecə qazarmadan hər yana atəş açılırdı, hətta yaşayış binalarına... Evin içindəcə Vera qarın nahiyəsindən yaralandı. Bunu görən ailə üzvləri Veranın qarşısında diz çökdülər. Elə bu an diz çökənlərin başı üstündən fasiləsiz avtomat gülləleri divarlara sancıldı və evdə yanğın törəndi. Vera oradaca keçindi. Nakam bir qızcığazın ömrü beləcə sındı. Valideynlərinin ürəyi də sındı, inamı da... Partiyaya, hökumətə, dövlətə... Onu torpağa tapşırdıqları gündən o nakam qızcığazla maraqlananların birini də evə buraxmırlar. Bircə söz deyirlər gələnlərə: « Dayte nam pokoya».

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Naximov küçəsi 29, mənzil 94.

**BOQDANOV VALERİ ZAKİROVİÇ**



1958-ci il martın 24-də Gəncə şəhərində anadan olub. Milis leytenantı idi.

Yanvarın 19-da səhər tezdən işə çağırılıb. Yanvarın 20-də səhər saat 5.30-da evə gəlib həyat yoldaşına deyib ki, bir azdan evə qayıdacaq. İndi tapşırıq dalınca gedirlər. Kapitan Oqtay Mirzəyev və leytenant Ağanəzər İsrayılov onunla bir yerdə olur. Səhər saat 7.15 dəqiqədə onların maşını Tbilisi prospektindəki kimya şəhərciyinə [ximqorodok] dönərkən arxadan güllə səsi eşidilir. Hər şey bir anın içində olur. Valeri bir də ayılır ki, Ağanəzərin başı çiyinlərinə düşdü. Bircə onu deyə bilib ki, Oqtay, Ağanəzəri öldürdülər. Bu an güllə Valerinin də səsini içində qoyur. 4 saatdan sonra isə Valeri Boqdanov vəfat edir. 31 yaşında. İlk körpəsinin üzünü görməmiş.

Gəncə şəhər qəbiristanlığında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, B. Dadaşov küçəsi, ev 26, mənzil 5.

**BÜNYADZADƏ ÜLVİ YUSİF OĞLU**



1969-cu ildə Ermənistan SSR-in Basarkeçər rayonunun Kəsəmən kəndində anadan olub.

Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinin II kurs tələbəsi idi. Yaxşı tərcümələr edir, şer yazırdı. Haqsızlığa qarşı barışmaz idi.

Yazı-pozusunun içindən çıxmış bu sətirlər Ülvinin ülviləşən məsləkidir: «Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm: bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam; Azərbaycan torpağının qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsl-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanına layiq oğul olacaq, qorxaqlığı, alçaqlığı, yaltaqlığı özümə yaxın buraxmayacaq, nəyin bahasına, olursa-olsun öz azərbaycanlı «mən»imi təsdiq edəcəyəm.

Əgər vədimə xilaf çıxsam, qoy anamın südü, elimin çörəyi mənə haram olsun, Vətən üzü görməyim».

İmza: B. Ülvi, 10.IX-89.

Ülvi sözünə əməl etdi. XI Qızıl Ordu meydanında həlak oldu. Ülviləşdi. Şəhidlər xiyabanında dəfn edildi.

Bu ünvanda yaşamışdır: Bakı, Anaşkin küçəsi, ev 12, mənzil 7.

**QAYIBOV ƏLƏSGƏR YUSİF OĞLU**



1966-cı il martın 15-də Gürcüstan SSR Qaraçöp mahalının Yormuğanlı kəndində anadan olub.

Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun ikinci kurs tələbəsi idi. 24 yaşın içində idi, amma nə institutu qurtarıb təhsilini başa vuracaq, nə də yaşı üstə yaş gələcək. Bir ildən sonra da 24 yaşında olacaq, bir əsrdən sonra da.

O gecə xeyli yaralıya kömək etmişdi. «Gənclik» metrosunun yanından neçə dəfə 5 nömrəli xəstəxanaya gedib-qayıtmışdı.

Bu dəfə də qayıtdı xəstəxanaya, yaralı kimi...

Mürəkkəb cərrahiyyə əməliyyatı aparıldı. Amma nə xeyri, yağı güllləsi dərin işləmişdi.

Yanvarın 21-də səhər saat 7-də keçinmişdir. Sabahısı gün isə Qaraçöpdən Qaradüzə bir maşın sürət götürəcəkdi. Düz 24 il əvvəl atasından aldığı muştuluğu dünya çapardan geri istəyəcəkdi. Dünyadı da, ağladır da, güldürür də... Şair yaxşı deyib...

Zaman peşman olub öz gördüyünə,
Bu dərd çəkilməz ki, çəkilməz, atam,
Dərd batman kələndə düşər düyünə,
Fəqət açılmaz ki, açılmaz, atam.

Şəhidlər xiyabanındakı ağaclara bağlanmış qara lentlərin düyünləri açılacaq, amma ürəklərdən bu dərdin düyünü açılmayacaq.

Bu ünvanda yaşamışdır: Gürcüstan SSR, Saqareço rayonu, Yormuğanlı kəndi.

**QASIMOV ABBAS ŞƏMMƏD OĞLU**



1966-cı il iyunun 10-da Ermənistan SSR, Amasiya rayonunun Balıqlı kəndində anadan olmuşdur. Abbasın 3 yaşı olanda atası vəfat edib.

1988-ci ilin aprelində Ermənistandan, dədə-baba yurdundan qovulublar. Köçü gətirəndə Abbas evlərinin əşyalarını yüklədiyi «Kamaz» maşını Gürcüstan istiqamətilə gedərkən aşmış, təsadüf nəticəsində Abbas sağ qalmışdır. Söz var deyərlər, yetim üçün ay da, gün də qaradır. Abbas o təhlükədən sovuşdu, Bakıda isə yağı gülləsinin qurbanı oldu. Heç yerə işə düzələ bilməmişdi. Günəmuzd fəhləlik edirdi. 2 qardaşı, bir bacısı var. Subay idi.

Həmin gün təxminən gecə saat 12-də bibisi oğlu ilə evdən çıxıb. XI Qızıl Ordu meydanına çatar-çatmaz işıqlar söndürülmüş və hərbçilər dinc əhalini atəşə tutmuşlar. Abbas yaralanmış, təxminən saat 3-də Respublika xəstəxanasına gətirilmiş, 4 saatdan sonra keçinmişdir. O vaxt xəstəxananın işıqları söndürülübmüş. Cərrahiyyə əməliyyatı şam işığında aparılıb.

Şəhidlər xiyabanında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Bakı, 2-ci mikrorayon, Cəbiyev küçəsi, ev 25, mənzil 36.

**QASIMOV YUSİF İBRAHİM OĞLU**



1948-ci ildə Naxçıvan şəhərində anadan olub. «Şərur» kafesində fəhlə işləyib.

Yanvarın 19-da saat 23-də dostunun maşınında qızı Nigarın rəfiqəsigilə gedirmiş. «Xəzər» kinoteatrının yanında heç bir səbəb olmadan maşın atəşə tutulmuş, Yusif sağ qulaq nahiyəsindən yara almış, 2 gündən sonra qohumları meyidini mərkəzi meyidxanadan tapmışlar.

Qızı Nigar 7 nömrəli məktəbin 3-cü sinif şagirdidir həyat yoldaşı Reyhanə Əziz qızı 7 nömrəli mənzil-istismar idarəsində fəhlə işləyir.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Malıgin küçəsi, 8, mənzil 5.

**QARAYEV İLQAR ƏLİ OĞLU**



1959-cu il sentyabrın 10-da Bakıda anadan olub. Subay idi.

Bakı metropoliten idarəsində mexanik işləmişdir.

Yanvarın 19-da axşam saat 23-də səs-küyə küçəyə çıxıb. Ağ rəngli QAZ-24 markalı maşın adamları küçəyə səsləyirmiş. İlqar Salyan qazarmasının yanına gedib.

Anası Sona xanımın dediklərindən:

— Gördüm ki, İlqar gecikir. Odur ki, Salyan qazarmasının yanına getdim. Onu tapa bildim. Məni görən kimi dedi ay ana, sən niyə gəlmisən, qayıt geri. Məni zorla evə qaytardı. Bir azdan isə atışma başladı. Onu çox gözlədik. Gəlmədi. Sabahı gün bütün günü axtardıq. Yanvarın, 21-də meyidini mərkəzi ölüxanadan tapdıq. Güllə alnından dəymişdi. Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, M. Sübhi küçəsi, dalan 8, ev. 2.

## QEYBULLAYEV ELÇİN SİYƏDDİN OĞLU



1968-ci ildə Quba rayonunun Qalabı-Qışlaq kəndində anadan olub. Bakı Baş Tikinti idarəsinin 20 №-li tikinti idarəsində fəhlə işləyib. Hərbi xidməti Əfqanıstanda keçirib.

Yanvarın 19-da Elçin axşam təxminən saat 23-də evdən çıxıb, Salyan qazarmasının yanına gedib. Yanvarın 21-də qardaşı İlqar onun meyidini mərkəzi ölüxanadan tapıb. Quba rayonunda dəfn edilib.

Bakı Baş Tikinti idarəsinin yataqxanasında yaşamışdır.

**QƏNİYEV MİRZƏ RZABALA OĞLU**



1958-ci il sentyabrın 13-də Bakıda anadan olub. Bakı su kəmərləri idarəsində çilingər işləyib.

Bir uşaq atası idi. Uşaq 1989-cu il noyabrın 8-də anadan olub.

Mərhum yanvarın 19-da gecə evdən çıxıb. Şəhərin mərkəzinə getmək istəyirmiş. Mərhumun ölümündən qabaq dediklərindən:

— Salyan qazarmasının yanına çatanda gördük ki, yolun hər iki tərəfində iki tank dayanıb, tankların yanında isə hərbçilər. Maşın onlara yaxınlaşanda heç bir xəbərdarlıq olmadan atəş açdılar. Sürücü yaralandı. Geri qayıtmağa imkan yox idi. O, maşını bir az da irəli sürdü. Yenə atəş açıldı. Hiss etdim ki, kürəyimdən yaralanmışam. Maşın səkiyə çıxıb dayandı. Bu zaman mən ayağımdan yaralandım. Əsgərlər bizi maşından sürüyüb yerə saldılar. Bizi təpikləyirdilər. Bir azdan təcili yardım maşını gəldi. Hərbçilər bizi vermək istəmirdilər. Həkimlə hərbçilər mübahisə etdi. Çətinliklə bizi götürdülər...

Bir ay müalicə olunub. Fevralın 19-da Semaşko adına xəstəxanada vəfat edib.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, 1-ci Alatava, ev 48.

**QOCAMANOV ƏLİYUSİF BİLAL OĞLU**



1933-cü il iyunun 1-də Bakıda anadan olub. «Naxçıvan» mehmanxanasındakı qəzet köşkündə satıcı işləyib. Üç övladı var.

Mərhum o gecə güllə səsinə küçəyə çıxıb. «Xəzər» kinoteatrının yanında yaralanıb. Semaşko adına xəstəxanaya gətirilib. Qohumları meyidini yanvarın 20-də mərkəzi ölüxanadan tapıb.

Pirşağıda dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı şəhəri. 565-ci kvartal, ev 5, mənzil 45.

**QULİYEV SƏXAVƏT BALAY OĞLU**



1940-cı ildə Füzuli rayonunun İsalı kəndində anadan olub.

Nəsimi Rayon İstehlak Cəmiyyətində mağaza müdiri işləmişdir. 4 övladı qalıb.

Yanvarın 19-cu gecəsi güllə səsi eşidəndə hamı kimi Səxavət də küçəyə çıxıb. Özü də ev paltarında. Evdə bir az gözləyirlər, gəlmir. Qardaşı Mahir küçəyə çıxır. Səxavəti soraqlayanda cavab verirlər ki, onu vurdular.

Mahir qardaşının arxasınca 5 nömrəli xəstəxanaya gedir. Qardaşı Səxavəti tapanda artıq o keçinmişdi. Kürəyində bir güllə yarası olub.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Bakıxanov küçəsi, ev 7/1.

**EMİNOV VƏFADAR OSMAN OĞLU**



1966-cı il mayın 1-də Borçalı mahalının Kirəc-Muğanlı kəndində anadan olmuşdur.

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin axşam şöbəsində oxuyurdu, 1 nömrəli tikiş fabrikində fəhlə işləyirdi. Qismət olmadı ona hüquqşünas olub qanunçuluğun keşiyində durmaq. Respublikanın suveren hüquqlarını pozan, SSRİ və Azərbaycan SSR Konstitusiyasını tapdalayıb keçən hərbçilərin gülləsinin qurbanı oldu.

Yanvarın 21-də sessiya imtahanını verib «5» almışdı. Amma sevinmirdi. Bu faciəli günlərdə sevinməkmi olardı.

İmtahandan çıxandan sonra təxminən gündüz saat bir radələrində yolüstü Qədirli adına xəstəxanaya gedib, yaralılara vurulmaq üçün qan verib.

Xəstəxanadan çıxıb «Olimp» mağazasına tərəf piyada düşürdü. Qan vermişdi, yaralılara öz kiçicik köməyini eləmişdi, haradasa bir az ürəyi rahatlıq tapmışdı. Sakit-sakit yol gedirdi.

Qoymadılar ürəyindəki rahatlığı uzun çəkə, qoymadılar sakit-sakit yolunu gedə. Yağı gülləsi onun da ürəyinə dəyib dayandı. Verdiyi qanın dalınca qayıtdı.

Həlak olandan sonra cibindən çıxan sənədlər bunlardır: tələbə bileti, qiymət kitabçası, cib dəsmalı, pencəyinin düyməsi, «Qarabağ» siqareti, [maraqlıdır ki, o, siqaret çəkməyib] «Azadlıq» qəzetinin ikinci nömrəsi, bir də 30 qəpik pul. Bunlardan ancaq «Azadlıq» qəzeti qana bulanıbmış. Bu bir təsadüfdürmü?.. Son sözü bu olub Vəfadarın: «Yaşamaq istəyirəm, sağalacağammı?»

Anası Tamara xanımın dediklərindən:

— Keçən il gəlmişdi kəndə, noyabrın 7-də. Gedəndə demişdi ki, yanvarın 25-i qayıdacağam, imtahanlardan sonra. Əməl eləmədi verdiyi sözə. Yolunu Şəhidlər xiyabanına saldı, xalqın ürəyində həmişə yaşamaq üçün.

Bu ünvanda yaşamışdır: Bakı, Lenin prospekti, ev 146a, mənzil 24.

**ƏBÜLFƏTOV MİRCAMAL MİRSALEH OĞLU**



1958-ci il dekabrın 17-də Lənkəranda anadan olub. Lənkəran şəhərlərarası yükdaşıma idarəsində fəhlə işləyib.

7 yaşında bir qızcığazı qaldı Mircamalın. Lənkərandan Bakıya qonaq gəlmişdi. Gələndə şeytan qızcığazı boynuna sarılmışdı. Həmişə verdiyi sualı yenə vermişdi: — Ata, nə vaxt qayıdacaqsan?

Mircamal da həmişəki kimi cavab vermişdi: — Bir-iki günə qayıdacam, ceyran balam.

Sözünün üstündə durdu. Qayıtdı Lənkərana bir-iki günə. Qara qutuda. Nəfəssiz, cansız...

O qanlı gecə atışma səsinə küçəyə çıxıb. Eşidib ki, XI Qızıl Ordu meydanının yanında çoxlu yaralı var, kömək lazımdır. Ora gəlib. Qızıl Ordunun öldürdüyü və yaraladığı adamlara kömək etmək hərbçilərin xoşuna gəlməyib. Onu da vurublar. Qarın və sinə nahiyəsindən güllə yarası alıb. Xəstəxanaya aparılarkən saat $03^{30}$ dəqiqədə yoldaca canını tapşırıb.

Mərhum Lənkəranda dəfn edilib.

Bu ünvanda yaşamışdır: Lənkəran şəhəri, Əli Bayramov küçəsi 280.

**ƏBÜLHƏSƏNOV İLQAR YUSİF OĞLU**



1967-ci ildə Bakıda anadan olub. Bakının Oktyabr Rayon Daxili İşlər şöbəsində kiçik serjant işləyirdi. Həmin gecə xidməti növbədə idi.

O qanlı yanvar gecəsində təxminən saat 24.00 radələrində «Naxçıvan» mehmanxanasının yanında özünəməxsus YU 24— 20 nömrəli QAZ-24 maşınından düşərkən avtomatdan atəşə tutulmuş, sonra xəstəxanaya aparılmışdır. «Dərd də azar kimi, gələndə batmanla gəlir» [Y. Səmədoğlu]. Xəstəxanada cərrahiyyə əməliyyatı 5 saat çəkib. 5 saatlıq cərrahiyyə əməliyyatı, əvvəl şam işığında, sonra isə qəzet yandırmaqla. Mənə elə gəlir ki, o gecə Bakının bütün xəstəxanalarına qarşı törədilən o vəhşilik-işıqların söndürülməsi dünyanın heç bir ölkəsində, istər demokratik, istərsə də burjua təmayüllü ölkələrdə baş verməyib. Və bundan sonra da heç vaxt olmayacaq. Bu qara səhifəni də tarixə istilaçı imperiya yazdı. Həkimlərin bütün səylərinə baxmayaraq İlqar Əbülhəsənov yanvarın 22-də səhər saat 11-də əbədiyyətə qovuşdu.

Şəhidlər xiyabanında uyuyur.

Bu ünvanda yaşamışdır: Bakı, Qoqol küçəsi, ev 96a, mənzil 3.

**ƏZİZOV HABİL KOMUNAR OĞLU**



1968-ci il yanvarın 19-da Qazax rayonunun Kalinin kəndində anadan olmuşdur. Elə yanvarın 19-u gecəsi də həlak oldu.

Azərbaycan İqtisad İnstitutunun III kurs tələbəsi idi. Habil üç yaşında olanda anası vəfat edib. 2 qardaşı, 4 bacısı Habilsiz qaldı. Yanvarın 19-da, təxminən saat 24 radələrində güllə səsləri gəlməyə başlayanda Habil dostları ilə (İlqar Abbasov, Azər Babayev] Salyan qazarmasının yanına getmişdilər.

Dariko Babayeva danışır ki, güllə səsləri güclənəndə mən, əmisi Ələsgər Əzizov, Əsərə Əliyeva, Gülnaz İsmayılova, Raya Ağayeva ilə birlikdə uşaqların dalınca getdik. Salyan qazarmasının yanına çatmamış bizi yaşlı bir əsgər saxladı və avtomatın qundağı ilə vurub, rusca dedi: «Bu dəqiqə çıxıb gedin buradan, yoxsa sizi də... Gülə-gülə əlavə etdi ki, uşaqlarınızın meyidini isə gəlib sabah apararsınız».

Səhər saat 7-də evə getdim, oğlum Azər evdə idi. Habil isə yox idi. Sabahısı gün onu Semaşko adına xəstəxananın ölüxanasından tapdıq.

Mərhum Qazax rayonunun Kalinin kənd qəbiristanlığında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, 14-cü Dağlıq küçəsi, dalan 6, mənzil 27.

**ƏLƏKBƏROV AZƏR NƏSİB OĞLU**



1967-ci ildə Bakıda anadan olub. 172 nömrəli orta məktəbi bitirib. Azərbaycan Dövlət İncəsənət Universitetinin rejissorluq fakültəsinə daxil olub. III kursda oxuyurdu. Yolun əyri-üyrüsünü, çətinini keçmişdi. Düz yola çıxmağa nə qalmışdı ki...

Yaxşı rejissor olmaq arzusu ilə yaşayırdı. Qismət olmadı. Belə yazılıbmış. Ailənin yeganə oğlu idi. İlk hekayələrinin qaralaması qalıb. «Bahar sevinci», «Yol ayrıcında»...

Azərin atası Nəsib Ələkbərov «Ədəbiyyat və incəsənət» qəzetinin 23 fevral [№-2401] nömrəsində oğlu haqqındakı yazısını bu sözlərlə bitirir:

Aman allah, oğul dərdi nə yaman olurmuş. O bizi od-alova salıb getdi. Onun yeri soyuq məzar, odlu-alovlu bu gen dünya bizim qəbrimiz!

Oğul, aralı ollam,
Başı qaralı ollam,
Yanında yer qalmayıb, —
Bə mən haralı ollam?!

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, İnşaatçılar prospekti, 583-cü kvartal, ev 1, mənzil 9.

**ƏLİYEV ZAHİD BAYRAM OĞLU**



1963-cü ildə Ermənistan SSR, Vedi rayonunun Şidli kəndində anadan olub.

1982-ci ildə hərbi xidməti başa vurub. 1988-ci noyabr-dekabr aylarında Ermənistandan, öz dədə-baba yurdlarından qovulanlar arasında Bayramın valideynləri də vardı. Bayram kişinin yeni ünvanı Suraxanı kəndi oldu. Balalarını başına yığdı. Təzə-təzə özünə gəlirdi ki...

Mərhumun bir qızcığazı var.

O, Orconikidze rayonundakı 1 nömrəli mağazada satıcı işləyib.

Yanvarın 19-da işdən evə gəlib. Axşam Binə qəsəbəsinə, bacısıgilə gedib. Həmin gün evə qayıtmayıb. Atası Bayram kişi səhər tezdən Zahidin işlədiyi mağazaya getmiş, orada onun yaralandığı haqda xəbər tutmuşdu. Suraxanı xəstəxanasına gedəndə artıq o keçinibmiş.

Şəhid Suraxanı döngəsində həlak olub. 3 güllə yarası alıb.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Orconikidze rayonu, 3-cü mədən. ev 43.

**ƏLƏSGƏROV ZAUR RASİM OĞLU**



1969-cu ildə Bakıda anadan olub. 2 nömrəli texniki-peşə məktəbini maşinist köməkçisi ixtisası üzrə bitirib. Əsgəri xidmətini Qazaxıstanın Semipalatinsk şəhərində keçirib.

O gecə dostları ilə birlikdə XI Qızıl Ordu meydanına gedib. Bir daha qayıtmayıb. 20-də onu heç yerdən tapa bilməyiblər. Yanvarın 21-də meyidini təcili yardım maşını Semaşkodakı mərkəzi meyidxanaya gətirib. Haradan gətirildiyi bəlli deyil. Mərhum üç yerdən güllə yarası alıb. Başından, ürək nahiyəsindən və ayağından.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı şəhəri, 6-cı mikrorayon, S. Lazo küçəsi, ev 203, mənzil 23.

**ƏLİZADƏ FAİQ ƏHDÜLHÜSEYN OĞLU**



1953-cü il yanvarın 10-da Ağcabədidə anadan olub.

Binəqədi rayon təmir-tikinti idarəsində fəhlə işləyib. Üç uşağı qalıb. Yanvarın 19-u gecəsi güllə səslərinə bayıra çıxıb görsün nədi bu, nə atışmadı, nə oyundu yenə camaatın başına açırlar. Tale onu 7-ci mikrorayondan «Gənclik» metrosunun yanına gətirir. Orada yağı gülləsinin qurbanı olur. Onu 5 nömrəli xəstəxanaya aparırlar.

Yanvarın 20-də səhər saat 9-da iki naməlum şəxs evə gəlib deyib ki, Faiq yaralanıb, xəstəxanadadır. Onlar xəstəxanaya çatana kimi Faiq canını tapşırıbmış.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, 7-ci mikrorayon, Axundov küçəsi, ev 6, mənzil 88.

**ƏLİYEV BAYRAM MƏDƏT OĞLU**



1950-ci il iyulun 7-də Ermənistan SSR Kalinino rayonunun Qızıldaş kəndində anadan olub.

C. İldırım adına Az. Pİ-ni bitirib. 2 nömrəli evtikmə kombinatında icraçı işləyib.

Ailəli idi. Ata və anası təqaüdçüdür.

Diaqnoz: döş qəfəsinin küt alətlə travması, daxili orqanların və qabırğaların sınması və zədələnməsi, həmçinin odlu silahla yara.

Yanvarın 21-də «Volçi vorot» [Qurd qapısı] qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Xutor, 7-ci cərgə, ev 18a.

**ƏLİYEV NAMİQ Q KAMAL OĞLU**



1965-ci il iyulun 19-da Bakıda anadan olub. «Zümrüd» restoranında aşpaz işləyib. Subay idi.

Yanvarın 19-da səhər işə gedib. O gedən bir də evə qayıtmayıb.

Bacısı Sevdanın dedikləri:

— O gecə qardaşımı nə qədər gözlədiksə, gəlib çıxmadı. Üç bacının iki əli oldu, bir başı. Səhəri diri gözlü açdıq. Yenə gəlib çıxmadı. Başladıq axtarmağa. Şəhərdə axtarmadığımız xəstəxana qalmadı. Yanvarın 22-də qonşumuz Hüseynov Mirzə zəng edib bizə dedi ki, ona oxşar bir nəfəri Semaşko xəstəxanasından Göy məscidə aparıblar. Xalam oğlanları Bağırov Oqtay və Musayev Qabillə məscidə getdik. Həmin gün Şəhidlərin dəfn günü idi. Meyidləri yuyub maşına qoymuşdular. — Şəhidlər xiyabanına aparmağa. Maşına qoyulan meyidlərə baxdıq. Aman allah, düşmənimə də qismət eləməsin bu günü. Namiq onların içində idi. Üç bacının bir qardaşını evə gətirdik.

Yanvarın 23-də Şəhidlər xiyabanında dəfn edilib.

Ünvan: Bakı, P. Lumumba küçəsi, ev 43.

**ƏLİYEV RÜSTƏM ŞAHVƏLƏD OĞLU**



1965-ci il iyunun 11-də Bakıda anadan olub. Subay idi. 2 nömrəli avtobus parkında sürücü işləyirdi.

Yanvarın 19-da axşam dostu Elmanla Salyan qazarmasının yanına gedib. Əsgərlər dinc əhaliyə divan tutan vaxt yaralıları avtobusla xəstəxanaya daşıyıb. Sonra yolda Rüstəmin avtobusunu da atəşə tutublar. O, döş qəfəsindən, qarın boşluğundan bir neçə odlu güllə yarası alıb. Gecə saat 03.30 dəqiqədə xəstəxanaya gətirilib. Yanvarın 25-də, saat 13 dəqiqədə keçinib.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşayıb: Bakı şəhəri, 19-cu Dağüstü küçəsi, ev 20a, mənzil 38.

**ƏLİYEV XƏLQAN YUSİF OĞLU**



1969-cu il avqustun 31-də Bakıda anadan olub.

Ötən il [1989] noyabrın 13-də ordudan qayıdıb. Subay idi.

Atası vəfat edəndə Xəlqanın 3 yaşı olub. Min bir əziyyətlə iki uşaq böyüdən Hökumə xalaya 1990-cı il 20 yanvar günü oğul dağı çəkdi. Xəlqan «İskra» zavodunda dülgər işləyirdi. Güllə də ona zavodun qarşısında dəyib. Qarın nahiyəsindən aldığı güllə yarası nəticəsində yanvarın 20-də vəfat etmişdir.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Tbilisi prospekti, 75a, mənzil 40.

**ƏLİYEV ZƏBULLA XEYRULLA OĞLU**



1946-cı il martın 6-da Sabirabad rayonunun Kürkəndi kəndində anadan olub.

1 nömrəli tikiş fabrikində sürücü işləyib.

Beş uşaq atası idi. Uşaqlar 38 №-li məktəbdə təhsil, alır. Vüqar, Leyla, Sevinc, İzzət. Kiçik oğlu Rauf ruhi xəstədir.

Şəhid XI Qızıl Ordu meydanında başından odlu güllə yarası almış, yanvarın 20-də vəfat etmişdir. Anadan olduğu kənddə dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, 5-ci Yasamal, ev 149a.

**ƏSƏDULLAYEV ASİF KAMAL OĞLU**



1952-ci il yanvarın 12-də Lənkəranın Şaqlaser kəndində anadan olub. 1971-ci ildə Bakıdakı 84 nömrəli texniki-peşə məktəbini, 1983-cü ildə Azərbaycan Sənaye Universitetini [axşam şöbəsi] bitirib.

1971-ci ildən 1990-cı il yanvarın 19-dək «Bakı fəhləsi» adına maşınqayırma zavodunda tokar işləyib.

1976-cı ildən Sov. İKP üzvü idi.

Yanvarın 19-dan 20-nə keçən gecə Əmirhacıyan qəsəbəsindəki qohumlarının evindən [Rəfail Əliyevin 12-36 nömrəli «Jiquli» markalı maşını ilə] Sabunçu qəsəbəsinə qayıdarkən Ramana kəndi yaxınlığında üç avtobus əsgərlə rastlaşmışdır. Əsgərlər xəbərdarlıq etmədən maşını atəşə tutmuş, maşındakıların hər ikisi ağır yaralanmış, Asif yerindəcə ölmüş, Rəfail xəstəxanaya aparılmışdır.

İki övlad qoyub gedib. Şölənin 7, Vasifin 5 yaşı var.

Diaqnoz: Boyun, döş, qarın boşluğunu keçib daxili üzvləri yaralayan güllə yarası, nəticədə kəskin qanitirmə. Mərhum yanvarın 20-də Lənkəran rayonunun Şaqlaser kənd qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı şəhəri, Sabunçu qəsəbəsi, Dzerjinski küçəsi, mənzil 25.

**ƏSGƏROV NOVRUZ FAİQ OĞLU**



1968-ci ildə Bakıda anadan olub.

Tikinti kooperativində işləyirdi. O qanlı gecə Novruz eşidir ki, şəhərdə camaatı qırırlar. Dostu Əhmədov İlqarı da götürüb Əzizbəyov metrosuna tərəf gedir. Metroya xeyli qalmış görürlər ki, yox, elə həqiqətən əhaliyə atəş açırlar. Geri qayıtmaq istəyiblər. Ancaq o gecəki yağılar qaçanı qovan, yıxılanı kəsən, aman istəyəni qanbağır eləyənlər idi. Dədələrimiz yıxdığını kəsmə,— deyib. Babalarımız yıxıb, kəsməyib. Yıxıb kəsən nakişi sayılıb, aman diləyini ayağa qaldırıblar. Amma bunu bizim babalarımız eləyib.

Orada ikisi də güllə yarası alır. Novruzun yaraları daha ağır olur. [Baş nahiyəsindən bir neçə güllə yarası]. Səhərisi şəhidin meyidini Caparidze adına xəstəxananın meyidxanasından tapırlar.

Novruz Əsgərov Əhmədli qəbiristanlığında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, 8-ci km, Darvin küçəsi 65, mənzil 29.

**ƏHMƏDOV İLQAR HÜMMƏT OĞLU**



1965-ci il mayın 25-də Gürcüstan SSR Borçalı mahalının Faxralı kəndində anadan olmuşdur.

Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun 4-cü kurs tələbəsi idi. 19-dan 20-nə keçən gecə dostları ilə birlikdə Salyan qazarmasının yanında olub. Əsgərlər dinc əhaliyə divan tutan vaxt İlqar dostları ilə yaralıları və ölüləri maşınlara qoyub xəstəxanaya yola salırdı. Yaralılara kömək eləmək xoşuna gəlmədi imperiya xidmətçilərinin. Vurdular İlqarı da. Gecə saat 02.30 dəqiqədə...

Güllə sol gözündən dəymiş, İlqar yerindəcə keçinmişdir.

Mərhum Faxralı kəndində, anadan olduğu torpaqda dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Şərifzadə küçəsi 1.

## ƏŞRƏFOV RƏHMAN İSMİXAN OĞLU



1955-ci il mayın 22-də Bakının Binə qəsəbəsində anadan olub. Binədəki 29 nömrəli xəstəxanada sürücü işləyib. 6 ay əvvəl Gülsümxanım adlı bir qızla ailə həyatı qurmuşdu.

İşlətdiyi «Moskviç» maşınında təxminən saat 23.00 radələrində yaralı apararkən özü də yaralanmışdır. Xəstəxanaya aparılarkən yolda maşın yenidən atəşə tutulmuş, maşın sıradan çıxdığından yaralılar xeyli yerdə qalmalı olmuşdur. Sonra xəstələr Mərdəkan xəstəxanasına gətirilmişlər. Rəhmanın vəziyyəti ağır olduğu üçün yanvarın 22-də neyrocərrahiyyə xəstəxanasına dəyişdirilmişdir.

Yanvarın 24-də həmin xəstəxanada vəfat etmişdir.

Nardaran qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Binə qəsəbəsi, Bünyadzadə küçəsi, döngə 3, ev 10.

**ZÜLALOV İSBƏNDİYAR ADİL OĞLU**



1963-cü il dekabrın 5-də Bakıda anadan olub. Geoloji kəşfiyyat idarəsində fəhlə işləyib. İki yaşlı bir qızcığazı qalıb.

Həmin gecə 1 nömrəli taksi maşınları parkının yanında hərbçilər tərəfindən atəşə tutulmuş, aldığı yaralardan yerindəcə həlak olmuşdur.

Mərhumun meyidi yanvarın 20-də mərkəzi ölüxanadan tapılıb. Haqqında geniş məlumat yoxdur.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, R. Məmmədov küçəsi 4, mənzil 4.

**İBRAHİMOV İBRAHİM İSMAYIL OĞLU**



1928-ci ildə Naxçıvanda anadan olmuşdur. 1952-ci ildə Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. 1984-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Dörd övladı qaldı. Azər, Rəşad, Fikriyyə, Nigar.

1966-cı ildən professor respublika Elmlər Akademiyası sistemində işləyirdi. Onun elmi əsərləri Ümumittifaq miqyasında şöhrət qazanmışdı. İbrahim İsmayıl oğlunun 140-dan artıq elmi əsəri çap olunmuşdur, 50 ixtiranın müəllifi idi.

İbrahim İbrahimov 1990-cı il yanvarın 24-də Bakı-Sumqayıt yolunun 22-ci kilometrliyində iclasa getdiyi zaman hərbi zirehli maşın yolun kənarında dayanan «Jiquli» markalı maşının üstündən keçmiş, professor İbrahimov həlak olmuşdur.

Maşında olanlardan biri, professor Svetlana Məmmədova da yerindəcə həlak olmuşdur.

İbrahim İsmayıl oğlunun həyat yoldaşı isə beş il əvvəl avtomobil qəzasından həlak olmuşdu, indi isə...

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır.

Bakı, Fəhlə prospekti, ev 4, mənzil 2.

**İBRAHİMOV İLQAR RƏŞİD OĞLU**



1976-cı il oktyabrın 13-də Bakıda anadan olmuşdur. Bakıdakı 167 nömrəli məktəbin 7a sinif şagirdi idi. O müdhiş gecə İlqarın anası oğluna ancaq həyətdə uşaqlarla oynamağa icazə vermişdi. O bilirdi ki, oğlu icazəsiz heç yerə gedən deyil. İlqarın dostu Pərvizin dediklərindən: «Təxminən saat 12-də küçəyə çıxdım. Gördüm ki, İlqar və Zakir odun yığır! Soruşdum ki, odunu neynirsiniz? İlqar dedi ki, Nazim dayıdan xahiş edəcəyik odunu Qızıl Ordu meydanında dayananlara aparsın. Sonra onlar qonşuları Nazim Ələkbərovun qapısını döyüb fikirlərini dedilər. Nazim etiraz etmədi. Mən də onlara qoşuldum. Odunu «Zaporojets» maşınına qoyub oraya gedəndə mebel fabrikinin yanında qabaqda olan 2 tankdan biri geri qayıdıb düz üstümüzə gəldi. Biz [uşaqlar] maşından düşüb qaçdıq. Tank gəlib maşının üstünə çıxdı. Biz bunu gördük. Nazim dayı maşının içində idi, ona kömək eləyə bilmədik. Biz bir-birimizi itirdik. Sonra evə gəldim. Bir azdan eşitdim ki, İlqarı güllə ilə vurublar. Nazim dayı isə ağır yaralıdır.

Səhər İlqarın meyidini Semaşko adına xəstəxananın ölüxanasından tapırlar.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, 19-cu Xrebtovı, ev 173a.

**İMANOV ELÇİN BEYDULLA OĞLU**



1967-ci il avqustun 12-də anadan olub. Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinin 4-cü kurs tələbəsi idi.

Yanvarın 19-dan 20-nə keçən gecə Elçin tələbə yoldaşları ilə l. Şmidt adına zavodun mədəniyyət evinin qarşısında olub. Əsgərlər silahsız adamlara atəş açmağa başlayanda o yaralanmış, yoldaşları onu 4 nömrəli xəstəxanaya aparmışlar. Elçinin qardaşı Fuad da onunla birlikdə olub. Elçin cərrahiyyə stoluna çatmamış həlak olub.

Qardaşı Fuadın dediklərindən:

— Yollarda barrikadalar qurmaq istəyənlərin, həmçinin bizim məqsədimiz heç də mərkəzi hakimiyyətin dediyi kimi mövcud quruluşu yıxmaq olmayıb. Bütün demokratik ölkələrdə olduğu kimi piketlər düzəltmək də nümayişlər keçirmək kimi etiraz formasıdır. Bəli, biz etiraz edirdik. Həm mərkəzi hakimiyyətə, həm də respublikanın başında duran rəhbər işçilərə. Moskva isə bizim dinc, suverenlik tələb edən, demokratiya tərəfdarı olan xalqımıza divan tutdu. Mən bunu heç vaxt bağışlamayacağam. Mərhum Salyanda dəfn edilib.

Ev ünvanı: Əli Bayramlı şəhəri, S. Vurğun küçəsi 9, mənzil 3.

**İSAYEV MÜŞFİQ AĞAƏLİ OĞLU**



1968-ci ildə anadan olub.

Müşfiq sərbəst güləş üzrə dünya çempionu Xəzər İsayevin kiçik qardaşı idi. 21 yaşı təzə tamam olmuşdu. Əsgərlikdən gəldiyi cəmi beşcə ay idi. «Sağlamlıq» kooperativində işləyirdi.

O mənhus gecə evdə dayana bilməmişdi. «Gənclik» metrosunun yanına gəlmişdi.

Dostu Elxanın dediklərindən: — Həmin gecə ikimiz bir yerdəydik. Birdən stadiondan tanklar çıxmağa başladı. Çıxmaqlarıyla da oradakıları işıq saçan güllələrə tutmaqları bir oldu. Birdən Müşfiq yıxıldı. Qışqırdım ki, dur qaçaq. Dedi ki, ayağım tutulub, ovxala. Bu an gördüm ki, tanklar yaxınlaşır. Müşfiqin yanına uzandım. Onlar bizi ölmüş bilib keçdilər. Tanklar aralanan kimi onu qucağıma götürüb yaxınlıqdakı ağaclığa qaçdım. Aparanda əlim qana bulaşdı. Orada gördüm ki, güllə ürəyinin üstündən dəyib, sağ çiynindən çıxmışdı. O tez-tez nəfəs alırdı. Hiss edirdim ki, son dəqiqələrini yaşayır. Burda məni ağlamaq tutdu. O dedi:

— Mənim günümə ağlamayın, öz gününüzə ağlayın ki, sabah... burda sözlərin düzümü qırıldı. Başı çiyninə düşdü. Nə deyəcəkdi görən? Kim bilir?

Ağdaşdakı parkda dəfn edilib.

Bu ünvanda yaşayıb: Bakı, Naxçıvanski küçəsi, ev 27, mənzil 89.

**İSAYEV RAUF SOLTANMƏCİD OĞLU**



1962-ci il sentyabrın 25-də Göyçayda anadan olub.

Məişət kondisioneri zavodunda çilingər idi. İki cirəyparası qalıb. Mehribanın 4, Gülnarın isə 3 yaşı var.

Mərhum 4-cü Aşırım küçəsindəki 161-ci mənzildə kirayənişin idi. İllərlə ev növbəsində durmuşdu. Qismət olmadı özünə. Balaları atasız köçəcəklər yeni mənzilə.

O qanlı şənbə günü təxminən saat 24 radələrində evdən çıxıb. Salyan qazarmasının qabağında əsgərlər silahsız adamlara atəş açanda alnından yaralanıb. Mərkəzdən qaçan güllə mərhumun baş-beyin nahiyəsini tamamilə dağıtmışdır. Atası vəfat edib, anası əmək əlilidir. Qardaşı Yaşar anası ilə birlikdə Göyçayda yaşayır.

Mərhum Göyçaydakı Əli Kərim adına parkda dəfn edilmişdir.

Bu ünvanda kirayənişin yaşamışdır: Bakı, 4-cü Aşırım küçəsi, 161.

**İSAYEV FƏXRƏDDİN XUDU OĞLU**



1963-cü il martın 21-də anadan olub. Cənubi geologiya idarəsində sürücü işləyirdi. Nişanlı idi. Anası Rəhimə xalaya bu oğlu üçün bəzəkli toy xonçalarının lentlərini açmaq qismət olmadı.

Özündən başqa üç bacısı, bir qardaşı var. Elmira, Gülnarə, Adil, Sevinc.

Atası Xudu İsayev Böyük Vətən müharibəsinin iştirakçısı; əmək veteranıdır.

19-dan 20-nə keçən gecə təxminən saat 24 radələrində evdən çıxmış, XI Qızıl Ordu meydanına getmişdir. Dinc əhaliyə qarşı silahlı basqın olunanda Fəxrəddin yaralıların bir qisminə kömək etmiş, lakin şəhərin hər yerində olduğu kimi burada da yaralıları yerindən götürənə güllə atmaq əmri verilmişdi. Odur ki, o, yaralılara kömək etdiyi yerdə vurulmuş, baş, sinə və qarın nahiyəsindən güllə yarası almışdır. Sabahısı gün meyidi Semaşko adına xəstəxananın meyidxanasından tapılmışdır.

Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Bu ünvanda yaşamışdır: Biləcəri qəsəbəsi, Y. Hüseynov küçəsi, ev 87, mənzil 22.

## İSMAYILOV RƏŞİD İSLAM OĞLU



1949-cu il avqustun 27-də Gürcüstan SSR Qardabani rayonunun Ağtəhlə kəndində anadan olub.

Rostov dəmiryol institutunu bitirmişdir. Azərbaycan dəmiryol idarəsində dispetçer vəzifəsində işləmişdir. O müdhiş gecə işdən evə, balalarının yanına qayıdarkən Biləcəri qəsəbəsində qarın nahiyəsindən yaralanmış, Biləcəridəki 2 nömrəli dəmiryol xəstəxanasına aparılmışdır.

Cərrahiyyə əməliyyatından sonra 3 gün yaşamış və yanvarın 23-də səhər saat 5-də keçinmişdir. 2 uşaq atası idi. Oğlu İlqarın 13, qızı İradənin 10 yaşı var.

Mərhum Şəhidlər xiyabanında dəfn edilmişdir.

Ünvanı: Biləcəri qəsəbəsi, Tbilisi şosesi, 5075-ci kvartal, ev 2a, mənzil 8.

**İSMAYILOV TOFİQ BABAXAN OĞLU**



1956-cı il yanvarın 5-də anadan olub. Nəsimi rayon Kommunal təsərrüfat idarəsinin istilik şəbəkəsində ocaqçı işləyib. İki övladı qalıb: Rəna, Rəşad.

O gecə atışma səsləri eşidilməyə başlayanda qonşuları Sadıqla birlikdə küçəyə çıxmışdır, — Tbilisi prospektindəki 16 nömrəli binanın qarşısına. Onlar gələndə küçədə çoxlu yaralı və ölən vardı. Tofiq qonşusu ilə başlayıb onlara kömək eləməyə. O, bir neçə təcili yardım maşınını yaralılarla yola salıb. Növbəti maşına yaralı qoyanda arxadan ona güllə dəyib. Onu da Semaşko adına xəstəxanaya aparıblar.

Gecə qardaşları Yusif, Zabit və Rəşid nə qədər axtarırlarsa, onu tapa bilmirlər. Səhər meyidi Semaşko adına xəstəxananın ölüxanasından tapırlar.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, M. Cəlal küçəsi, ev 37, mənzil 24.

**İSMAYILOV CAVAD YUNİS OĞLU**



1962-ci il mayın 9-da Bakıda anadan olmuşdur. Bakı şüşə zavodunda fəhlə işləyib. İki qızı qalıb, — Əzizə və Firuzə. Mərhum şairimiz Mikayıl Müşfiqin qohumudur.

Anası İsmayılova Əzizənin dediklərindən:

— Yanvarın 19-da Cavad 3-cü növbə işə getdi, səhərə yaxın bizə zəng edib dedilər ki, o xəstəxanadadır. Biz onu Semaşko xəstəxanasında 13-cü mərtəbə, 4-cü palatada tapdıq. Mən onun üstündən adyalı götürəndə gördüm ki, yaraları sağ tərəfdə sinəsindən və sol tərəfdə kürəyindəndir. Mən bunu görəndə huşumu itirdim. Özümə gələndə Cavad dedi:

— Gəlin, [o mənə babasının dili ilə gəlin deyirdi] adam kişi olar.

— Dedim, yaxşı, daha ağlamaram.

O dedi ki, həmin gün işə getdim, gördüm ki, iş yoxdur. Geri qayıtdım. XI Qızıl Ordu meydanından çıxanda gördüm ki, bir qadın yıxılıb zarıyır. Əyildim ki, onu qaldıram. Bir bu yadımdadır. Bir də məni maşına qoyanda ayıldım. Yolda, avtovağzalın yanında maşını atəşə tutdular. Maşın aşdı, mən burada möhkəm əzildim. Sonra başqa maşın bizi Semaşkoya gətirdi. Tibb institutunun qızları yaralılara qan verirdi. Bu vaxt əllərində avtomat olan əsgərlər içəri girərək tələb etdilər ki, heç kəs yaralılara qan verməsin. Sonra onlar işıqları söndürdülər.

Yanvarın 22-də gecə Cavadın üzərində yenidən cərrahiyyə əməliyyatı aparılmış, lakin o, səhər saat 8-də keçinmişdir.

Şəhidlər xiyabanında dəfn edilmişdir. Ünvanı: Bakı, Tbilisi prospekti, ev 56, mənzil 9.

**İSRAYILOV AĞANƏZƏR ARAZ OĞLU**



1960-cı il iyulun 1-də Şamaxı şəhərində anadan olub.

Milis leytenantı idi. Üç nəfər — kapitan Oqtay Mirzəyev, leytenant Valeri Boqdanov və leytenant Ağanəzər İsrayılov həmin gecə xidməti işdə olmuşlar. Səhər saat 7.15 dəqiqədə Tbilisi prospektində sakit getdikləri yerdə arxadan hərbçilər onların maşınını atəşə tutur. Güllə birinci Ağanəzərə dəyir. O, arxadan və boyun nahiyəsindən dəyən güllədən yerindəcə keçinir. Sonra onunla bir yerdə olan yoldaşları Valeri və Oqtay da yaralanır. Valeri 4 saatdan sonra xəstəxanada həlak olur. Oqtay Mirzəyevin vəziyyəti yaxşıdır.

Mərhum Şamaxıda dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Sumqayıt şosesi, 10. [yataqxana.]

**YAQUBOV NÜSRƏT İSMAYIL OĞLU**



1958-ci ildə Bakının Zirə kəndində anadan olub. Mərdəkan yaxınlığındakı Dübəndi Neftboşalma bazasında operator işləmişdir. 4 uşaq atası idi.

Yanvarın 19-u gecəsi təxminən saat 22 radələrində Qala kəndindən öz şəxsi «Jiquli» markalı [Ya 56-83 AQ] maşınında evə gedərkən hərbi hissənin yanında əsgərlər tərəfindən atəşə tutulmuşdur.

Nüsrət bir müddət burada köməksiz qalmış, xeyli qan itirmişdir. Sonra o, saat 23.30 dəqiqədə Mərdəkandakı 26 nömrəli xəstəxanaya aparılmışdır. Aparılan cərrahiyyə əməliyyatı da kömək etməmiş, Nüsrət İsmayıl oğlu yanvarın 22-də vəfat etmişdir.

Mərhum Zirədə dəfn edilib.

Bu ünvanda yaşamışdır: Zirə qəsəbəsi, C. Məmmədquluzadə küçəsi, döngə 9, ev 15.

## YEFİMİÇEV BORİS VASİLYEVİÇ



1945-ci il yanvarın 15-də Bakıda anadan olub. Gözlərinin açılması ümidi ilə yaşayırdı. Dünya işığına həsrət getdi bu dünyadan.

Azərbaycan korlar cəmiyyətinin trikotaj fabrikində işləyirdi.

Yanvarın 20-də axşam saat 22.00-da evdən çıxıb. Saat 23.00-da iki nəfər onu yaralı halda evə gətirib. Gətirənlər deyib ki, hərbçilər Haqverdiyev küçəsində onu əvvəl; süngü ilə, sonra avtomatla vurublar. Hadisə vaxtı təhlükə hiss edən Yefimiçev belə deyib: — Rebyata, ya slepoy, menya ne troqayte.

Kim idi ona baxan...

Həkim arayışında isə belə yazılıb: «Yefimiçev Boris Vasilyeviç yanvarın 21-də saat 01.30 dəqiqədə təcili yardım maşını ilə Eksperimental xəstəxanaya gətirilib. Xəstənin qarın nahiyəsində süngü yeri aşkar edilmiş, daxili orqanlar tamamilə zədələnmişdir».

Xəstəxanaya gətirilən kimi cərrahiyyə əməliyyatı aparılmış, amma onun vəziyyəti yaxşılaşmamışdır. Yaralı yanvarın 21-də axşam saat 19.00-da vəfat etmişdir.

Boris Azərbaycan dilində təmiz danışırdı, özünü köklü içərişəhərli hesab edirdi. Müsəlman qaydasilə məsciddə yuyulub dəfn edilmişdir. Özü belə vəsiyyət eləmişdi. Yeddisi, qırxı verilib. Cümə axşamları da öz qaydasilə... Dostları onu Böyükağa çağırardı. O həmişə Ətağanın qəbrinə and içərdi.

Mərhum Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Nərimanov prospekti, 577-ci məhəllə, ev 89, mənzil 31.

**YUSUPOV OLEQ KƏRİM OĞLU**



1944-cü il fevralın 28-də Bakıda anadan olub. 1 nömrəli hərbiləşdirilmiş yanğın dəstəsində sürücü işləyib. Bir oğlu var.

Yanvarın 20-də 00.38 dəqiqədə «Azərbaycan» nəşriyyatına çağırışa gediblər. Onunla birlikdə qarovul rəisi A. Eyvazov, bölmə komandiri Y. Nikanov, yanğınsöndürənlər Ələsgərov və Burov da olub, 01.10 dəqiqədə rabitə kanalı ilə xəbər veriblər ki, maşın atəşə tutulub.

Yanğınsöndürmə maşını [53-31-AQA] «Naxçıvan» mehmanxanasının yanından keçəndə maşın atəşə tutulmuş, Yusupov sinəsindən ağır güllə yarası almışdır.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Əhmədli qəsəbəsi, Şıxlinski küçəsi, keçid 828, ev 57, mənzil 133.

**KAZIMOV ƏFLATUN HƏŞİM OĞLU**



1959-cu ildə Lənkəran rayonunun Kirdəni kəndində anadan olub. Bakıdakı 28 nömrəli tikinti idarəsində fəhlə işləyib. 3 qızı, bir oğlu başsız qaldı.

O qanlı gecə təxminən saat 04 radələrində Moskva prospektində hərbçilər tərəfindən vəhşicəsinə öldürülmüşdür. Bədənində 14 güllə yarası olub. Moskva prospektindəki körpünün yanında bir neçə adamın qarşısına bir dəstə əsgər çıxıb, xəbərdarlıq etmədən atəş açıblar. Oradaca həlak olub. Dostları meyidini yanvarın 20-də mərkəzi ölüxanadan tapıblar.

Mərhum yanvarın 22-də Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, 8-ci kilometr, Zərdabi küçəsi, ev 2a.

**KƏRİMOV ALEKSANDR RAMAZAN OĞLU**



1970-ci il martın 27-də Sverdlovsk vilayəti Aqit kəndində anadan olub, orta texniki təhsil almışdı. Subay idi. O gecə dostları Aleksandrı [dostları onu Samir çağırırdı] evdən çağırırlar ki, küçələrdə xeyli yaralı və ölənlər var, gedək kömək eləyək. Onlar «KAMAZ» markalı maşında yaralıları və həlak olanları daşımağa başlayıblar. Birinci dəfə 10, sonra isə 15 yaralı aparıblar Semaşko xəstəxanasına.

Üçüncü dəfə Papanin küçəsindən keçərkən, təxminən səhər saat 6 radələrində maşın əsgərlər tərəfindən atəşə tutulub. Birinci güllələr Aleksandrın dostu Mahir Mustafayevə dəyib. Sonra Aleksandr qarın nahiyəsindən və sol buddan yaralanıb. Hər ikisini Semaşko xəstəxanasına gətiriblər. Dostu Mahir həmin gün vəfat edib. Aleksandr isə 17 gün yaşayıb, 4 dəfə cərrahiyyə əməliyyatı aparılıb, amma... Fevralın 5-də saat 23 dəqiqədə keçinib.

Şəhidlər xiyabanında dəfn edilib.

Ünvanı: Bakı, Montin qəsəbəsi, Yusifzadə küçəsi 41, mənzil 43.

**KƏRİMOV İLQAR İSA OĞLU**



1962-ci il avqustun 22-də Goranboy rayonunun Ağamalıoğlu kəndində anadan olmuşdur. Pirküşkül qəsəbəsinin Broyler fabrikində işləyirdi.

O müdhiş gecə işdən çıxıb arxayın-arxayın evə gedirdi. Evdə onu iki övladı gözləyirdi. Ataları evə gəlməyincə uşaqlar yatmırdılar. İlahi, görən o gecə körpələrin gözünə yuxu gedibmi? Anaları nə deyib onlara, necə ovundurub?

O gecə evə gedib çıxa bilmədi. Biləcəridəki dəmiryolu xəstəxanasının yanında yağı güllələrinin qurbanı oldu. Evə gedirkən Semaşko adına xəstəxanaya aparıldı. Çox yaşamadı. Elə həmin gün canını tapşırdı. Goranboy rayonunun 1 may kəndində, anadan olduğu torpaqda dəfn olunub.

Bu ünvanda yaşamışdır: Bakı, Tbilisi prospekti, ev 7, mənzil 36.

**KƏRİMOV OQTAY EYVAZ OĞLU**



1964-cü il martın 21-də Ermənistan SSR Göyçə mahalının [Krasnoselo] Ardanış kəndində anadan olub. 28 nömrəli təmir-tikinti idarəsində fəhlə işləyib. Subay idi.

Atası Kərimov Eyvaz Kərim oğlu 1988-ci ilin dekabrında dədə-baba yurdundan, — Göyçədən qovulub. Yaşamağa yerləri yoxdur. Müvəqqəti boşalmış evdə olurlar.

O gecə Oqtay eşidib ki, «Gənclik» metrosunun yanında əsgərlər günahsız adamları qırır, onlara kömək etmək üçün metronun yanına gəlir. Stadionun şimal qapısının yanında hərbçilər yaralılara kömək edənləri də güllələyib. Onların içində Oqtay da olub. Yaralanandan sonra təxminən 3 saat vurulduğu yerdə qalıb. Çoxlu qan itirib.

Mərhumun meyidini yanvarın 21-də mərkəzi ölüxanadan tapıblar. Şəhidlər xiyabanında uyuyur.

Bu ünvanda müvəqqəti yaşayıblar: Bakı, Gənclər dostluğu küçəsi, ev 41, mənzil 21.

## MARXYEVKA ALEKSANDR VİTALYEVİÇ



1958-ci ildə Bakıda anadan olub. Milliyyətcə yəhudidir. 1980-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirib. Buzovna təcili yardım məntəqəsində həkim işləyirdi. 6 yaşında oğlu qalıb.

Yanvarın 19-da axşam saat 23.05 dəqiqədə məntəqəyə Turkan şosesinə çağırış verilir.

Oraya 2 maşın göndərilir. Birinci maşında sürücü Babayev Almas, həkim Aleksandr, ikinci maşında isə sürücü Qabil Rəhimov, həkim Faiq Məmmədov idi.

Maşınlar Türkan şosesinə çatar-çatmaz əsgərlər atəş açmağa başladılar. Hər iki maşın zədələnir. Həkim Marxyevka döş qəfəsindən yaralanır. Sürücü Babayev Almas gördüklərini belə nəql edir.

— Maşınlar atəşə tutulanda mən geri qayıtmaq istədim. Birdən Saşa of, of —deyə qışqırdı. Güllələrin sayı-hesabı yox idi. Mən maşını hadisə yerindən uzaqlaşdıra bildim. Təcili yardım məntəqəsinə çatanda artıq Saşa keçinmişdi.

Şəhidlər xiyabanında dəfn edilib.

Ünvanı: Bakı, 14-cü Aşırım küçəsi 11/15, mənzil 61.

**MEEROVİÇ YAN MAKSİMOVİÇ**



1955-ci il yanvarın 2-də Bakıda anadan olub. Milliyyətcə yəhudidir. Moskvadakı «Molodyojnıy» kooperativi Bakı filialının direktoru idi. Bir qızı, bir oğlu qalıb. Ruslan və Milana.

Yanvarın 19-da Yan Maksimoviçin qonşusu, 78 yaşlı qadın Qreytman Raximya Davıdovna [ərinin familiyası isə Sarkisov] ondan xahiş edir ki, axşam onu aeroporta çatdırsın. O, gecə reysi ilə uçmalı idi. Qreytmanın əri erməni olub. Bakıdan gedib. Arvadı isə onun yanına gedəsi imiş. Yan Maksimoviç qonşusu Elçin Mirzəyevdən xahiş edir ki, onları aeroporta aparsın.

Təxminən axşam saat 23 radələrində yola çıxırlar. Bakı-Binə yolunun Suraxanı qəsəbəsində əsgərlər maşını avtomat atəşinə tutmuş, nəticədə maşındakıların hər üçü yaralanmış, ancaq Qreytman [Sarkisova] sağ qalmışdır.

Sabahısı gün Meeroviç Yan və Mirzəyev Elçinin meyidini Çaparidze adına xəstəxananın meyidxanasından tapıblar. Mərhumun bədənində 15 yerdən güllə yarası aşkar olunub.

Şəhidlər xiyabanında dəfn edilib. Ünvanı: Bakı, 1 may küçəsi 187.

## MƏMMƏDOV VİDADİ ÜZEYİR OĞLU



1949-cu ildə Şamaxıda anadan olub. Cənubi Xəzər Balıqçılıq hövzəsi idarəsində baş mühəndis işləmişdir. Ailəli olub. 2 uşağı var.

19-dan 20-nə keçən gecə Vidadi də XI Qızıl Ordu meydanına gəlmişdi. Qızıl Orduya inanıb gəlmişdi. Bu inamı qırdı Qızıl Ordu. Onlarca şəhidin sırasında Vidadi də həlak oldu. O, odlu silahla arxadan vurulub.

Yanvarın 21-də Semaşko adına xəstəxanadan tapılıb.

Şamaxıda dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı ş. 9-cu mikrorayon, Pişəvəri küç. ev 4, mənzil № 63.

**MƏMMƏDOV ELDAR ZEYNAL OĞLU**



1966-cı il mayın 13-də Bakıda anadan olub. 5 nömrəli çörək zavodunda fəhlə işləyib. Subay idi.

19-u günü Eldar qonşuları Fərhadla birlikdə «Olimp» mağazasının yanında əsgərlərlə üz-üzə gəlmiş, qayıdıb geri qaçmaq istəyəndə onlar arxadan atəşə tutulmuş, güllə Eldarın ürəyindən dəymişdir. Fərhad Eldarı yaxındakı evlərin birinə aparıb. Həkim gələnə kimi o keçinib.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı şəhəri, Musabəyov küçəsi, 2-ci Yasamal, ev 10.

**MƏMMƏDOV İBİŞ BEHBUD OĞLU**




1961-ci ildə Ermənistan SSR Qafan rayonunda anadan olub.

1988-ci ildə Qafan şəhərində mitinq keçirən erməni ekstremistləri: «Mamedov, gəl bizə qoşul, Qarabağı Azərbaycandan qoparaq» — deyəndə, İbiş cavab verib ki, mən Azərbaycanın oğluyam, Qarabağ da Azərbaycan torpağıdır.

Onu Şəhidlər xiyabanına aparan yol da o cavabdan başlamışdı. İbiş öz dədə-baba yurdundan qovulmuşdu. Doğma Bakıda fəhlə işləyirdi.

Tale İbişə həmişə sərin üz göstərib. İki yaşından yetim qalıb. Ata qayğısı görməyib. 1981-ci ildə, 20 yaşında evlənib. Doqquz il övlad payı gözləyib. İndi də belə...

O müdhiş gecə Salyan qazarmasının yanında olub.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, N. Rəfibəyli küçəsi 7.

**MƏMMƏDOV İLHAM İSLAM OĞLU**



1951-ci il dekabrın 30-da Bakıda anadan olub. İki uşağı qalıb: Anar və Təranə. İlham altı aylıq olanda onun dayəsi, milliyyətcə alman olan Darya İlhamı qucağında gəzməyə aparıb. Yolu keçərkən maşın Daryanı vurub. Qadın həlak olub. Altı aylıq uşaq isə sağ qalıb, amma şikəst olub.

Anası Nəcibə xanımın dedikləri: — «Aparmadığımız xəstəxana, göstərmədiyimiz həkim qalmadı, oğlum əlil qaldı. Dərd də azar kimi, gələndə batmanla gəlir. Bu dərd bəs deyilmiş elə bil... həmin gecə axşam otura bilmədi evdə. «Gedim baş çəkim, bir azdan gəlirəm» — dedi və getdi. Atışma başlayanda narahat olduq. Başladıq axtarmağa. Gecə saat 3-də Semaşko adına xəstəxanadan tapdıq. İlahi, balam nə gündə idi. Üz-gözü qan içində. Döyülməkdən bədəni gömgöy göyərmişdi. Zarıyırdı. Anasını tanımadı balam. Səhər keçindi.

Bakı şəhər qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, S. Vurğun küçəsi, ev 116, mənzil 50.

**MƏMMƏDOV KAMAL SEYİDQURBAN OĞLU**



1955-ci il dekabrın 13-də Bakıda anadan olub. Həmin gecə Sabunçudan Suraxanı benzindoldurma məntəqəsinə gedərkən Suraxanı qəsəbəsi yaxınlığında əsgərlər tərəfindən atəşə tutulmuşdur. Mərhumun bədənində çoxsaylı güllə yarası olmuş, kəskin qanitirmədən vəfat etmişdir.

Övladın faciəli ölümü hər bir ata üçün ağırdır. Kimi bu ağırlığı, bu dərdi, qəmi çəkməyə özündə güc, qüvvət tapır, kimi isə dərdə dözə bilməyib tələf olur.

Yanvarın 26-da Kamalın atası Məmmədov Seyidqurban Mirhəbib oğlu da vəfat etdi. Öz ölümü ilə şəhidlərin ruhuna pənah apardı.

Ata və oğul Maştağa qəsəbəsində, «Seyidlər» qəbiristanlığında dəfn edilmişdir.

Bu ünvanda yaşayıb: Maştağa qəsəbəsi, 26 Bakı komissarı küçəsi, ev 57.

**MƏMMƏDOVA LARİSA FƏRMAN QIZI**



1977-ci il avqustun 11-də Bakı şəhərində anadan olub. Bakıdakı 134 nömrəli məktəbin 7v sinfində oxuyurdu, musiqi təhsili alırdı. Ata Fərman, ana Qalina, uşaqlar Larisa, Emil və Nərminə. 20 yanvar qiyaməti bu düzümdən Larisanı apardı. O müdhiş gecə atası Fərmanın işlədiyi parkın işçiləri ilə birlikdə L. Şmidt adına zavodun yanında «İkarus» avtobusunda oturduqları yerdə maşın gülləbaran edilmiş, Larisa ürək nahiyəsindən güllə yarası almış, yerindəcə həlak olmuşdur. Atası Fərman ağır yaralanmışdır. Hazırda müalicə olunur.

Larisanın 5 yaşlı qardaşı Emil qonşu qızların qolundan tutub evə dartır ki, «Larisa yoxdur, gedək bacım ol».

Larisanın anası Ukraynanın Donetsk vilayətindən öz səadətinin ardınca Azərbaycana gəlmiş Qalina Urvaçova-Məmmədova ümumxalq kədərini qəribə bir özünəməxsusluqla yaşayır.

Larisa Məmmədova Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Muxtadır küçəsi 8.

**MƏMMƏDOV MƏMMƏD YARMƏMMƏD OĞLU**



1959-cu il fevralın 2-də Bakıda anadan olub. 2 nömrəli avtobus parkında sürücü işləyib. [39 nömrəli marşrutda].

Validə adlı bir qızı qaldı.

Yanvarın 19-da axşam saat 9-da evdən çıxıb. Zarafatla anasına deyib ki, gedirəm sizi qorumağa. Hadisə l. Şmidt adına zavodun yanında olub. Məktəbli şəhid Larisa Məmmədova da atası Fərmanla Məmmədin avtobusunda olublar. Hava soyuq olduğundan adamlar avtobusda oturublar. Salonda olanlardan yalnız bir neçəsi sağ qalıb. Əksəriyyəti şəhid olub. Məmmədin bədənində 35 güllə yarası olub. Həmin gecə Məmmədin qardaşı Sabir də XI Qızıl Ordu meydanında yaralanıb. O artıq sağalıb.

Məmməd Məmmədov Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır.

Bakı, 5-ci mikrorayon, Tağızadə küçəsi, ev 60, mənzil 15.

**MƏMMƏDOVA SVETLANA HƏMİD QIZI**



1939-cu ildə anadan olmuşdur. M. Əzizbəyov adına Azərbaycan Sənaye Universitetini bitirmişdir. Svetlana xanımın üç yaşı olanda atası cəbhədə həlak olub. Üç uşaq analarının himayəsində böyüyüb.

1973-cü ildə namizədlik, 1988-ci ildə doktorluq dissertasiyası müdafiə edib. Professor üç dil bilirdi. Üç il idi partiya sıralarına daxil olduğu. Üç ciyərparası qaldı. Bir övladı, iki nəvəsi.

Professor Svetlana Məmmədova müasir kimya elminin yüksək molekullu birləşmələr sahəsində respublikada kimya elmləri doktoru adını almış ilk qadın alim idi. Alim 110-a qədər elmi əsərin, 40-dan çox ixtiranın müəllifi idi.

Yanvarın 24-də Bakı-Sumqayıt yolunun 22-ci kilometrliyində tank yolun kənarında dayanmış minik maşınını əzmiş, iki nəfər - Svetlana Məmmədova və İbrahim İbrahimov oradaca həlak olmuşdur. Onlar Sumqayıtdakı iş yerlərinə iclasa çağırılmışdılar.

Svetlana Məmmədova Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı ş. Barinov küçəsi, ev 4, mənzil 20.

**MƏMMƏDOV SƏXAVƏT HEYDƏR OĞLU**



1958-ci il aprelin 10-da anadan olub. Bakıdakı 4 №-li avtonəqliyyat dəstəsində sürücü işləmişdir. 2 uşağı qalıb.

O gecə axşam saat 23-də evə gəlib. Çörək yeyib geri qayıdıb. Daha evə gəlməyib. Səhər maşını Qədirli adına xəstəxananın yanından tapılıb. Səxavətin meyidi də Qədirli adına xəstəxanadan tapılıb. Xəstəxanaya gətiriləndə artıq o, ölübmüş, Digah kənd qəbiristanlığında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Ə. Ələkbərov küçəsi 20.

**MİRZƏYEV AZAD ƏLİHEYDƏR OĞLU**



1961-ci il yanvarın 22-də Lənkəranda anadan olub. Subay idi.

Nəsimi Rayon İctimai İaşə idarəsində işləyirdi. Azadın ölümü də bir ayrı ölümdü. Evdəcə yaralanıb, anasının yanında Anası Fatma Balaca qızı bunları dedi: — Gecə saat 12-dən sonra küçədə atəş səsləri eşidib eyvana çıxdıq. Uzaqdan əsgərlərin gəldiyini gördük. Onlar heç nəyə əhəmiyyət vermədən hər tərəfə, - hətta evlərə atəş aça-aça gəlirdilər Elə bil ki, müharibə idi. Bakı isə düşmən şəhəri. Mən oğluma dedim ki, Azad, evə keç. O dedi ki, ana, bu boş güllələrdir. Bir də onlar bizə atəş açmazlar. Elə eyvandan görünürdü ki, güllədən sonra adamlar neçə yerə sərilir. Mən tez evə keçdim. Azada da yalvardım ki, evə keçsin. Bu vaxt bir neçə güllə açıq qapıdan keçib otağa sancıldı. Azad bu vaxt otağa keçmək istəyirdi, ancaq qəfil yıxıldı, elə bildim ki, ayağı büdrəyib. Mən də yerə əyildim. Təxminən 2 dəqiqədən sonra ayağa qalxdım və Azadı səslədim, ondan səs gəlmədi. Yaxınlaşıb onu silkələdim. Əlim qana bulaşdı. İki əlim oldu, bir başım, haray hara çatacaq. Azad balam yerindəcə keçindi.

Mərhum Şəhidlər xiyabanında dəfn edilib.

Ünvan: Bakı, İnşaatçılar prospekti, ev 28a, mənzil 29.

**MİRZƏYEV VAQİF SƏMƏD OĞLU**



1959-cu il noyabrın 12-də Bakının Binə qəsəbəsində anadan olub. Binə qəsəbəsindəki elektrik qovşağında montyor işləyirdi. İki il idi ki, evlənmişdi. İlahidən övlad gözləyə-gözləyə ilahinin dərgahına çəkildi. Yoldaşı da gözləmədi, ata evinə qayıtdı. O gün qəsəbənin yaxınlığında — Binə-Mərdəkan yolunda təxminən saat 22.00 radələrində əvvəl süngü ilə, sonra isə avtomatla vurulmuş, saat 23.05 dəqiqədə Mərdəkandakı 26 nömrəli xəstəxanaya gətirilmişdir.

Vaqifin həmkəndlisi Qərib Qədirli hadisə vaxtı orada olmuşdur. Qərib hadisəni belə danışır:

— Hadisələr gərginləşəndə biz qəsəbənin yaxınlığındakı kanalın üstündə idik. Kimi görürdülərsə, xəbərdarlıq etmədən vurub yıxırdılar. Bir hərbçi isə mənim gözlərim qarşısında kəndlim Vaqif Səmədoğlunun süngü ilə düz ürəyinin başından vurdu. Bu bəs deyilmiş elə bil, sonra da avtomatla vurdular. Bu hadisə məni dəhşətə gətirdi».

Vaqif Mirzəyev həmin gecə 26 nömrəli xəstəxanada vəfat etmişdir.

Binə qəsəbə qəbiristanlığında dəfn edilib. Ünvanı: Binə qəsəbəsi, Rəhmanov küçəsi 1a.

**MİRZƏYEV ELÇİN HÜSEYNQULU OĞLU**



1961-ci ildə Bakıda anadan olmuşdur. Azərbaycan Dövlət Tibb Universitetini bitirmişdir. Bakı Şəhər Səhiyyə İdarəsində inspektor işləyirdi. Nərminə adlı qızı yadigar qalıb. Həyat yoldaşı Kərimə Mirzəyevanın dedikləri:

— Yanvarın 19-u gecə saat 23 radələrində Elçin qonşumuz Meeroviç Yanla evə gəldi və pasportunu istədi. Çıxanda dedi ki, yarım saatdan sonra gələcək. O gedəndən təxminən 2 saat sonra güllə səsləri eşidilməyə başladı. Mən narahat oldum. Bütün gecəni beləcə gözlədim. İlan vuran yatdı, mən yatmadım.

Səhər tezdən qapını üç nəfər tanımadığım adam döydü və mənə dedilər ki, Elçin güllə ilə öldürülüb. Sabunçu xəstəxanasındadır. Sonra mənə məlum oldu ki, onlar Qreytman Raximya Davıdovnanı aeroporta apararkən Sabunçu qəsəbəsi yaxınlığında, Bakı-Binə yolunda şəhərə girən əsgərlər tərəfindən güllələbaran edilmiş, maşındakıların ikisi, — Elçin və Yan oradaca həlak olmuş, Qreytman ayağından bir güllə yarası almışdır. [Qreytmanın əri erməni olduğu üçün Bakıdan getmiş, arvadı da onun yanına getmək istəyirmiş, Caparidze adına xəstəxanaya düşüb].

Mərhumun bədənində 19 güllə yarası olub.

Bu ünvanda: yaşamışdır: Bakı, Kirov prospekti, ev 29, mənzil 68.

**MÖVLUDOV FUAD FƏRHAD OĞLU**



1968-ci ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Kiyev Ali hərbi aviasiya məktəbinə daxil olub. Bir müddət oxuyandan sonra o məktəbi atıb hərbi xidmətə gedib. Hərbi xidmətdən sonra yanğınsöndürmə dəstəsində xidmət edirdi. «Subay idi. Ailənin yeganə oğul payı idi. 19-dan 20-nə keçən gecə Şimali DRES-in yanında yaralanmışdır. Ölümündən əvvəl qohumlarına bunları danışmışdır:

— Gördüm ki, tanklar gəlir. Lap yaxına gələndə atəş açmağa başladılar. Biz qaçmağa başladıq. Qabaqdan bizi əsgərlər qarşıladı. Mən onlara rus dilində müraciət etdim. Əvəzində atəş açdılar. Mən yenidən qaçmağa başladım. İki əsgər məni haqladı. Onların biri başımdan tutdu, o biri isə süngü ilə belimdən vurub burdu. Onlar ermənicə söyüş söyürdülər. Sonra bir nəfəri də vurdular. Əsgər süngünü avtomatdan çıxarıb oğlana dalbadal zərbələr endirməyə başladı. O deyirdi: — «Oni naşi vraqi, beyte ix»... Fuad uzun müddət yaralandığı yerdə qalmış, bir neçə saatdan sonra təcili yardım xəstəxanasına aparılmışdır. Yanvarın 25-də vəfat etmişdir. Şüvəlan qəbiristanlığında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Cənubi DRES qəsəbəsi, XX qurultay küçəsi, ev 20, mənzil 18.

**MURADOV MEHMAN ƏSƏD OĞLU**



1961-ci ildə Göyçayda anadan olub. 1981-ci ildən «Azərelektroterm» Elm İstehsal Birliyində fəhlə işləyib. 1986-cı ildə İnşaat mühəndisləri institutunu bitirib. 1989-cu ildən birliyin təmir-tikinti idarəsində iş icraçısı işləyib.

1985-ci ildən Sov. İKP üzvü olub.

1989-cu ilin iyul ayında ailə qurmuşdu.

Yanvarın 20-də səhər barrikadalarda meyidlərin bir çoxu hələ yerdə idi və aparmağa icazə verilmirdi. Götürmək istəyəni də vururdular... «Azərelektroterm» Elm İstehsal Birliyinin bir qrup işçisi, o cümlədən Muradov Mehman, İsmayılov Vahid, Abdiyev Fikrət, Bədəlov Məmməd, Bədəlov Əliyar və Ağayev Vasif avtovağzal rayonundan Salyan qazarması istiqamətinə [təxminən saat 15 radələrində] gedərkən qazarmanın giriş qapısının yaxınlığında bir nəfəri güllələyiblər. Sonra Mehman yıxılıb, biri onu qaldırmaq istəyib, onu da vurublar. Ancaq bir neçə saatdan sonra onu xəstəxanaya gətirə biliblər.

Həmin gün vəfat edib.

Bu ünvanda yaşamışdır: Güzdək qəsəbəsi, Hüseynzadə küçəsi 7.

**MURSAQULOV İSMAYIL HƏSƏN OĞLU**



1939-cu il noyabrın 23-də [13 rəqəmi] Gürcüstanda anadan olmuşdur. Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. Üç oğlu qaldı. Rufat, Rəşad, Azər. Qəzaya uğradıqları maşının sahibi, mərhum professor İbrahim İbrahimovun da oğlanlarının adı Rəşad və Azərdir.

Bu, bir təsadüfdürmü?

İsmayıl müəllim ailənin ikinci uşağıdır. Və birinci uşaqdan düz on üç il sonra dünyaya gəlib. Öz ikinci uşağının da on üç il nazını çəkə bildi.

Yanvarın 24-də Azərbaycan SSR Elmlər Akademiyasının Sumqayıt filialına işə gedərkən Bakı-Sumqayıt yolunun 22-ci kilometrliyində tank yolun kənarında dayanmış «Jiquli» maşının üstündən gəlib keçdi. Beş nəfərin ikisi yerindəcə həlak oldu.

1985-ci ilin 13 sentyabrında Moskvada doktorluq dissertasiyası müdafiə etmişdi. 1990-cı ildə onun partiya sıralarına daxil olduğu da on üç il idi. Şöbəsində on üç işçisi vardı. O biri yoldaşlarından fərqli olaraq professorun qırxı da martın 13-nə düşdü. Rəşid Behbudov küçəsindəki 13 №-li evdə yaşayan anası Parlaq xanım isə bundan xəbər tutmadı.

Professor İsmayıl Mursaqulov Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Bu ünvanda yaşayıb: Bakı, Ə. Ələkbərov küçəsi, ev 97, mənzil 118.

**MUSTAFAYEV MAHİR VAQİF OĞLU**



1968-ci il noyabrın 25-də anadan olub. 2 nömrəli avtobus parkında sürücü işləyib. Nişanlı olub. Gecə güllə səsləri aləmə bülənd olanda üç dost Mahir, Aleksandr Kərimov [Samir] və Emin Eyvazov, «Nərimanov» kinoteatrının yanına gəlib məsləhətləşirlər ki, küçələr yaralılar və ölülərlə doludur. Kömək etmək lazımdır. Onlar səhərə kimi «KAMAZ» markalı maşında yaralıları daşıyıblar. Səhər saat 6 radələrində Papanin küçəsindəki körpünün yanında hərbçilər onları atəşə tutur. Burada birinci Mahir yaralanır, — sol sinə nahiyəsindən. Sonra isə Aleksandr [Samir] yaralanır. Mahir bir neçə saat sonra keçinir. Aleksandr isə fevralın 5-də vəfat edib.

Hər iki dost Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Xuluflu küçəsi, ev 26a, mənzil 4.

**MUXTAROV RASİM MUSTAFA OĞLU**



1958-ci il iyulun 10-da anadan olmuşdur. Məişət kondisionerləri zavodunda çilingər işləmişdir. İki ciyərparası qaldı. İlahə və Kəmalə. Qanlı yanvar gecəsindən 1 ay. 5 gün sonra, fevralın 25-dən 26-na keçən gecə baş vermiş bu hadisəni eşidəndə bir daha əmin olursan ki, qanlı günlər davam edir. Hadisə həmin gecə Tağızadə ilə Pişəvəri küçələrinin kəsişdiyi yerdə olub. Yaralını xəstəxanaya aparan 5 nömrəli köməkçi yardım stansiyasının həkimi Hürü Ağayar qızının dediklərindən:

— Həmin gecə növbədə idim. 00.10 dəqiqədə çağırışdan qayıdırdıq. Tağızadə küçəsi ilə Pişəvəri küçələrinin kəsişdiyi yerdə hərbçilər maşını saxlayıb sənədlərimizi yoxlamağa başladılar. Elə bu vaxt güllə səsi eşidildi. Gördük ki, göy rəngli «Moskviç» markalı maşın sürətlə səkiyə çıxdı və divara dəyib dayandı.

Biz onlara dedik ki, yaralıya kömək lazımdır. Onlar isə öz işlərində idi. Bu vaxt Pişəvəri küçəsi ilə təcili yardım maşını bizə yaxınlaşdı. Hərbçilər maşının işığını görən kimi yaralıya yardım etməyə icazə verdilər. Biz «Moskviç»in qapısını açanda gördük ki, yaralı arxa tərəfə qanrılıb və başından qan axır. Onu xəstəxanaya çatdırdıq. Beş dəqiqədən sonra isə...

Mərhum Şəhidlər xiyabanında uyuyur.

Bu ünvanda yaşamışdır: Hüsü Hacıyev küçəsi, 35, mənzil 32.

## NƏSİBOV ALLAHYAR İSGƏNDƏR OĞLU



1952-ci il aprelin 6-da Ermənistan SSR; Amasiya rayonunun Oxçuoğlu kəndində anadan olub. Ermənistandan, doğma yurd-yuvasından qovulandan sonra Bakıda yaşayırdı. Qeydiyyatı olmadığı üçün heç yerdə işləmirdi. Günəmuzd fəhləlik edirdi.

Dörd övladı qalıb.

Qardaşı Tariyelin dediklərindən:

— O gecə Allahyarı axtara-axtara XI Qızıl Ordu metrosu nun üstünə gəldik. Burada Allahyarı tapdıq. Bu vaxt qabaqdan bir nəfəri arxaya gətirdilər. Boğazından yaralanmışdı. Bu ilk yaralılardan idi. Mən ona dedim ki, gəl evə gedək, bunlar, camaatı qıracaqlar. O cavab verdi ki, niyə qorxursunuz, qoy beş-onumuz da ölək.

Sonra çaxnaşma düşdü. Biz bir-birimizi itirdik. Xeyli gizləndik. Sonra onu tapa bilməyib respublika xəstəxanasına gəldim. Elə bil duymuşdum ki, nəsə olub ona. O isə artıq keçinmişdi.

Şəhidlər xiyabanında dəfn edilib.

Evi olmayıb. Atası bu ünvanda yaşayır: Bakı, Vorovski qəsəbəsi, 22-ci Dağlıq küçəsi 3.

**NƏSİROV YANVAR ŞİRALI OĞLU**



1957-ci il yanvarın 1-də Ağdam rayonunun Gülablı kəndində anadan olub. Məişət kondisionerləri zavodunun nəzdindəki «Sərin» kooperativində işləyirdi. Yaş yarımlıq bir oğul payı qalıb.

O müdhiş gecə Yanvar dostları ilə birlikdə «Olimp» mağazasının yanında olub. Qarışıqlıq düşəndə onlar bir-birini itirib. Şəhidlərin imdad diləyən səslərini tankların qorxunc, əzəmətli səsi yeyəndə Yanvar vurulub, — saat 00 dəqiqədə kürəyindən aldığı odlu güllə yaraları elə oradaca taqətini qırıb. Çoxlu qan itirib. Qaçmağa taqəti qalmayıb. Taleyin amansız hökmü ilə razılaşıb. Yanvar ayının 1-də dünyaya gəlmişdi. Və bunun şərəfinə adı da Yanvar qoyulmuşdu. İnanmışdılar ki, anadan olduğu ay ona bol-bol sevinc, şadlıq, gətirəcək. Belə olmadı. Şərəfinə qoyulduğu ay da apardı onu. Yanvar ayının 20-də Qədirli adına xəstəxanada gözlərini əbədi yummuşdur. Şəhidlər xiyabanında uyuyur.

Bu ünvanda yaşamışdır: Bakı, Ağa Nemətulla küçəsi, keçid 1, ev 6.

## NİKOLAYENKO ALLA ALEKSEYEVNA

1972-ci ildə anadan olub.

Salyan qazarmasının y yaxınlığındakı «Krasnı Vostok» hərbi şəhərciyində atası ilə birlikdə yaşayırdı. Atası Aleksey hərbçi olub. Yanvarın 20-si hərbi xidməti ilə əlaqədar olaraq onların ailəsi Almaniya Demokratik Respublikasına getməliydi.

Yanvarın 19-u axşam yır-yığış eləyirdi. Alla heç getmək istəmirdi bu şəhərdən. Getmədi də... əcəl saxladı onu çox sevdiyi bir. şəhərdə. Aleksey kişi tək getdi. Allasız.

Yaşadıqları mənzildən beş güllə tapılıb. Onların biri dəyib Allaya. Dördü elə-belə, divarlara. Yəqin cəzalandırırlar o güllələri havayı yerə atan əsgərləri...

Yanvarın 20-də «Volçi Vorot» qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır:

Bakı, «Krasnı Vostok» şəhərciyi, ev 6, mənzil 22.

## NİŞŞENKO ANDREY ALEKSANDROVIÇ



1972-ci il mayın 6-da Bakıda anadan olmuşdur. Milliyyəti rusdur. 2 №li Dəmiryol məktəbinin 3-cü kursunda oxuyurdu.

Həmin gün Andreylə bir yerdə olmuş dostu Fuad Babayevin dedikləri: «Təxminən gecə saat 01 radələrində «Xəzər» kinoteatrının yanında gəzişirdik. Bizim ev buraya yaxındır. Bir də gördük ki, tanklar gəlir. Düzü heç qorxmadıq, axı tanklar bizimki idi. Biz yanılmışdıq. Yaxınlaşanda bizim tanklar bizi atəşə tutmağa başladı. Biz qaçmağa üz qoyduq. Bu vaxt mən ayağımdan yaralandım. Andrey isə qaçdı. Mən elə bildim ki, o qaçıb canını qurtara bilib. Amma yox...

Sonra məni, tanımadığım adamlar xəstəxanaya apardı. Sabahısı gün öyrəndim ki, əsgərlər onu süngü ilə vurublar. Onun boynunun ön səthi kəsilmiş, nəfəs boruları zədələnmişdir.

Şəhidlər xiyabanında dəfn olunub.

Ünvanı: Bakı, B. Bağırova küçəsi 7, ev 37.

**NOVRUZBƏYLİ AĞABƏY OQTAY OĞLU**



1971-ci il mayın 23-də Bakıda anadan olmuşdur.

M. Əzizbəyov adına Azərbaycan Sənaye Universitetinin kimya-texnologiya fakültəsində oxuyurdu. Torpağımıza uzanan xain əllərin üç il əvvəl açıq-aşkar fəaliyyətə başlaması, hadisələrin qaynar burulğanı kimyaçı olsa da Ağabəyi tarix kitabları ilə məhrəm etdi. 1905-1920-ci illər Azərbaycan tarixi daha çox maraqlandırırdı onu. Və bütün bu mütaliədən sonra qənaətə gəlirdi ki, Azərbaycanda bu əsrdə baş verən bütün qırğınlarda ya gizli, ya açıq şəkildə daşnak əli var. Bu fikri Ağabəy həlak olandan sonra onun atası Oqtay müəllim danışacaq. Oqtay müəllim söhbətimizdə bir də onu demişdi ki, mən oğlumu öləndən sonra başlamışam tanımağa. Haqsızlığa qarşı barışmaz mövqeyi var idi! O müdhiş yanvar gecəsi Ağabəy evdən çıxanda anası yolunu kəsmişdi: o da şəstlə cavab vermişdi ki, «Hamının anası var, hamı yaşamaq istəyir, bəs onda kim getsin? — deyib çıxmışdı. Faciə Ağabəydən yan keçdi, amma əcəl yan keçmədi. Faciədən sonra Ağabəyin döymədiyi qapı, yazmadığı yüksək səlahiyyətli idarə qalmadı. Mərkəzi Komitə, Ali Sovet... hər yerdə xalqı düşündürən suallara cavab istədi. Nə üçün fövqəladə sessiyanın qərarları yerinə yetirilmir, nə üçün günahkarlar cəzalandırılmır?

Atası Oqtay müəllimin dedikləri:

— Əli hər yerdən üzüləndən sonra çox fikirli gəzirdi. «Şəhidlərin qanı yerdə qaldı» — deyirdi. Bir də bunu deyirdi balam: «Kölə kimi yaşamaqdansa, ölmək yaxşıdır». Respublikada prezident seçkisi keçiriləndə isə belə deyirdi: «Prezidenti xalq seçməlidir, lakin belə olmadı. Mən bununla razılaşa bilmirəm».

Razılaşmadı da Ağabəy. Mayın 19-u gündüz saat 16 radələrində institutdan gətirdiyi kalium-dixromat zəhərini başına çəkdi. Əl boyda bir kağızı qalıb: «Bağışlayın, əzizlərim, Azərbaycanın azadlığı uğrunda mübarizə aparmağa gücüm çatmadı.

Yaşasın Azad Azərbaycan!»

Ağabəy Pirşağı qəbiristanlığında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Bakı, Əzizbəyov küçəsi 27.

**ORUCOV ŞƏMSƏDDİN ƏBİLHƏSƏN OĞLU**



1950-ci ildə Sabirabad rayonunun Cavad kəndində anadan olmuşdur. Bakı İdman Malları Fabrikində mühəndis işləyirdi.

Şəmsəddin şəhidlərin dəfn mərasimindən sonra cəmi bir gün yaşadı. Qəlbi günahsız qurbanların ağrısıyla doluydu. Balalarını başına yığıb əyləşmişdi mənzilində. Azərbaycan xalqının kədərinə qoşulub şəhidlər üçün yas saxlayırdı. Özü də şəhid oldu.

Yanvarın 23-də saat 14.10 da hərbçilərin mənzillərinə tuşladığı güllələrdən biri də gəlib onu tapdı. Güllə əvvəl həyat yoldaşının əlini zədələyib keçdi, sonra Şəmsəddinin ürəyinə toxunub dayandı. Sakitcə balaları ilə evində oturan, haqsızlıqlara nifrət edən daha bir gəncin ürəyi beləcə dayandı.

6 yaşlı oğlu Cavad, 5 yaşlı qızı Kəmalə çox gözləyəcəklər atalarının yolunu. Gözləyə-gözləyə də ata, ana olacaqlar. O isə gəlməyəcək. Körpələr isə bunu ancaq o vaxt, ata-ana olanda biləcəklər.

Neftçala rayonunun Sovetabad kənd qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, İnqilab küçəsi, 1008-ci kvartal, mənzil 66.

**POLADI SALEH ƏLİQULU OĞLU**



1968-ci il dekabrın 6-da Bakı şəhərində anadan olmuşdur. Nəsimi rayonundakı 159 nömrəli orta məktəbi bitirib. Sənaye malları kooperativində işləyirdi. Ailənin yeganə övladı idi. Tək qalmışdılar. Bir ana, bir oğul. Biri-birinə həyan olmuşdular. Oğluna baxıb fərəhlənmişdi ana: «Şükür, ocağımız boş qalmadı» — demişdi. Amma sən saydığını say... Əliqulu kişinin yarımçıq qalmış ömrünü yaşamaq, başsız ailəyə sevinc gətirmək payı Gülbahar ananın çiynində idi. İndi-indi bu yükü oğluna verəcəkdi. Oğlundan xəbərsiz gəlin seçirdi özünə. Gözündə qaldı arzusu, niyyəti...

Aman fələk, dad fələk, heç olmadım şad fələk. İçirtdiyin şərbətdən Bir özün də dad fələk.

XI Qızıl Ordu meydanına üç dost getmişdi. Saleh, Cavad, Sahib. Salehlə Cavad geri qayıtmadı. Bunu da Sahib danışır:

— XI Qızıl Ordu meydanına təzəcə çatmışdıq. Tankların gurultusu avtomatların şaqqıltısına, aman diləyən dinc adamların harayına qarışmışdı. Beş-on metr aralıda qadın kömək istəyirdi. Saleh ona yaxın getdi, son saniyələrini yaşayan qadını qırağa çəkmək istəyirdi ki...

Bircə -A-a-deyə bildi.

Nə deyəcəkdi görən, axır nəfəsində «Ana», «Ata», «Azadlıq», «Azərbaycan»... Kim bilir? Şəhidlər xiyabanında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Bakı, Tbilisi prospekti, ev 54, mənzil 60.

**RƏHMANOV İSLAM OQTAY OĞLU**



1968-ci il oktyabrın 14-də Ramana qəsəbəsində anadan olub.

1 nömrəli tikinti-quraşdırma idarəsində fəhlə işləyib. Yanvarın 19-da təxminən gecə saat 02 radələrində güllə səsinə küçəyə çıxıb. Ölümündən qabaq qohumlarına demişdir ki, küçəyə çıxanda gördüm ki, çoxlu hərbi zirehli maşın gəlir. Camaata yaxınlaşanda başladılar atmağa. Mən hər iki ayağımdan və sağ qolumdan yaralandım.

Yanvarın 29-u vəfat etmişdir.

Ramana qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Ramana qəsəbəsi, Orconikidze küçəsi 14.

**RZAYEV AZAD ALLAHVERDİ OĞLU**



1965-ci il oktyabrın 10-da Bakıda anadan olub. Dərin Dəniz Özülləri zavodunda işləyirdi. İki qızı — Şəlalə və Günel atasız qaldı.

Yanvarın 20-də gecə saat 00.04 radələrində Rzayev Azad, Rzayev İlham «KAMAZ» markalı maşında [sürücü Kərimov Valeh] Bakıya gələrkən Ələt qəsəbəsinin 2 km-də UAZ-469 hərbi maşını bu maşını ötüb keçmiş və onlara güllə atmağa başlamışdır. «KAMAZ» maşınının qabaq və yan şüşələri tamamilə sıradan çıxmışdır. Sürücü mümkün qədər hadisədən qaçmaq istəmiş, lakin buna müvəffəq olmamışdır.

Sürücü Valeh Kərimovun dediyinə görə o, maşını saxlayanda Azadın vəziyyəti çox pis idi. Mən onu Qobustan xəstəxanasına çatdıra bildim. Nədənsə onu götürmədilər. İndi də bilmirəm niyə dedilər ki, hərbi xəstəxanaya aparmalıyam. Qəribə məntiqdir, həyat əldən gedir, mən isə başqa xəstəxanaya getməliyəm. Yolda isə o artıq keçinmişdi.

Qobustan qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Qobustan qəsəbəsi, 2-ci sahə, ev 7.

**RÜSTƏMOV RÖVŞƏN MƏMMƏD OĞLU**



1961-ci ildə Bakıda anadan olmuşdur. 204 nömrəli tikinti-quraşdırma idarəsində fəhlə işləyib. İki qızı, bir oğlu qaldı.

Həyat yoldaşı Ziyarət Rüstəmovanın dediklərindən: — Yanvarın 19-da saat 18-də evdən çıxanda dedim ki, tez qayıt. Saat 23-də evə zəng edib dedi ki, narahat olma, uşaqlarla bir yerdəyəm. Səhərə qədər gözlədim, gəlmədi. Elə bil ürəyimə dammışdı. Bir dəqiqə çimir eləyə bilmədim.

Səhər saat 6-da zəng edib dedilər ki, Rövşən Caparidze adına xəstəxanadadır. Mən qaragün maşın tutub ora getdim. Yolda əsgərlər maşını bir neçə yerdə saxladılar. Avtomatı üstümüzə çəkirdilər. Maşını xəstəxananın yanına getməyə buraxmadılar. Təxminən 1 km. qalmış düşdük. Mən çatanda sağ idi. Orada dedilər ki, mərhumu gecə saat 03.40 dəqiqədə gətiriblər. Sinəsinin sağ tərəfində çoxsaylı güllə yarası var idi. Səhər saat 9.20 dəqiqədə keçindi. Başı kəsik qoydu balalarımı.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, 8-ci km. qəsəbəsi, Tələbə küçəsi, ev 51, mənzil 47.

**SADIQOV YUSİF ALLAHVERDİ OĞLU**



1964-cü ildə Ermənistan SSR, Krasnoselo rayonunun Cil kəndində anadan olub. Orta məktəbi qızıl medalla, universitetin mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. Aspiranturada oxuyurdu. Təzə nişanlanmışdı. O müdhiş gecədən bir gün əvvəl Yusif bacısı Sayalı xanımla söhbətində deyib ki, azadlıq uğrunda həlak olanlar ölmür, şəhid olurlar, azadlıq isə qurbansız olmur.

Bəli, azadlıq yolunda, suverenlik yolunda həlak oldu Yusif. Özü də 26 yaşı tamam olduğu gün. Atası Sadıqov Allahverdi yanvarın 20-də Yusifin papağını Salyan kazarmasının yanından tapıb. O gündən ilim-ilim itib Yusif.

Fevralın 4-də onun atası yenidən Semaşko adına xəstəxanaya gedir. Ölüxanada bir sağ qoldan çıxan paltarları ona göstərirlər. Atası oğlunun paltarlarını tanıyır. Kəsik qolundan çıxan paltarlar bunlardır: palto, pencək, köynək, jilet, alt köynək. Buna görə də valideynləri belə hesab edir ki, Yusif həlak olub. Bədən isə yoxdur. Onun sağ qolu Şəhidlər xiyabanında basdırılıb.

Bu ünvanda yaşamışdır: Bakı, 4-cü Aşırım küçəsi 89.

**SALAHOV ŞƏRAFƏDDİN MÜZƏFFƏR OĞLU**



1963-cü ildə Bakıda anadan olub. Nəşriyyatda işləyirdi Subay idi. O qanlı gecə təxminən saat 00 radələrində atışma səsinə küçəyə çıxıb. Qardaşı Şamil danışır ki, onun küçəyə çıxması ilə mənim çıxmağım arasında cəmi bir neçə dəqiqə fərq oldu. Bir də gördüm ki, qardaşım oğlu Zahid qışqırır:

— Ay navar, əsgərlər Şərafəddini güllə ilə vurdular, gəlin. Biz küçəyə, onun yanına çatanda təsadüfən həkim də gəlib çıxmışdı. Onu müayinə edib ayağa duranda eləcə başını buladı. O artıq keçinmişdi. Daha haray hara çatacaq. Biz onu Semaşko adına xəstəxanaya apardıq. Ölüm haqqındakı sənəddə belə yazılıb:— «Boynuna baş hissəyə yaxın nahiyəsindən dəyən güllə onun beyin nahiyəsini dağıtmışdır. Yerindəcə ölüm baş vermişdir».

Şəhidlər xiyabanında dəfn edilib.

Ünvanı: Bakı, 3-cü Yasamal, ev 134 v.

## SEMYONOV ALEKSANDR VLADİMİROVİÇ



1947-ci ildə Zabratda anadan olub. Bir qızı qalıb.

Yanvarın 20-də axşam saat 20-də Tbilisi prospektində 81-27 nömrəli QAZ-24 markalı maşında vurulub. Odlu silahla vurandan sonra əsgərlər onu başqa maşına qoyub qospitala göndəriblər. Son sözü bu olub: «Rebyata, zaçem menya»... 5 gün yaşayıb. Yanvarın 25-də vəfat edib.

Anadan olduğu kənddə — Zabratda dəfn edilib.

Bu ünvanda yaşamışdır:

Bakı, Ağa Nemətulla küçəsi 25.

**SƏFƏROV BAFADAR AĞAMİRZƏ OĞLU**



1923-cü il martın 8-də anadan olub. Təqaüddə idi. Böyük Vətən müharibəsinin iştirakçısıdır.

Müharibədən sonra 25 il milis orqanlarında işləyib. Mərhumun 3 uşağı, ona yaxın nəvə-nəticəsi var. O, 19-dan 20-nə keçən gecə Q-87—99 AQ markalı «Moskviç» maşınında Qarayev adına xəstəxanaya — nəvəsinin yanına gedərkən yolda hərbçilər tərəfindən atəşə tutulmuş, aldığı yaralardan yerindəcə keçinmişdir.

1940-48-ci illərdə, — o qanlı-qadalı günlərdə bütün çətinliklərə dözdü, sinəsini 10-dan artıq orden və medal bəzədi. Dünyanın düz vaxtı, sülh şəraitində yağı gülləsinə tuş oldu. Mərhumun meyidi ancaq yanvar ayının 27-də məsciddən tapılıb. Məscidə onun meyidi həmin gün Bakıdakı hərbi qospitallardan birindən gətirilib.

Hərbçilər mərhumun yaxasından II dərəcəli müharibə iştirakçısı ordenini də çıxarıblar.

Şəhidlər xiyabanında dəfn olunub.

Ünvanı: Bakı şəhəri, Mətbuat prospekti, ev 35, mənzil 61.

**TOKAREV VLADİMİR İVANOVİÇ**



1954-cü ildə Bakıda anadan olub. Taksimotor parkında sürücü işləyib. Milliyyəti rusdur. 3 uşağı var. Stanislav, Mixail, Dmitri. Böyüyünün 9 yaşı var. Sonbeşiyi də 9 aylıqdır.

Yanvarın 19-da saat 12-də arvadının qohumlarından olan Valentina İvanovnanın oğlunu aeroporta aparmaq istəyirmiş... Hadisəni öz gözləri ilə görən Valentina İvanovnanın dedikləri:

— Aeroport yolunda sakitlik idi. Düzdür, bir neçə yerdə barrikadalar düzəldilmişdi, bizi yoxlamadan buraxdılar. Aeroporta qalmış iki yerdə hərbi patrullar sənədlərimizi yoxladı. Aeroportun lap yaxınlığında gördük ki, 2 tank, yanında da əsgərlər dayanıb. Biz elə bildik ki, bunlar da sənədlərimizi yoxlayıb buraxacaqlar. Vladimir maşını saxlamaq istəyirdi ki, qəflətən bir qatar avtomat atəşi açıldı. 4-5 əsgər bir yerdə atəş açırdı. Hətta tankdan da güllələr yağırdı. Mən indi də başa düşə bilmirəm necə olub ki, biz sağ qalmışıq. Möcüzədir. Əsgərlər o dəqiqə bizi mühasirəyə aldılar. Mən başımı çevirəndə gördüm ki, Vladimir artıq ölüb. Əsgərlər bizi maşından düşürdülər. Onu da sürüyüb yerə saldılar. Onlar sənədlərimizi yoxladılar və bizə dedilər ki, siz azadsınız, gedə bilərsiniz. Mən soruşdum ki, Vladimirin meyidini haradan götürə bilərik. Onlar mənə cavab vermədilər. Mən oğlumla onlardan xeyli uzaqlaşdıq. Bir şəxsi maşın rast gəldi. İçində 2 oğlan var idi. Sürücünün adı Hacı idi. Onlar bizi Binə kənd sovetinə gətirdilər. Bizə köməklik elədilər, sakitləşdirdilər. Sabahısı günü meyidin axtarılmasında da onlar bizə kömək etdilər. Sağ olsunlar, dünya yaxşı adamlardan xali deyil.

Balaxanıda dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Qorki küçəsi 18, mənzil 17.

**TURABOV TENQİZ MƏMMƏD OĞLU**



1966-cı ildə Gürcüstan SSR Bolnisi rayonundakı Kəpənəkçi kəndində anadan olmuşdur.

Minlərlə oğullarımız kimi Tenkiz də bir tikə çörək dalınca İrkutska gedib çıxmışdı. İnşaatda işləyirdi, tibb məktəbinin 1 kurs tələbəsi idi. həkim olmaq arzusunda idi. Xalqına xidmət etmək, onun xəstələrini ayağa qaldırmaq arzusu ilə yaşayırdı. Xalqın həkimləri isə onu ayağa qaldıra bilmədi, gücləri çatmadı buna.

Vətəndəki hadisələrin gedişini diqqətlə izləyən Tenkiz son zamanlar dözə bilmədi. Məzuniyyət götürüb Bakıya gəldi. O müdhiş gecə L. Şmidt adına zavodun qarşısında güllə yarası aldı. Bu yara onu Vətəndə saxladı. Özü də həmişəlik.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: İrkutsk vilayəti, Tayşet şəhəri, Matrosov küçəsi 52.

**TUXTAMIŞEV FƏRQƏT ŞƏRƏFULLAYEVİÇ**



1958-ci il oktyabrın 29-da Bakıda anadan olub. Milliyyətcə tatardır.

Bakı elektrik maşınqayırma zavodunda yığıcı çilingər işləmişdir. Subay idi.

19-dan 20-sinə keçən gecə. iş yoldaşları ilə birlikdə Salyan qazarmasının yanında olub. Əsgərlər silahsız piketçilərə divan tutan vaxt başından yaralanıb. Əsgərlərin insaflıları bir neçə yaralı ilə birlikdə Fərqəti də Salyan qazarmasının içərisindəki həkim məntəqəsinə aparmışlar. [Bunu mərhumun iş yoldaşları görmüşlər] Yanvarın 20-dən başlayaraq Fərqətin valideynləri onu axtarmağa başlamış, lakin şəhərin heç bir xəstəxanasından tapa bilməmişlər. Salyan qazarmasının həkim məntəqəsində Fərqət qeydiyyatdan keçirilməmişdi. Növbətçi həkim mərhumun şəklini tanımış, onun hərbi qospitalın ölüxanasına göndərildiyini bildirmişdir.

Ancaq yanvarın 24-də Semaşko adına xəstəxananın ölüxanasına gətirilmişdir. [?)

Valideynləri yanvarın 26-da mərhumun burada olduğundan xəbər tutmuş, bir gün sonra Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Həsənoğlu küçəsi, ev 12a, mənzil 81.

**XAMMƏDOV BABA MƏHƏMMƏD OĞLU**



1939-cu il iyulun 1-də anadan olub. 84 nömrəli texniki-peşə məktəbində fizika müəllimi işləyirdi. İki uşaq atası idi.

Həyat yoldaşı Şərqiyyə Babazadənin dediklərindən: — O gecə atışma səsinə eyvana çıxdıq. Gördük ki, aşağıda kimsə qışqırır:

— Ay camaat, kömək edin!

Baxanda gördük ki, bir cavan oğlan üzü üstə yıxılıb. Ona kömək etmək məqsədilə qonşularla birlikdə aşağı düşdük. Yaralını maşına qoyub xəstəxanaya göndərdik. Qonşulardan bir neçəsi onunla getdi. Evə qayıdarkən yoldaşım qəflətən yerə yıxıldı. Köynəyinin yaxasını açdıq. Güllə ona boğazının sağ tərəfindən dəymişdi. Tez onu dəmiryol xəstəxanasına apardıq. Cərrahiyyə əməliyyatı aparıldı. Ancaq onu xilas etmək mümkün olmadı.

Mərhum Şəhidlər xiyabanında dəfn edilmişdir.

Ünvanı: Biləcəri qəsəbəsi, Tbilisi şosesi, ev 11, mənzil

**XANMƏMƏDOV CƏBRAİL HÜSEYNXAN OĞLU**



1939-cu ildə Suraxanıda anadan olub. Bakı kanalizasiya idarəsində fəhlə işləyirdi. Həmin gecə Cəbrayıl Hövsandan Yeni Suraxanıya — anasının yanına gəlmişdi. Güllə səsinə küçəyə çıxıb. Yaralanıb. 12 nömrəli xəstəxanaya aparıblar. Vəziyyəti ağır olduğuna görə Caparidze adına xəstəxanaya göndərilib. Maşında üç yaralı olub, onların biri zabit imiş. Yolda tanklar təcili yardım maşınının qabağını kəsir. Maşına tərəf gəlib əzmək istəyir. Maşındakı yaralı zabit papağını sürücüyə verib deyir ki, papağı göstər və «ne strelyayte» de. Bundan sonra maşına yol verirlər. 20 dəqiqəlik yolu maşın 2 saata gəlir. Ona yardım göstərilsə də gecə saat 04 radələrində keçinir.

Yeni Suraxanı qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Hövsan qəsəbəsi, Sahil küçəsi, ev 33, mənzil 23.

## XARİTONOV VLADİMİR ALEKSANDROVİÇ



1949-cu ildə Saratovda anadan olmuşdur. Bakıda hərbi qulluqçu işləyib. İki uşaqı qaldı.

Fevralın 8-də gecə saat 12.00-da işdən evə gedərkən Dərnəgül körpüsünün ayağında əsgərlər mayor Xaritonovun «Moskviç» markalı maşınını saxlamaq istəyiblər. Nədənsə Xaritonov maşını saxlamayıb. Bəlkə də düşünüb ki, onlar hərbçi mən hərbçi, mənə güllə atmazlar. Ancaq sən saydığını say... Əsgərlər ikinci dəfə qışqırıblar:

— Stoy, strelyat budu!

Xaritonov isə evə tələsirdi, uşaqlarının yanına tələsirdi... Əsgərlər əvvəlcə xəbərdarlıq atəşi açıblar. Sonra da... Sonra da atılan güllə hədəfə dəyib. Güllə mayor Xaritonovun başından dəymişdi. Əcəl elə oradaca haqlamışdı onu...

Vladimir Aleksandroviç Xaritonov Saratovda, dədə-baba yurdunda dəfn olunmuşdur.

**HACIYEV MÜBARİZ MƏHƏMMƏD OĞLU**



1952-ci ildə martın 11-də Ucar rayonunda anadan olmuşdur. 5 nömrəli taksimotor parkında sürücü işləmişdir. Müdhiş gecə XI Qızıl Ordu meydanında sol ayağından, sol çiynindən və ağ ciyər nahiyəsindən yaralanmışdır. O, hadisə yerindən sürünə-sürünə respublika xəstəxanasının həyətinəcən getmişdir. Pəncərədən xəstələr onu görmüş və gəlib aparmışlar. Xeyli qan itirən xəstəyə qan vurulmuş, lakin bunun da köməyi olmamışdır.

Dörd ciyərparası qalıb. Vüqar, Vüsal, Xəyal və Kənan.

Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, M.A. Əliyev küçəsi, döngə 17, ev 2, mənzil 3.

## HƏMİDOV İZZƏT ATAYKİŞİ OĞLU



1930-cu il dekabrın 5-də anadan olub. Yer Quruluşu Layihə İnstitutunda işləyib. 3 övladı, 4 nəvəsi var.

Yaralanıb: 20.01, 1990, saat 12.00

Ölüb: 22.01. 1990, saat 12.00

Mərhumun həyat yoldaşı Mərziyə Əli qızının dedikləri: — Yanvarın 20-də həyat yoldaşımla öz maşınımızda onun iş yerinə tərəf gedirdik. İnstitut Salyan qazarmasının yanında yerləşir. İnstitutun yanında gördük ki, yol bağlıdır. O, maşını saxlayıb düşdü. Yol kənarında tanışlarına rast gəldi. Onlarla söhbət eləməyə başladı. Bir də gördüm ki, kişi yerə sərilib. Elə bildim ki, ürəyi ağrıyıb, yıxılıb. Özümü onun yanına çatdırdım. Gördüm ki, yaralanıb. Orada duran kişilərdən biri maşına oturdu, İzzəti təcili yardım xəstəxanasına çatdırdıq. Operasiya edildi. Güllə çıxarıldı. Güllə onun budundan dəyib, qarın nahiyəsini tamamilə dağıtmışdı. Vintşəkilli güllə idi. O iki gün reanimasiya şöbəsində qaldı».

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Lenin prospekti, ev 97, mənzil 20.

**HƏSƏNOV ƏLİ XUDAVERDİ OĞLU**



1957-ci il sentyabrın 7-də Bakıda anadan olub.

Meliorasiya Su Tikinti İdarəsində sürücü işləyib. İki uşağı başsız qaldı. Həyat yoldaşı Mahirə Həsənovanın dedikləri: — O gecə təxminən saat 24 radələrində küçədən güllə səsləri eşidilməyə başladı. Adamlar qışqırırdılar. Yoldaşım Əli geyinib bayıra çıxdı ki, görüm nə olub?

Səhərə kimi gözlədim. Gözüm yolda, qulağım səsdə qaldı... Bir gecədə beş insan ömrü yaşadım, ölüb dirildim, o dünyanı görüb qayıtdım. Səhərin kor qalmış gözü çırtdayan kimi, küçəyə çıxdım. Dedilər ki, gecə yüzlərlə adamı vəhşicəsinə qırıblar. Qaynatam Xudaverdiyə xəbər verdim. Başladıq xəstəxanaları axtarmağa. Semaşko adına xəstəxananın meyidxanasına qaynatam tək girdi. Oğlunu qolları üstə gətirdi, gözü qan yaş tökə-tökə...

İki balam ata nəvazişindən məhrum oldu.

Mərhum Şəhidlər xiyabanında dəfn edilib.

Ünvanı: Bakı, İnqilab küçəsi 92, mənzil 15.

**HƏSƏNOV MEHMAN İBRAHİM OĞLU**



Bakıda anadan olub. Ananın tək övladı idi.

Tikinti Materialları Sənayesi Nazirliyinin məlumat-hesablama mərkəzində işləmişdir.

Yanvarın 19-u günü işdə olub. Evdən iş adıyla çıxıb. Səhər evə gəlməyib. Ayın 21-də meyidini mərkəzi ölüxanadan tapıblar. XI Qızıl Ordu meydanında həlak olub. Haqqında geniş məlumat yoxdur.

Şəhidlər xiyabanında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Bakı, 2-ci mikrorayon, Cəbiyev küçəsi, ev 27, mənzil 44.

**HƏSƏNOV MÜZƏFFƏR QƏZƏNFƏR OĞLU**



1939-cu il fevralın 5-də anadan olub. Tikinti-quraşdırma trestinin avtobazasında sürücü işləmişdir.

Dörd övladı qaldı: Zahid, Gülafər, Cavid, Gülnarə.

19-u gecə böyük oğlu Zahid evə gec gəlib. Müzəffər kişi övladını axtarmağa gedib. O gedən bir də evə qayıtmayıb. Gecə saat 4—5 radələrində Salyan qazarmasının yanında görüblər onu. Yaralı və ölüləri xəstəxanaya daşıyırmış.

Yanvarın 20-si səhərdən uşaqların axtardıqları xəstəxana qalmayıb. Atalarını tapa bilməyiblər. Yanvarın 22-si, şəhidlərin dəfni günü Müzəffərin oğlanları Semaşko adına xəstəxanada tanınmaz hala düşmüş bir meyidi öz ataları bilib Şəhidlər xiyabanında dəfn ediblər.

Oğlanları «atalarını» dəfn edib, o isə sağdır. Hələ ki, nəfəsi gedib-gəlir. Hələ ki, Semaşko adına xəstəxanada oğlanlarının yolunu gözləyir, dilsiz, ağızsız...

Böyük oğlu Zahidin dedikləri:

— Yanvarın 23-də gecə saat 2-də Salyan qazarmasından Semaşko adına xəstəxanaya 19 meyid gətiriblər. Bu adamlar yanvarın 19-u gecə yaralanandan sonra Salyan qazarmasına aparılıb. Üç gün sonra xəstəxanaya gətiriləndə ancaq atamın nəfəsi üstündə olub.

Yanvarın 24-ü dili açılıb, özünə gəlib. Ünvanı verib ki, evə xəbər versinlər. Xəstəxanadan evə gəlib bu xəbəri bizə verəndə hamı dəli kimi olmuşdu. Axı biz atamızı dəfn eləmişdik.

Xəstəxanaya getdik. Atamın halı özündə deyildi. Bir qolu və bir barmağı sındırılmışdı. Rezin dəyənəklə başına vurulmuş, beyninə qan sızmışdı, amma güllə yeri yox idi. Bundan sonra beş gün yaşadı atam. Yanvarın 29-u gecə saat 2-də vəfat etdi.

Nə ağır dərddi, ilahi! Bir adamı iki dəfə dəfn etmək. Bu ağrını, acını iki dəfə çəkmək, bir adda adamı iki dəfə qəbiristanlığa aparmaq...

Mərhum Şəhidlər xiyabanında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Bakı şəhəri, 1-ci Alatava, ev 134.

**HƏSƏNOV SAHİB NƏSİB OĞLU**



1949-cu ildə Gədəbəy rayonunun İsalı kəndində anadan olub. Məşədi Əzizbəyov heykəlinin yanındakı qəzet köşkünün satıcısı idi. Üç balası qaldı.

Yanvar ayının 20-də səhər tezdən öz maşınında işə getdiyi vaxt İnşaatçılar prospektindəki yanğınsöndürmə məntəqəsinin qarşısında əsgərlər maşını atəşə tutmuş, güllələrdən biri onun alnına dəymiş, maşını idarə etmək qabiliyyətini itirmişdir. Bundan sonra maşın yenidən atəşə tutulmuş, sonra tankla maşının arda hissəsi əzilmiş və yolun kənarına atılmışdır. Bədənində səkkiz güllə yarası olub. Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Bu ünvanda yaşamışdır: Bakı, Keşlə, Zakir küçəsi 9.

**HƏŞİMOV İSRAFİL AĞABABA OĞLU**



1964-cü il aprelin 3-də Bakıda anadan olmuşdur.

Azərittifaq sistemində satıcı işləyib.

İki uşağı var. Günel 1988-ci ildə, Aysel 1989-cu ildə anadan olmuşdur.

Həyat yoldaşı Quliyeva Gülnisə Qasım qızı heç yerdə işləmirdi. İsrafil həmin axşam evdən çıxıb, bütün gecə evə gəlməyib. Səhər meyidini Semaşko adına xəstəxanadan tapıblar. Döş qəfəsindən güllə yarası alıb. Ehtimala görə hadisə XI Qızıl Ordu meydanında olmuşdur. Ətraflı məlumat yoxdur.

Mərhum 9-cu mikrorayon, 131-ci bina, 26-cı mənzildə olurdu. Qəribə də olsa, Şəhidlər xiyabanındakı «mənzili» -nin nömrəsi də 26-dır.

**HÜSEYNOV ƏLİMƏRDAN ƏBİL OĞLU**



1962-ci il yanvarın, 14-də Biləsuvar rayonunda anadan olub.

1983-cü ildən Azərelektroterm elm-istehsal birliyində elektrik montyoru işləmişdir.

19-dan 20-nə keçən gecə Salyan qazarmasının yanında olmuşdur. Qohum-qardaşının hadisə ilə bağlı geniş məlumatı yoxdur. Yanvarın 21-də onu meyidxanadan tapıblar.

Güllələr ona qolundan və sinəsindən dəymişdir. Sifətinin sağ tərəfində ağır zərbə izləri olub. Həkimin dediyinə görə o, güllə yarasından deyil, yaralı halda döyüldüyünə görə ölmüşdür.

Biləsuvar rayonundakı Fioletovka kənd qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı — 116, 7-ci mikrorayon, yataqxana 2, otaq 133.

**HÜSEYNOV NƏRİMAN VƏLİ OĞLU**



1975-ci ildə Tovuz rayonunun Xatanlı kəndində anadan olub.

42 nömrəli məktəbin VIII sinif şagirdi idi.

Nəriman atışma səsinə küçəyə çıxmış, Salyan qazarmasının yanında avtomat gülləsi ilə yaralanmışdır. Məhəllə uşaqları onu xəstəxanaya aparıblar. Onlar xəstəxanaya çatanda hər yan zülmət imiş. Semaşko adına xəstəxananın işıqları söndürülübmüş.

Səhər tezdən onun meyidini Semaşko adına xəstəxananın meyidxanasından tapıblar. Vəli kişinin 15 yaşına çatdırdığı ilki Nəriman ailənin yeganə oğlu idi. Nərimanın anası uzun illərdir ki, ağır xəstədir. İki bacısına da Nəriman qulluq edirdi.

Həkim H. Hüseynovun imzaladığı ölüm haqqında arayışda yazılmışdır: «Çoxlu sayda güllə döş qəfəsində sağalmaz yaralar açmışdır».

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Bakı, Əlizadə küçəsi 126.

## HÜSEYNOV RAHİB MƏMMƏD OĞLU



1939-cu ildə Quba rayonunda anadan olub. Ticarətdə işləyib. Səkkiz uşaq atası idi. Böyük qızı Xəyalə 1965-ci ildə anadan olub, kiçik qızı Mariyə isə 1981-ci ildə. 4 bacı, 4 qardaşdırlar.

Hadisə fevral ayının 12-də təxminən saat 16.30 dəqiqədə Salyan qazarması rayonunda olub. Hadisə baş verən vaxt mərhumla bir maşında olmuş Rəcəb Əliyevin dedikləri:

— Dostum Hüseynov Tofiqlə hərbi məktəbin 30-40 metrliyində bir qara rəngli taksi saxladıb, Naxçıvan mehmanxanasına tərəf getmək istədiyimizi bildirdik. Maşının qabaq oturacağında təxminən 50 yaşlı bir kişi də oturmuşdu. Maşın yerindən tərpənəndə mühərrikdən səs çıxdı. Hərbi məktəbin qapısında iki əsgər dayanmışdı. Bu vaxt onlardan biri maşını atəşə tutdu. Sürücü əlini pəncərədən bayıra çıxarıb qışqırdı ki, səs mühərrikdən çıxır. Ona fikir verən kim idi? Qabaqda oturan sərnişin bir bunu deyə bildi:

— Bala, mən öldüm ki, sür...

Biz aşağı əyildik. Sürücü maşını «Xəzər» kinoteatrının yanına qədər çatdıra bildi və saxladı. Biz maşın çağırıb yaralını təcili yardım xəstəxanasına göndərdik. Sonra əsgərlərin yanına getdik. Bir bunu soruşduq ki, bizim günahımız nə idi. Onların yanında olan zabitlərdən biri dedi ki, çox düzgün ediblər, kimə istəsəniz, şikayət edə bilərsiniz.

Quba rayonunda dəfn edilib.

Ünvanı: Quba rayonu, C. Cabbarlı küçəsi 11.

# CAVANŞİROV İLKİN ZÜLQƏDƏR OĞLU



1933-cü il sentyabrın 28-də anadan olmuşdur.

2 nömrəli taksi maşınları parkında sürücü işləyirdi. 9 övlad böyüdüb. Kiçik övladının 14 yaşı var. İlkin kişinin övladları: Zülqədər, Əsəd, Solmaz, Sona, Nüsrət, Sevda, Arif, Zaur, Elçin. O müdhiş gecə güllə səsləri eşidəndə eyvana çıxıb. Küçədəkilər qışqırıblar ki, əsgərlər dinc əhalini qırır. O, oğlu Nüsrəti götürüb getmək istəyəndə evdə soruşublar ki, hara gedirsən? Cavab verib ki, kedim, bəlkə kiməsə kömək lazımdır.

Getdi, kiməsə kömək elədi, ona isə kömək eləmək mümkün olmadı. Yaralını götürüb xəstəxanaya apararkən Avtovağzal rayonunda gülləyə tuş oldu. İlkin kişi qolundan və başından yara aldı. 09-67 AQB nömrəli taksi maşınında 18 güllə yeri var.

Yanvarın 23-də Semaşko adına təcili yardım xəstəxanasında vəfat etmişdir. 9 uşaq atasının vəfatı Tümendəki «Alma» kooperativinin üzvlərini daha çox məyus etmişdir. Onlar İlkin kişinin uşaqlarını həddi-buluğa çatanadək himayəyə götürüblər. Tək bircə ailənin dərdi görün neçə-neçə ürəkdə özünə yer tapıb.

İlkin Cavanşirov Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, Qorki küçəsi 7, mənzil 16.

**ŞƏRİFOV MÜRVƏT RƏHİM OĞLU**



1932-ci ildə Ermənistan SSR Qafan rayonunun Müsəlləm kəndində anadan olmuşdur.

Uzun müddət, — 36 il Zəngəzur mis-molibden kombinat"ında işləmişdir. 6 övlad böyüdüb boya-başa çatdırmışdır. İki övladı, — Roza və Bayram ali təhsil almış, qızları Əsmər və Kifayət orta ixtisas məktəbini bitirmişlər. Məlahət Azərbaycan Sənaye Universitetində oxuyur. Sonbeşik Səadət isə məktəblidir.

O gün küçədə güllə səsi eşidiləndə qonşuların hamısı küçəyə çıxır.

Mərhumun gəlini Şərifova Fatma Əsab qızının dediyinə görə: güllə səsinə küçəyə çıxdıq. Gördük ki, əsgərlər küçədə bir KRAZ, bir Jiquli və bir avtobus maşınının sürücüsünü güllələdilər. Sonra cinayəti ört-basdır etmək üçün küçədəki işıqları avtomat atəşləri ilə sındırdılar, sonra isə bizə tərəf güllələr yağmağa başladı. Qaynatam və qaynanam, həmçinin qonşularımız Vaqif və atası Tahir yaralandılar.

Biz onları Semaşko xəstəxanasına apardıq. Qaynatam Mürvət yolda keçindi. Xəstəxanaya çatdıq. Bir azdan isə işıqlar söndü. Qaynanam Nazpəri ayağından yaralanıb, müalicə olunur.

Mərhum Şəhidlər xiyabanında dəfn edilib.

Bu ünvanda yaşamışdır: Bakı, R. Behbudov küçəsi 77, mənzil 12.

## I NAMƏLUM ŞƏHİD

25—30 yaşlarında kişi meyidi.
Paltarsız, sol ayağından başqa heç nə qalmayıb. Üstündən tank keçib.
Ayağında çapıq var. Çapığın uzunluğu 6, eni bir millimetr olub.

## II NAMƏLUM ŞƏHİD

25—30 yaşlarında kişi meyidi. Boyu 168 sm. Əynində yun köynək. Pencək və paltosu olmayıb. Yun köynəyin altından isə ağ dama-dama köynək geyinibmiş... Əynindəki cins şalvarı didik-didik olub.

# LƏNKƏRAN ŞƏHİDLƏRİ

Yanvarın 26-sı günü faciə Lənkərana da yetişdi. Neçə gün idi yol gəlirdi. Qatar Bakıdan Lənkərana 6 saata gəlir. Faciə 6 günə gəlib çatdı. Ağır gəlirdi. Həm də ona görə ağır gəlirdi ki, ağır faciədən çıxmışdı, ağır faciəyə qarşı gəlirdi. Lənkəranın dəli-dolu cavanları da duymuşdu bunu. Faciədən sovuşmaq üçün çəkilmişdilər. İstisu meşəsinə. Böyüklər də belə məsləhət görmüşdü. Bu meşə çox əlindən tutmuşdu Lənkəran camaatının... Ağına da, qarasına da... Bu kərə də inandılar ki, meşə onları darda qoymaz... Oydu ki, çəkildilər İstisuya, çəkildilər qandan, qadadan uzaq düşmək üçün, çəkildilər anaları ağlar qoymamaq üçün, çəkildilər qız-gəlinə dağ çəkməmək üçün...

Yanvarın 26-sı 14.30 dəqiqədə başladı Lənkəran operasiyası. Yerdən tanklarla, göydən vertolyotlarla... İlahi, 45—50 nəfər silahsız adamı tutmağa tankla, topla, vertolyotla gedən ordunun əsgərləri, elə zabitləri də onları tutanda utanmadılarmı görən...

Tutub işgəncə ilə öldürəndə düşünmədilərmi ki, özləri də insandır?.. Öldürdükləri adamları yandıranda necə?.. Hə, bu da bir tarixdir. Günahsız adamları öldürəndən sonra vəhşicəsinə yandırmaq da hansısa «böyük» xalqın tarixinə yazılır. O «böyük» xalq cavab verəcək tarix qarşısında. Verəcək, mütləq verəcək... Tez ya gec... Altı nəfərdi Lənkəran şəhidləri... Altı ümiddi... Altı həsrətdi...

**ABDULLAYEV TARİEL HACIBALA OĞLU**



1965-ci il fevralın 25-də Lənkəranda anadan olub. Kalinin adına cihazqayırma zavodunda fəhlə işləyib. Subay idi. Yanvarın 26-da Lənkəranın İstisu meşəsində hərbçilər Xalq cəbhəsinin 5 üzvünü güllələmiş, 46 adamı tutub vertolyotla Bakıya göndərmişlər. Tariyel də tutulanların arasında olmuşdur. Hərbçilər vertolyotda tutulan adamları üzü üstə yıxıb məftillə qollarını və ayaqlarını arxadan boğazlarını bağlamışlar. Tariyelin boğazına bağlanan məftili möhkəm sıxıblar. O, boğulan vaxt həmyerliləri hərbiçilərdən xahiş edib ki, Tariyelin boğazına bağlanan məftili boşaltsınlar. Onda hərbçilər məftili daha da möhkəm sıxıb, onun boğulmasına tamaşa edib ləzzətlə gülüblərmiş. Tariyel elə həmin gün vertolyotda boğulub. Bir gün sonra onun meyidi Bakıdakı mərkəzi ölüxanaya təhvil verilib. Onu Bokoviç V.V. familiyalı bir milis mayoru gətirib.

Yanvarın 31-də Şəhidlər xiyabanında dəfn edilib. Valideynləri isə onun ölümündən ancaq fevralın 12-də xəbər tutub.

Bu ünvanda yaşamışdır: Lənkəran şəhəri, Kirov küçəsi, 180.

**BAXŞIYEV SALMAN BABAXAN OĞLU**



1949-cu il martın 1-də Lənkəranda anadan olub. 4 uşağı atasız qaldı. Lənkəran şəhər qarışıq mallar ticarəti idarəsində işləyib.

Yanvarın 26-da, hadisə olan günü qardaşı Əliqismətlə bir yerdə olub.

Əliqismətin dedikləri:

— Biz XC-nin üzvləri Bakıda günahsız yerə öldürülənlərin xəbərini eşidəndə şəhərdən çıxdıq ki, hərbçilər bizi də qırmasın. Biz meşədə qərar tutmuşduq. Yanvarın 26-da saat .14 dəqiqədə vertolyotlar başımızın üstündə fırlanmağa başladı və vertolyotlardan desant atmağa başladılar. Güllələr yağış kimi yağırdı. Biz məcbur olub yerə sərildik. Burada bir neçə adam yaralandı. Güllə qardaşım Salmanın da boğazından dəydi. Salman oradaca keçindi. Əsgərlər 21 adamın qollarını bağladılar. 7—8 nəfər saxladılar ki, yaralıları və ölüləri maşınların yanına aparaq. Oradan da Lənkərana — hərbi hissəyə gətirdilər. Bizi üzü üstə yerə yıxıb arxadan əlimizi, ayaqlarımızı məftillə boğazımıza bağladılar. Bizi təpiklə, dubinka ilə döydülər. Sonra vertolyotla Qızılağac aeroportuna, oradan da təyyarə ilə Bakı ya gətirdilər.

Lənkəranda dəfn olunub.

Bu ünvanda yaşayıb: Lənkəran şəhəri, Füzuli küçəsi dalan 2, ev 8.

**BƏDƏLOV RÖVŞƏN SEYFULLA OĞLU**



1965-ci il sentyabrın 25-də Lənkəranda anadan olub. Subay idi.

Yanvarın 26-da Bədəlov Rövşən, Məmmədov Şahin və Allahverdiyev Rövşən motosikllə Hoftomi kəndindən Kirov kəndinə gedən yolda hərbçilərlə rastlaşıblar. Hərbçilər xəbərdarlıq etmədən onları atəşə tutmuşlar. Bədəlov Rövşən və Məmmədov Şahin öldürüləndən sonra yandırılmışdır.

Allahverdiyev Rövşən təsadüfən sağ qalıb. Lənkərandakı Şəhidlər qabiristanlığında dəfn edilib. Bu ünvanda yaşamışdır: Lənkəran şəhəri, Tereşkova küçəsi, ev 17, mənzil 2.

## MƏMMƏDOV VAQİF MƏHƏMMƏD OĞLU



1960-cı sentyabrın 11-də Lənkəranda anadan olub Rayondakı tikinti idarələrində fəhlə işləyib.

Bakıdakı faciəli hadisələri eşidən Lənkəran Xalq Cəbhəsinin tərəfdarları, sözün düzünü demək istəyənlər yığılıb məsləhətləşirlər ki, Lənkərana gələn hərbçilərlə toqquşmamaq üçün bir neçə gün meşədə daldalansınlar. Elə də edirlər.

Yanvarın 26-da hərbçilər meşədə daldalanan «banditləri» tutmaq üçün bir neçə vertolyot ayırır və təxminən saat 14-də meşəyə hücum təşkil edilir.

Hərbçilər meşədə gizlənənlərə divan tutur. Yaralananlar və ölənlər olur. Baxşiyev Salman da orada həlak olur 30 nəfərə qədər adamın qolunu bağlayıb Lənkərana, oradan da Bakıya yola salırlar. Vaqifin necə öldürüldüyü haqqında dəqiq məlumat yoxdur.

Lənkəranda dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Lənkəran, Vaqif küçəsi, dalan 16 mənzil 1.

## MƏMMƏDOV RAHİM VƏLİAĞA OĞLU



1969-cu il aprelin 16-da Lənkəranda anadan olub.

Yanvarın 26-da Lənkəranın İstisu meşəsində həlak olub. Güllə başından dəyib. Şok vəziyyətindən yerindəcə ölüb. Əsgərlər meyidi tankların yanına sürüyə-sürüyə gətirmişlər.

Yanvarın 27-də Lənkərandakı Şəhidlər qəbiristanlığında dəfn edilib.

Bu ünvanda yaşayıb: Lənkəran şəhəri, Şvernik küçəsi, ev 37.

**MƏMMƏDOV ŞAHİN ZAHİD OĞLU**



1972-ci il yanvarın 31-də Lənkəranda anadan olub. Subay idi. 113 nömrəli texniki-peşə məktəbində oxuyurdu. Ailənin yeganə oğul payı idi. 3 bacısı qardaşsız qaldı. Yanvarın 26-da gündüz saat 14.00 radələrində uç dost Bədəlov Rövşən, Məmmədov Şahin və Allahverdiyev Rövşən, Hoftomi-Kirov kəndləri arasında atəşə tutulmuş, öldürüldükdən sonra Şahin və Bədəlov Rövşən yandırılmışdır. Allahverdiyev Rövşən isə qolundan yaralanıb.

Şahinin meyidi tanınmaz hala salındığı üçün valideynləri onu çox çətinliklə tanıya bilmişlər.

Lənkəranda dəfn olunub.

Bu ünvanda yaşamışdır: Lənkəran şəhəri, Lənkəran küçəsi, ev 28.

# NEFTÇALA ŞƏHİDLƏRİ

## AĞAHÜSEYNOV NURƏDDİN ASLAN OĞLU



1951-ci il dekabrın 15-də Neftçala rayonunun Sovetabad kəndində anadan olub. Rayonun 26-lar qəsəbə yeməkxanasında aşpaz işləmişdir. İki qızı, bir oğlu qalıb: İlahə, Tərlan, Xəyalə.

Yanvarın 25-də axşam təxminən saat 19-da işdən evə gələrkən Neftçala mərkəzi univermağının qarşısında öz maşınında yaralanmış, həmin gün xəstəxanada vəfat etmişdir.

Nurəddinin ölümü haqqında iki şəhadətnamə çıxarılıb. Birinci şəhadətnamədə göstərilir ki, o öz əcəli ilə ölüb. Qaynatası Əliağa kişinin dediyinə görə Nurəddinin öldürülməsi haqqındakı şəhadətnaməni çox çətinliklə almış, böyük çək-çevirdən sonra kiminsə «saqqalı» altından keçmişdir.

Neftçala rayonundakı Sovetabad kəndində, dədə-baba yurdunda dəfn edilmişdir.

Həmin kənddə yaşayırdı.

**CƏFƏROV ƏBÜLFƏZ BÖYÜKAĞA OĞLU**



1966-cı ildə Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub. 3 qardaşı, bir bacısı qalıb.

Yanvarın 16-da :Neftçala rayon xəstəxanasına, atasının yanına gəlmiş, geri qayıdarkən Neftçala Xalq Cəbhəsinin binası qarşısında atəşə tutulmuşdur. Onunla birlikdə həbs olunan Bəxtiyar Ağayevin dediklərindən: [Bəxtiyarın sözləri «Azərbaycan» qəzetində götürülüb, № 23].

— Hamamda bizi yanaşı uzatmışdılar. Əbülfəz ağrılara dözməyib inildəyirdi. Döyülməkdən haldan düşmüş yoldaşımızı və məni necə gəldi maşına tulladılar. Tərpənəni vururdular. Əbülfəzin yaralı olduğuna baxmırdılar. Hər zarıyanda təpikləyirdilər. Əbülfəz huşunu itirəndə onlardan [?] biri barmağındakı nişan üzüyünü çıxarmaq istədi. Çox çalışdı. Görməyim deyə, məni vurub üzümü divara tərəf çevirməyi əmr etdi. Mən yalnız yaralı yoldaşımın yarımcan halda: «ay ana» deyə qışqırdığını və qırıq-qırıq dediyi «Vətənimin, xalqımın yolunda ölürəm, ay Allah» son kəlmələrini eşitdim. Biz maşından düşəndə gördük ki, həlak olmuş yoldaşımızın üzüyü barmaqla bir yerdə yoxdur».

Yanvarın 26-da atası onun meyidini Bakıdakı mərkəzi ölüxanadan tapıb.

Mərhum Neftçala rayonunda dəfn edilib.

Bu ünvanda yaşamışdır: Neftçala rayonu, Bankə qəsəbəsi.

# GƏNCƏ ŞƏHİDLƏRİ

Narahat günləri çox olub Gəncəbasarın. Nizami, Məhsəti zamanından ta Cavad xanın dövrünədək, Cavad xandan tutmuş ta bu günümüzədək. Hərəsinin öz acısı, öz ağrısı, öz yanğısı... Hərəsinin öz qurbanları...

Hamısı da Ana torpaq, Ana Vətən üstündə. O dövrdə də, indi də...

O dövrdə Cavad xana hücum eləyən yadelli işğalçılar idi. Elə bu gün hücum eləyən də yadellilərdi.

Hər şey yoldan başladı. Şaumyandan meşələrin içi ilə Mardakertə yol çəkildi. Qabağı alınmadı. Başbilənlərimiz qardaşlıqdan danışdılar.

Ara qarışandan sonra o yandan da Şaumyan erməniləri ayağa durdular ki, bəs yönümüz Dağlıq Qarabağadır, biz ora birləşmək istəyirik. Qərar da çıxdı: «Şaumyan rayonu və Çaykənd zonası Dağlıq Qarabağa birləşdirilsin».

Şaumyan rayonundan Çaykəndə də yol-iz sahmanlandı. Planlar cızıldı... Todan kəndi bu iki yaşayış məntəqəsinin arasındadır və burada azərbaycanlılar yaşayır, fikirləşdilər ki, birtəhər qaçırarıq onları...

Yavaş-yavaş Çaykənd ətrafına, Göy-göl zonasına gedib-gələnin ayağını kəsdilər. Sonra başladılar yol-izdəkilərə hücum etməyə.

O tərəfdən də yanvarın əvvəllərində Stepanakertdə Sov. İKP MK katibi A. N. Girenkonu, SSRİ Ali Sovetinin sədri R. N. Nişanovu və Azərbaycan KP MK katibi V. P. Polyaniçkonu şəhərə buraxmadılar. Bu hadisədən sonra saqqallıların ayağı daha da yer aldı. Ermənistan SSR Ali Soveti Şaumyan [Çaykənddə daxil olmaqla] rayonunu Dağlıq Qarabağın büdcəsi ilə birlikdə müzakirə edəndə Çaykənddə artıq döyüş bayrağı qaldırılmışdı. Ölənlərin, yaralananların, girov götürülənlərin sayı günbəgün artırdı. Belə bir vaxtda Şaumyan rayonu ilə sərbəst gediş-gəlişə mane olan Todan kəndi mühasirəyə alındı. Kənd dərənin içində yerləşir və ətrafdakı dağlardan kəndin içi açıq-aydın görünür. Yuxarıda, Maraşen kəndinin qarşısında isə ermənilərin tankları, pulemyotları, karabinləri hazır vəziyyətə gətirilmişdi. Təpənin birinə dolu dağıdılması üçün nəzərdə tutulan nəhəng top da qoyulmuşdu.

Yanvarın 12-də səhər tezdən isə döyüşlər başlanmış, atışmalarda Ruzigar Qasımov, Bəxtiyar Əliyev və Abbasqulu Məmmədov vəhşicəsinə öldürülmüşdü. Yanvarın 14-də Hacıkənd qəsəbəsindəki «Beşulduz» yaxınlığında ermənilər növbəti vəhşiliyə əl atmışlar. Həmin gün səhər tezdən vertolyotdan da dinc əhali atəşə tutulmuş, iki nəfər ölmüş, çoxlu yaralanan olmuşdur. Yanvarın 15-də ermənilərin yaşadığı Maraşen kəndindən 40 dəqiqə ətrafa avtomatdan və pulemyotdan atəş açılmışdır. Yanvarın 18-də Maraşen ərazisində, təpənin üstündə 30 nəfərdən çox silahlı atlı görünmüşdür.

Bu vaxt Naxçıvana da hücumlar başlamışdı, Bakıya da...

* * *

Gəncə şəhidləri ilə bağlı materialların toplanmasında müəllifə yaxından kömək etmiş Gəncə Xalq Cəbhəsinin üzvü İsgəndər Qənbəroğluya minnətdarlığımızı bildiririk.

**VƏLİYEV NEMAN ƏLİ OĞLU**



1962-ci il noyabrın 2-də Gəncə şəhərində anadan olub. Azərbaycan Boru Çəkilişi İdarəsinin ixtisaslaşdırılmış tikinti sahəsində mühəndis işləmişdir. İki övladı qaldı.

Yanvarın 14-də Hacıkənd qəsəbəsindəki «Beşulduz» yaxınlığında gedən atışmalarda öz torpağını qoruyan keşikçi dəstələri iki istiqamətdən hücuma məruz qalmışdılar: yerdən və havadan. Yerdən ermənilərin silahlı dəstələrinin, vertolyotdan Qızıl Ordunun. Neman 20 nömrəli vertolyotdan odlu silahla vurulmuşdu. Həmin vertolyotdan atılan güllə Səbuhi Hacıyevi də qətlə yetirmişdir. Həmin gün xeyli adam yaralanmışdır.

Neman Vəliyev atasının qırxı günü həlak olub. Bir gün əvvəl səhər evdən çıxanda anası deyib ki, oğul, hələ atanın qırxı çıxmayıb, bu dəfə qal.

Neman cavab verib ki, yox, ana, mən xalqın torpağı uğrunda mübarizəsindən geri çəkilə bilmərəm.

Gəncədəki Səbiskar qəbiristanlığında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Gəncə şəhəri, N. Nərimanov küçəsi, ev 187.

**QASIMOV RUZİGAR İMRAN OĞLU**



1956-cı il dekabrın 31-də Gəncədə anadan olub. Gəncə gil-torpaq kombinatında çıxan «Əməkçi» çoxtirajlı qəzetində müxbir işləmişdir. Aysel adında bir qızı qaldı.

Ruzigar 1989-cu il dekabrın 19-da Nüvədiyə yola düşmüşdü. 12 nəfərlə birgə. Təxminən bir ay qaldılar orada. Yanvarın 11-də Nüvədidən Gəncəyə qayıdıblar. Həmin gün axşam saat 10-da Ruzigarın dostu Bəxtiyar Çaykənddən Gəncəyə gəlib. Xəbər verib ki, orada vəziyyət pisdir. Dinc əhalini erməni quldurlarından qorumaq lazımdır. Ruzigar Abbasqulunu da götürüb [onlar Nüvədidə bir yerdə olublar] bir dəstə keşikçi dəstəsi ilə Çaykəndə gedir. Səhər saat 5-də atışma başlayıb, ta saat 9-a kimi.

Ruzigar bu atışmada həlak olub.

Gəncədəki Səbiskar qəbiristanlığında dəfn edilib.

Ünvanı: Gəncə şəhəri, Dədə Qorqud küçəsi, ev 40, mənzil 43.

**ƏLİYEV BƏXTİYAR NADİR OĞLU**



1965-ci ildə Ermənistan SSR Masis rayonunun Nizami kəndində anadan olmuşdur.

3 nömrəli dəmir-beton məmulatları zavodunda fəhlə işləmişdir.

Yanvarın 12-də Çaykənd-Todan zonasında böyük gərginlik əmələ gəlmişdi. Hamının gözləri qabağında burada böyük cəbbəxana yaranmışdı. Ermənistandan gələn vertolyotlar bir ucdan silah və təlim görmüş saqqallıları daşıyırdı. Məhz bu saqqallıların köməkliyi sayəsində dinc əhalidən xeyli adam girov götürülmüşdü. Artıq dözmək məqamı deyildi. Hamı Vətəni saqqallılardan təmizləmək üçün mübarizəyə qalxmışdı. Ölüm-dirim mübarizəsinə. Bəli, bu mübarizədə ölən də oldu, yaralanan da... Dörd nəfər həlak oldu həmin gün. Ruzigar, Abbasqulu, Əliqara, bir də Bəxtiyar...

Bəxtiyar Nadir oğlu Gəncənin Səbiskar qəbiristanlığında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Gəncə şəhəri, Tağıyev küçəsi 107.

## KOSAYEV ALİK [YUSİF] ZABİT OĞLU



1955-ci il sentyabrı n 20-də Gəncə şəhərində anadan olub. Sənədlərdə adı Alik yazılıb. Yoldaşları, qohumları isə Yusif çağırırmışlar. Evli olub. Bir qızı qaldı.

Yanvarın 19-da Hacıkənd qəsəbəsində erməni ekstremistləri tərəfindən öldürülmüşdür.

Gəncə şəhərindəki Səbiskar qəbiristanlığında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Gəncə şəhəri, Mahrasa bağı qəsəbəsi, Kommunist küçəsi, ev 14, mənzil 14.

**MƏMMƏDOV ABBASQULU ƏZİM OĞLU**



1965-ci il fevralın 21-də Gəncə şəhərində anadan olmuşdur.

Gəncə mexaniki-quraşdırma idarəsində elektrik qaynaqçısı işləmişdir. Subay idi.

O vaxtlar Nuvədidə vəziyyət çox pis idi. Hər gün kəndə hücumlar olurdu. Kəndi belə hücumlardan qorumaq üçün rayonlarımızdan keşikçi dəstələri "gəlirdi Nüvədiyə. Ruzigarla Abbasqulu 1989-cu il dekabrın 19-da 12 nəfərlə birlikdə oraya getmişdilər. Yanvarın 11-də isə geri qayıdırdılar. Bu vaxt Gəncəbasarda da vəziyyət gərginləşdi. Həmin gün axşam saat 10-da Ruzigar, Bəxtiyar və Abbasqulu bir dəstə keşikçi dəstəsilə Çaykənd ətrafına gedirlər. Səhər saat 5 radələrində döyüşlər başlayır. Todan kəndinin müdafiəsi qurbansız keçməyir. Abbasqulu səhər saat səkkiz radələrində odlu silahla yaralanır və canını tapşırır.

Gəncənin Səbiskar qəbiristanlığında dəfn olunub.

Bu ünvanda yaşamışdır: Gəncə şəhəri, Vaqif küçəsi, 3-cü döngə, ev 9.

**NƏSİBOV BAYRAM İSMAYIL OĞLU**



1930-cu il martın 22-də Todan kəndində anadan olmuşdur. 4 oğlu, 4 qızı qaldı. Böyük övladının 33, kiçiyinin isə 13 yaşı var. Kənddə çoban olub.

Yanvarın 15-də Todan kəndinin üstündəki təpədə yerləşən Maraşen kəndi yaxınlığında və rusların yaşadığı Mixaylovka kəndi ətrafında toqquşmalar baş vermiş, ölənlər və yaralananlar olmuşdur.

Nəsibov Bayram həmin gün kəndin müdafiəsi uğurundakı atışmada həlak olmuşdur.

Mərhum Gəncə qəbiristanlığında dəfn edilmişdir.

Todan kəndində yaşamışdır.

**HACIYEV SƏBUHİ FƏXRƏDDİN OĞLU**



1969-cu il fevralın 27-də Xanlar rayonunda anadan olmuşdur. Subay idi. Satıcı işləyib.

Yanvarın 14-də Hacıkənd qəsəbəsində, «Beşulduz» yaxınlığında atışma getmiş, ölənlər və yaralananlar olmuşdur. Şahidlərin dediyinə görə yuxarıdan da hərbi vertolyotla atəş açılmışdır. Səbuhi növbəti terrorçuluq aktının qurbanı olmuş, 20 nömrəli vertolyotdan atılan güllədən həlak olmuşdur.

Xalqın təşəbbüsü ilə Xanlar rayonunun girəcəyində, Gəncə-Xanlar şosesinin kənarında dəfn edilmişdir.

Xanlar rayonunda küçələrin birinə Səbuhi Hacıyevin adı verilib.

Bu ünvanda yaşamışdır: Xanlar rayonu, Qarabağ küçəsi, ev 61.

**HÜSEYNOV ƏLƏKBƏR SÖYÜN OĞLU**



1956-cı il fevralın 3-də Todan kəndində anadan olmuşdur. İki qızı qaldı, 6 yaşında və 4 yaşında.

Xanlar adına kolxozda sürücü işləmişdir.

Yanvarın 16-da erməni ekstremistləri kəndi tutmaq üçün növbəti cəhd etmiş, bu torpağın cəsarətli oğulları tərəfindən dəf olunmuşlar. Ələkbər Hüseynov bu atışmada həlak olmuşdur.

Gəncə şəhərindəki Səbiskar qəbiristanlığında dəfn edilmişdir. Todan kəndində yaşamışdır.

**HÜSEYNOV ƏLİQARA ƏLİASLAN OĞLU**



1949-cu ildə Todan kəndində anadan olmuşdur.

Todan kənd məktəbində müəllim, son zamanlar isə Todan kəndinin daxil olduğu Xanlar adına kolxozun sədri işləmişdir. 4 övladı qaldı. Böyüyünün 14, kiçiyinin 10 yaşı var.

Yanvarın 12-də erməni ekstremistləri birinci dəfə kəndə basqın etmiş, bu ərazidə heç vaxt görünməmiş döyüşlər olmuşdur. Həmin gün həlak olan dörd nəfərin sırasında kolxoz sədri Əliqara Hüseynov da olub.

Todan kənd qəbiristanlığında dəfn edilmişdir.

Həmin kənddə yaşamışdır.

## SƏDƏRƏK /NAXÇIVAN/ ŞƏHİDLƏRİ

Naxçıvan torpağına gələn faciə Bakıya gələn faciə ilə qoşa addımlayırdı.

Bakıya gələn faciə Mərkəzdən idi, Naxçıvana isə Yerevandan... Yerevana hardan gəlirdi görən. Bunu fikirləşəndə adamın matı-qutu quruyur. Əli hər yerdən üzülür. Qalır çabalaya-çabalaya.

Hücumlar da eyni vaxta düşmüşdü. Həm Naxçıvana, həm Bakıya... Amma yanvarın 18-də birinci hücum Naxçıvana oldu. [Sədərəyə]. Yanvarın 19-da eşitdiyimiz qəfil xəbər hamını təbdən çıxardı: «Erməni quldurları Sədərək kəndini atəşə tutublar. Mərmilər bir neçə tikilini dağıtmışdır. Ölənlər və yaralananlar var...» [«Kommunist» qəzeti 5 mart 1990-cı il].

Hələ Azərbaycanın diqqəti Naxçıvana yönəlib, hələ Azərbaycanın Bakı faciəsindən xəbəri yoxdur. Bir neçə xəbərdən başqa... Faciə isə yaxındadır, lap yaxında... Pusquda durub.

Təhlükə cildində şəhərin həndəvərində dolanır. Hələ ki, bu ana 10 saat var. Naxçıvanda isə döyüşlər gedir.

Bu yerdə yazıçı Məmməd Orucun «Yeni fikir» qəzetinin builki 8-ci nömrəsində çap olunmuş yazısını xatırlamaya bilmirəm. O günlərdə yazıçı Yurmaladakı Raynis adına yaradıcılıq evində idi. «Yatağa gecə yarıdan sonra girmişdim... Təzəcə gözlərimi yummuşdum ki, zəng çaldı. Dəstəyi qaldırdım və eston yazıçısı Yura Tuliki səsindən tanıdım. Yura belə naqafil zəng çaldığına görə üzr istədi və dedi ki, yatma, dur get evə zəng elə, denən ki, küçəyə-bacaya çıxmasınlar. Bakıda qırğın olacaq... Yanvarın isə 18-i idi.

— Nə bilirsən? — deyə soruşdum. Ərklə bildirdi ki, vaxt itirməyim».

Bir gün, bir gecə sifariş üçün əziyyət çəksə də alınmayıb.

Bu da təsadüfdürmü? Kim bilir?

Bu sətirlər isə İliç rayonunda çıxan «İşıqlı yol» qəzetindəki «Sədərək hadisələri, hüznlü 40 günümüz və bəzi mülahizələr» adlı yazıdan götürülüb.

— Yanvarın 16-da axşam saat 21.25 dəqiqədə respublika televiziyası ilə Azərbaycan DİN-nin məlumatında elan olundu ki, ermənilər 3 min nəfərlik silahlı dəstə ilə Kərki kəndinə hücum ediblər, evlər yandırılıb...

Ancaq televiziyada deyilmədi ki, Kərki kəndinə hücum edən 3 min nəfərin qabağını səhər saat 4-dən axşama qədər cəmi 19 kənd adamı, 3 nəfər rayon DİŞ-in əməkdaşı və 6 nəfər hərbçi saxlayıb. Köməyə gələn olmayıb. Onlar kəndi tərk etməyə məcbur olublar.

Yanvarın 17-də nisbətən sakitlik oldu. Yanvarın 18-də saat 13.20 dəqiqədə Sədərək karantin milis postundan V. Qafarov telefonla rayon daxili işlər şöbəsinə bildirdi ki, avtomat və beşaçılanla silahlanmış bir qrup erməni dəmiryol xətti tərəfdən sərhədi keçib mebel sexinə və şərab zavoduna tərəf yaxınlaşır. Şöbə rəisi mayor A. Həsənov göstəriş verdi ki, gələn silahlı qüvvələr izlənsin, atəş açılmasın. Bir azdan məlumat verildi ki, silahlılar şərab zavoduna və milis postuna tərəf aramsız atəş açır. DİŞ-in rəisi bir daha qəti göstəriş verdi ki, əməkdaşlar özlərini müdafiə etsinlər və mümkün olan həddə qədər atəş açmasınlar. Axı 5—10 milis işçisinin və 30—35 nəfərin adi ov tüfəngi ilə minlərlə əli avtomatlının qabağını saxlaması möcüzəyə bənzəyirdi...

...10 saata yaxı n davam edən ölüm-dirim mübarizəsində müdafiəçilərimizin bir amalı var idi. «Ermənilər Sədərəyə girsələr, bizim meyidlərimizin üstündən keçib getməlidirlər...»

...Yanvarın 19-da o müdhiş gün saat 11 radələrində kənd yenidən atəşə tutuldu. Bu dəfə isə raket, top, pulemyot, avtomat və adını bilmədiyimiz silahlarla Sədərək atəşə tutulmuşdu. «Belə olanda bütün Naxçıvan, Şərur eli köməyə gəldi. Bir neçə saat ərzində kənddən 7—8 min adam — qadınlar və uşaqlar çıxarıldı. Xalq elliklə vətənin müdafiəsinə qalxdı. Qalxdı və dəf elədi düşməni...

...Sonralar məlum oldu ki, hazırlanmış plana görə ermənilər yanvarın 18-də Sədərəyi və Şəruru, 19-da Naxçıvanı tutmaq fikrində imişlər..

Fakt budur ki, bu günlər Sədərəkdə döyüşlər gedirdi. Və bütün döyüşlərdə olduğu kimi ölənləri və yaralıları xəstəxanaya daşıyırdılar.

Yanvarın 19—20-də xəstəxanaya onlarla yaralı gətirilmişdi. Onların səkkiz nəfəri həlak oldu, əbədiyyətə qovuşdu.

Sədərək şəhidləri haqqında materialların toplanmasında yaxından iştirak etmiş jurnalist Natella Bayramovaya müəllif öz minnətdarlığını bildirir.

**ӘHMӘDOV ETİBAR RZAQULU OĞLU**



1962-ci il avqustun 20-dә Şәrur rayonunun Dәmirçi kәndindә anadan olmuşdur. Tikinti idarәsindә sürücü işlәmişdir. İki oğlu, bir qızı qaldı, doqquz bacı-qardaşı.

Yanvarın 19-da Sәdәrәk yaxınlığındakı postlarda növbәdә olub. Axşam növbәsini qurtarıb evә gәlib. Çörәk yeyib, çay içib. Yoldaşları onu evә dincәlmәyә göndәrmişdi. Qәrar tuta bilmәdi evdә, qayıtdı yoldaşlarının yanına. Özü dә hәmişәlik. Yoldaşlarını müdafiә etmәyә getmişdi, torpaqlarını qorumağa getmişdi, elә o torpağa da tapşırıldı.

Etibar yanvarın 20-dә qәrargah yaxınlığında ürәk nahiyәsindәn odlu silahla yaralanmış, axşam saat 6 radәlәrindә hәlak olmuşdur. Etibarla bir yerdә yaralananlar; Bahәddin, Aydın, Vәli, Şahverdi.

Mәrhum anadan olduğu vә yaşadığı Dәmirçi kәndindә dәfn edilmişdir.

**ZEYNALOV VƏLİ MƏMMƏD OĞLU**



1956-cı il dekabrın 20-də Naxçıvan şəhərində anadan olmuşdur. Volqoqrad şəhərindəki Ali milis məktəbini bitirmişdir.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsində Dövlət hüquq şöbəsinin müdiri işləmişdir.

İki uşağı qalıb: İlqar və Yaşar. 1990-cı il mart ayının 28-də Şada kəndində ermənilərlə azərbaycanlılar danışıq aparmalıymış. Vəli də o danışıqlarda olmalı imiş. Ermənilərin Kərməçataq kəndinə hücumu və kəndi yerindən oynatması nəzərdə tutulmuş bir neçə adamı o görüşə getməkdən saxlayıb. Vəli Zeynalov da onların arasında olub. Vəli başına bir dəstə adam toplayıb, demək olar ki, ermənilər tərəfindən tamamilə tutulmuş kəndə girir və quldurları kənddən qovurlar. Vəli vuruşda sağ və sol böyründən, sağ əlindən yaralanmış və həlak olmuşdur.

Həmin gün Kərməçataq kəndində ermənilər 10 ev yandırmış, camaatın mal-davarını sürüb aparmış, apara bilmədikləri mal-qoyunu, toyuq-cücəni isə yerindəcə güllələmişlər.

Vəli Zeynalovun oxuduğu Naxçıvan şəhər 3 nömrəli orta məktəbə və Kərməçataq sovxozuna onun adı verilib.

Naxçıvan Şəhidlər xiyabanında dəfn edilib.

**MƏMMƏDOV İDRİS ƏLƏSGƏR OĞLU**



1959-cu il sentyabr ayının 23-də Naxçıvan şəhərində anadan olmuşdur.

Çilingər işləyib. İki övladı qaldı: Günay və Elnur.

Yanvarın 19-da İdris Məmmədov Koroğlu bulağının yanındakı Qaraburun postunda növbədə olmuşdur. Bu post sərhəd yaxınlığındadır. İdris növbədə olan zaman posta 10—12 erməni yaxınlaşmış, onu odlu silahla sinəsindən vurmuşlar. İdris Sədərək hadisələrində birinci şəhiddir.

Sədərək kəndindən Tofiq Nəsirov növbəni dəyişməyə gələrkən İdrisin həlak olduğunu görüb. Tofiq İdrisi çiyninə götürüb Koroğlu bulağınadək gətirib. Bu vaxt ermənilər bir neçə istiqamətdən kəndə hücum etmişdilər. Vəziyyət gərgin idi. Buna baxmayaraq onun meyidi evə çatdırılıb.

Nehrəm tikinti materialları kooperativi İdris Məmmədovu özlərinin fəxri üzvü qəbul etmiş və hər ay onun ailəsinə 300 manat vəsait keçirir. Şəhidin uşaqlarının istirahəti və oxuması üçün məsuliyyəti də bu kooperativ öz öhdəsinə götürmüşdür.

İdris Məmmədov Naxçıvan Şəhidlər xiyabanında dəfn edilmişdir.

Bu ünvanda yaşamışdır: Naxçıvan şəhəri, Firdovsi küçəsi, döngə 3, ev. 12.

**MƏMMƏDOV MƏHƏMMƏD ƏLİ OĞLU**



1942-ci il avqustun 15-də Şərur rayonunun Danzik kəndində anadan olmuşdur. Avtomobil dəstəsində sürücü işləmişdir.

6 övladı qaldı: Zəminə, Zamin, Sevinc, Elnarə, Emin, Elnurə.

Yanvarın 18-də Sədərəyə hücum edildiyi vaxt Məhəmməd ermənilərin qarşısına birinci çıxıb, sutka ərzində gecə və gündüz ön cərgədə olub.

19-u səhər yoldaşları onu istirahət etmək üçün evə göndərmək istəyiblər. O getməyib.

— Sizi belə çətin vəziyyətdə qoyub evə gedə bilmərəm, — deyib.

Yanvarın 19-u axşam saat təxminən altı radələrində qərargah raketlərlə atəşə tutulur. 25-dən artıq adam yaralanır. Bir neçə nəfər həlak olur. Onların, içində Məhəmməd Məmmədov da var idi. Xəstəxanaya aparılarkən yolda keçinib. "Bel nahiyəsində mərmi yarası olub. Yaşadığı Yenikənd qəbiristanlığında dəfn edilib.

**NƏZƏRƏLİYEV ABBASƏLİ QARAGÖZ OĞLU**



1962-ci il noyabrın 25-də Babək rayonunun Əliabad kəndində anadan olmuşdur.

Tikintidə dülgər işləmişdir. Şövkət adında bir qızı qaldı. Yanvarın 18—19-da kəndin müdafiəsində iştirak edib. 19-u gecə Qaraburun postunda İdris Məmmədovun qətlə yetirilməsi xəbəri Abbasəlini də sarsıdıb. Onun arxasınca gedib. Yolda ona da güllə dəyib. Dostunun dadına çatmamış Abbasəli də həlak olur.

Abbasəli Nəzərəliyevin adı Babək rayonundakı Əliabad kənd məktəbinə verilmiş, «İzmir» kooperativi barelyefini düzəldib məktəbin qarşısına vurmuşdur.

Anadan olduğu və yaşadığı Əliabad kəndində dəfn edilmişdir.

**NƏSİROV ELVİN TOFİQ OĞLU**

**NƏSİROV MALİK TOFİQ OĞLU**



Nəsirov Elvin Tofik oğlu 1984-cü ildə fevralın 11-də Şərur rayonunun Sədərək kəndində anadan olmuşdur.

Elvinin qardaşı. 1986-cı il fevralın 14-də anadan olmuşdur.

Yanvarın 15-dən sonra hər gün ermənilərin hücum ediləcəyi gözlənilirdi. Müdafiə məqsədilə kənd ətrafında 6 post yaradılmışdı: Qırmızıtəpə, Təmizləyici, Cin təndiri, Qaraburun, Qaraağac, Su anbarı.

Yanvarın 19-da Qaraburun postunda növbədə olarkən İdris Məmmədov ermənilər tərəfindən qətlə yetirilir. Elvin və Malikin atası Tofiq Nəsirov İdrisi dəyişməli idi. O, posta gələndə İdrisin öldürüldüyünü görür və onu çiynində Koroğlu bulağınadək aparır. Orada mərhumu maşına qoyub evə göndərirlər. Burada rayon milis şöbəsinin rəisi Allahverdi Həsənov Tofiqə deyir ki, get evə, həm paltarını dəyiş, həm də dincəl. Tofiqin ürəyinə elə bil damıbmış ki, evdə nəsə var.

Tofiq Hüseyn oğlunun dediklərindən:

— Evdə uşaqları və yoldaşımı görməyəndə təəccübləndim. Həyətdə qan ləkələri gördüm. Bu məni qorxuya saldı. Qonşulardan öyrəndim ki, uşaqlar yaralanıb. Xəstəxanada həkimlərin gözündən oxudum ki, uşaqlar tələf olub. Elvin xəstəxanaya çatmamış, Malik isə xəstəxanada...

Sədərək kənd qəbiristanlığında dəfn ediliblər.

Baş daşında bu sözlər yazılmışdır: «1990-cı il yanvarın 19-da xain ermənilərin Sədərək kəndinə basqını zamanı top atəşindən şəhid olan körpələrin — Elvin və Malik Nəsirov qardaşlarının xatirəsinə...

Bakı kondisioner elm-istehsal birliyinin fəhlə və ziyalıları adından».

**SEYİDOV MƏHƏRRƏM MİRƏZİZ OĞLU**



1952-ci ildə Şərur rayonunun Alışar kəndində anadan olmuşdur. Dörd uşaq atası idi. Ülviyyə. Rasim, Şərqiyyə, Habil... Məhərrəm dörd bacının bir qardaşı idi. Milis kapitanı, mühafizə bölməsinin baş müvəkkili Məhərrəm Seyidov yanvarın 20-də növbəni təhvil verib evə getməli idi. Üç gün idi ki, yuxu və dincliyin nə olduğunu bilmirdi.

Məhərrəm bu gün də evə getməkdən imtina elədi. Bir azdan xəbər gəldi ki, yaxın dostu, cinayət axtarış əməliyyatçısı Azər Seyidov üç milis dostunu xilas etmiş, lakin özü şərab zavodu ərazisində ermənilərin əhatəsində qalmışdır. Məhərrəm iş yoldaşı Füzuli Seyidovla yeddi saatdan artıq qarın üstündə qalmış, ayaqları donmuş Azərə kömək etməyi qərara aldı. Öz sağ cinahdakı ağaca doğru süründü ki, atəş açanların diqqəti o səmtə yönəlsin. Sol tərəfdən isə Füzuli Azəri aradan çıxarmalı idi. Elə də etdilər, Azər xilas edildi, Məhərrəm isə sinəsindən odlu silahla yaralandı. BTR hərbi maşını Məhərrəmə köməyə gəldi. Onun da təkərləri güllə ilə deşildi. Məhərrəmi çətinliklə vuruş zonasından çıxardılar, xəstəxanada canını tapşırdı.

Kollektiv M. Seyidovun adını şəxsi heyətin tərkibində saxlamışdır. Rayon mərkəzindəki küçələrdən birinə onun adı verilmişdir.

Anadan olduğu kənddə dəfn edilmişdir.

Ünvanı: İliç qəsəbəsi, Sovet küçəsi, ev 2.

## SEYİDOV MİRHƏŞİM MİRŞƏMİL OĞLU



1958-ci il mayın 20-də Şərur rayonunun Oğlanqala kəndində anadan olub. Qorki adına sovxozda fəhlə işləyib. Dörd övladı qaldı: Mirhəsən, Rumiyyə, İlahə, Bəsti.

Yoldaşı Sədaqət evdar qadındır.

Yanvarın 19-da ermənilərin qərargahı atəşə tutulduğu vaxt Mirhəşim də yaralanmış, bir neçə saatdan sonra keçinmişdir.

Atası Mirşəmilin dedikləri:

— Oğul deyildi, qızıl idi. Allah verdi də, aldı da... Belə məsləhətmiş.

İliç rayonundakı Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəsi Oğlanqala kəndində yaşayır.

## SON SÖZ

Əziz oxucular, beləcə sizinlə birlikdə bu kitabı oxuyub başa çatdırdıq. Oxuduqca düşündük, düşündükcə hiddətləndik. Onsuz da yasda olan bir xalqın dərdinin üstünə dərd qoyduq. Qəlbimizə taleyi bir-birinə yaxın olan 148 Vətən oğlunun taleyini da Yazdıq. Bəlkə də belə daha yaxşıdır. 148 taleyi unutmamaq üçün, 148 Vətən oğlunu xatırlamaq üçün, 148 şəhidi əsrlərlə yaşatmaq üçün... .

Sizcə biz bütün bunları unuda bilərikmi? Sizcə Primakovun, Girenkonun, Mixaylovun, Vəzirovun, M. Məmmədovun, Ə. Daşdəmirovun «Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcək» and-amanları qanlı Batkı faciəsinin birinci səhifəsi deyilmi? Sizcə hərəkata «islam fundamentalizmi» adı qoyan ölkə rəhbərliyinin çıxışlarını tarix unudacaqmı?

Belə... Bu kitabı ortaya qoymaq üçün neçə-neçə şəhid ailəsinin qapısını döydüm. Dərddən, qəmdən saçı-saqqalı vaxtından tez ağarmış bacı gördüm, qardaş gördüm. Beli cavankən bükülmüş ata-ana qarşıladı məni... Gərək daş olasan ki, bütün bunlara dözəsən. Şəhid adına döydüyüm qapılarda yığılardılar başıma. Ata, ana, bacı, qardaş... Nəsə soruş malısan, nəsə öyrənməlisən... Buna ana ürəyimi dözər, buna bacı ürəyimi tab gətirər... Göz yaşları bir-birinə qarışardı. Beləcə birlikdə ağlayardıq. Onlar gözləri ilə, mən ürəyimlə. Onlar ağı deyə-deyə, gözlərindən qan-yaş axıda-axıda, mən içimdən kəsilə-kəsilə. Əvvəl şəhidlərin evində, sonra isə bu materialları hazırlayanda. Beləcə bu kitab meydana gəlib.

Yadımdadı, bir gün dostlarımdan biri ilə rastlaşdım. hal-əhval tutdu, səhhətimlə maraqlandı. Biləndə ki, kitabı hazırlayarkən əziyyət çəkirəm, əsəb, qan təzyiqi işi qurtarmağıma mane olur, belə dedi:

— Bu kitaba görə nə qədər qonorar alacaqsan ki, bu qədər əziyyət çəkirsən? Sağlamlığına ziyandır, eləmə, kim səni məcbur eləyir?

Dostu m a bunu deyə bildim:

— Kitaba görə mənə yüz min manat qonorar verilsə belə, bu mənim çəkdiyim mənəvi əzabın, ruhi sarsıntının mində biri deyil.

Deyəsən o yenə məni başa düşmədi.

Belə...

Əziz oxucu, bu kitabda 1990-cı il yanvar ayında şəhid olanlar haqqında materiallar toplanıb və sözsüz ki, bu, şəhidlərin hamısı deyil. Məlum səbəblərə görə bəzi şəhidlər bu kitaba düşməyib. Onunçun oxuculardan üzr istəyirik. Kitabda siz Bakı şəhidləri ilə yanaşı Lənkəran. Neftçala, Gəncə və Sədərək şəhidlərinin acı, lakin şərəfli taleləri ilə tanış oldunuz.

Ardıcıllıq baxımından qanlı yanvar küləyi birinci Gəncədə əsib. Yanvarın 13—14-də orada doqquz nəfər şəhid olub. 18—19-da Sədərəyə hücum olub. Orada da doqquz şəhidimiz olub. 19—20 Yanvarda növbəti faciə Bakıda törədilməliydi. 25—26-sı Lənkəranda.

Kitabda bu ardıcıllığa əməl olunmayıb. Bacı faciəsi tarixdə görünməmiş qəsd kimi birinci verilib, sonra Lənkəran, Neftçala, Gəncə və ən nəhayət, Sədərək operasiyası...

Sözümün sonunda üzümü oxuculara tuturam: şəhidlərlə bağlı əlavə, bilgiləriniz, rəy və təklifləriniz varsa, nəşriyyatın ünvanına göndərin. Bəlkə gərəyimiz oldu. Allah amanatında.